**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**FUAD ƏHMƏD oğlu HACIYEV**

# SURİYA BÖHRANINDA RUSİYA-QƏRB QARŞIDURMASI

**İxtisas: HSM-060213 – Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**DİSSERTASİYA**

*Elmi rəhbər:* _______________

*Mahal Qacarlı*

*tarix üzrə fəlsəfə doktoru, dosent*

**BAKI-2017**

# MÜNDƏRİCAT

**GİRİŞ**.........................................................................................................**3-8**

**FƏSİL 1. Suriya böhranının yaranma səbəbləri və böhranın beynəlmiləlləşməsi**.............................................................................**9-28**

1.1. Suriyada daxili münaqişənin başlanması və beynəlxalq böhrana çevrilməsi......................................................................................9-19

1.2. Suriya böhranında Rusiya-Qərb qarşıdurmasının Yaxın Şərq regionuna siyasi, iqtisadi və mədəni təsirləri...........................................................19-28

**FƏSİL 2. Suriya böhranı Rusiya və Qərb dövlətlərinin yaxın Şərq strategiyasında**.......................................................................**29-63**

2.1. Suriya böhranının gedişatında Qərb dövlətləri, Türkiyə və İsrailin mövqeyi.......................................................................................29-42

2.2. Rusiyanın Suriya böhranında mövqeyi və müdaxiləsini şərtləndirən amillər.........................................................................................42-52

2.3. Münaqişə tərəflərinin Suriya sülh danışıqlarında mövqeyi.......................................................................................52-63

**NƏTİCƏ**...................................................................................................**64-68**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI**..........................................**69-73**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Yaxın Şərq geoiqtisadi və geosiyasi əhəmiyyətinə görə hər zaman qlobal güclərin söz sahibi olmaq istədiyi əsas regionlardan biri olduğuna görə Suriya böhranı və onun regional və beynəlxalq xüsusiyyətləri elmi cəhətdən böyük əhəmiyyət kəsb edir.

Suriya və onun yerləşdiyi Yaxın Şərq regionu Qərb üçün hər zaman vacibliyini qoruyub saxlamaqdadır. Suriya strateji və coğrafi mövqeyi, onun İraq, Livan, İordaniya və xususilə də ABŞ-ın regiondakı əsas müttəfiqləri olan Türkiyə və İsrail kimi dövlətlərlə həmsərhəd olması, Qərb dövlətləri ilə sahib olduğu tarixi əlaqələri və təhlükəsizlik məsələləri ilə həmişə Qərbin diqqət mərkəzində olmuşdur. Təbii ki, regional yaxınlıq səbəbindən Yaxın Şərqdə meydana gələn hər bir mənfi xarakterli hadisə Qərb dövlətlərini yaxından maraqlandırmaqdadır. Buna görə də bu böhranının öyrənilməsi müasir beynəlxalq münasibətlərin və onun əsas iştirakçılarından olan ABŞ və rəhbərlik etdiyi Qərb blokunun xarici siyasətinin vəgeosiyasi maraqlarının dərk edilməsi baxımından əhəmiyyətlidir.

Soyuq müharibənin başa çatmasından sonra Rusiyanın həm iqtisadi, həm də hərbi cəhətdən zəifləmiş olması onun Yaxın Şərqdə aktiv siyasət həyata keçirtməsinə mane olurdu. Bununla belə, ABŞ-ın "Böyük Yaxın Şərq layihəsi"ni irəli sürməsi və "Ərəb baharı"nın başlaması ilə Yaxın Şərq regionuna hərbi müdaxilələr etməsi Rusiyanın regiona olan maraqlarını yenidən artırmağa başladı. Liviya məsələsində Qərbin önünə keçə bilməyən Rusiya Suriya münaqişəsində öz mövqeyini ortaya qoydu. Bunun əsas səbəbi Suriyada geosiyasi mövqeyini itirəcəyi təqdirdə Rusiyanın regiondan uzaqlaşdırılacağı və Yaxın Şərqdə fəaliyyətinin məhdudlaşdırılacağı ilə bağlı idi. Bu səbəbdən də Suriya böhranında Rusiyanın maraqlarının araşdırılması Suriya böhranının aktuallığına təzahür edir.

Suriya böhranını aktual edən məsələlərdən biri də Suriyada baş verən hadisələrin qonşu ölkələrə də təsirsiz qalmaması və daha geniş bir ərzini əhatə etməsidir. Suriyada baş verən böhran nəticəsində Türkiyədə kürd məsələsinin kəskinləşməsi, regionda sünni və şiələr arasında məzhəb qarşıdurmasının artması, Suriya münaqişəsində Hizbullahın iştirakının birbaşa olaraq Livana və İsrailə mənfi təsiri,

Suriyada fəaliyyət göstərən terror qruplaşmalarının təkcə regionu deyil, eyni zamanda Fransa, Belçika kimi bir çox Avropa dövlətlərini də hədəfə alması, İŞİD-in Suriya və İraqda möhkəmlənərək bir dövlət olaraq meydana çıxması beynəlxalq münasibətlər üçün qlobal təhlükə kəsb edir.

Siyasi maraqlarla yanaşı Suriya böhranının həm Qərb, həm də Rusiya üçün iqtisadi maraqlar baxımından da çox böyük əhəmiyyət daşıması onun aktuallığına dəlalət edən səbəblərdəndir. Çünki, Avropa dövlətləri enerji ehtiyaclarının təxminən yarısını bu regiondan idxal etməkdədirlər. Belə olan halda regionda baş verən qeyri-sabitlik, xaos və böhran enerji ixracının axışını təhlükə altında qoya bilər. Lakin, Suriya böhranında qalib gəlmək Qərb dövlətləri baxımından əlavə enerji resursları təmin edəcək ki, nəticədə bu proses enerji gəlirlərini artırmağa çalışan Rusiyanın bazar payında enişə səbəb olacaqdır. Buna görə də həm Qərb dövlətləri, həm də Rusiya Suriya üzərində nəzarəti ələ keçirtməyə çalışaraq, eyni zamanda birbaşa olaraq bu regionun enerji resursları və bu resursların tranzit nəqli üzərindəki nəzarəti də ələ keçirtmək istəyirlər.

Suriya böhranının qlobal təhdidlərindən biri də miqrant problemidir. Suriyada baş verən hadisələr nəticəsində ölkəni tərk edən milyonlarla suriyalı Türkiyə, Livan, İordaniya, İraq kimi qonşu dövlətlərdə və eyni zamanda bir sıra Avropa dövlətlərində qaçqın həyatı yaşayır. Problemin aradan qaldırılması baxımından Suriya böhranının araşdırılması mühüm aktuallıq kəsb edir.

**Tədqiqat işinin öyrənilmə dərəcəsi.** Tədqiqat prosesində mövzu ilə bağlı mövcud ədəbiyyat bazasından, nəşr olunmuş rəsmi sənədlərdən geniş istifadə olunmuşdur. Dissertasiya işinin yazılmasında ingilis, türk, azərbaycan dillərində olan ədəbiyyatlardan, qəzet və jurnallardan, internet resurslarından geniş istifadə edilmişdir.

2015-ci ilin oktyabrında Konqressional Araşdırmalar Xidməti Konqres üzvləri və komitələr üçün hesabat hazırlayır. Kristofer Blankard, Karla Humud, Mari Bet Nikitinin “Suriyada Silahlı Münaqişə: Təhlil və ABŞ-ın mövqeyi” adlı bu araşdırmasında ABŞ-ın Suriya münaqişəsində mövqeyi və ABŞ-ın Yaxın Şərq və Suriya siyasəti, Suriya münaqişəsində daxili və xarici aktorlar, Rusiyanın

münaqişədə iştirakı və hərbi müdaxiləsi, Suriya münaqişəsi ilə bağlı aparılan Cenevrə və Astana sülh danışıqları təhlil edilir. Tədqiqatın aparılmasında bu hesabatda aparılmış araşdırmalardam istifadə edilmişdir.

Türkiyənin Ege Universitetinin araşdırmaçısı Ali Onur Tepeciklioğlu və Yaşar Universitetinin doktoru Elem Eyrice Tepeciklioğlu 2015-ci ildə dərc edilmiş Ankara Universitetinin SBF dərgisində "Nəzəriyyədən praktikaya: Suriya böhranı və Beynəlxalq Cəmiyyət" məqaləsində mövzunu nəzəri cəhətdən araşdırmışlar. Məqalədə beynəlxalq cəmiyyət, beynəlxalq münasibətlərin təbiəti, onun iştirakçıları, beynəlxalq münasibətlərin təbiətində baş verən dəyişikliklər, böyük güclər arasındakı rəqabət araşdırılmış və bütün bunların Suriya böhranına təsirləri müəyyən edilmişdir. Məqalədə qüvvələr balansı və böyük güclərin idarəetməsi nəzəriyyələri Suriya böhranına münasibətdə təhlil edilmişdir. Eyni zamanda böhranın aradan qaldırılması istiqamətində atılan diplomatik addımlar, onların nə dərəcədə effektiv olması kimi məsələlər də araşdırılmışdır.

Strateji Düşüncə İnstitutunda doktor Birol Akgünün "Suriya böhranında regional və qlobal aktorlar (problemlər,perspektivlər və həll yolları)" araşdırmasında Suriya böhranının həll edilməsində əsas rol oynamağı gözlənilən regional və qlobal aktorlar,onların münaqişədə mövqeyi və Suriya siyasətləri təhlil edilmiş və eyni zamanda böhranın həllində problemlər ve perspektivlər müəyyən edilmişdir. Bu təhlillərdən tədqiqat işinin yazılmasında istifadə edilmişdir.

Suriya böhranı müasir və davam etməkdə olan bir məsələ olduğu üçün mövzunun araşdırılması zamanı dünyanın aparıcı qəzet və jurnallarında dərc edilən məqalə, analitik yazılardan, eyni zamanda çoxsaylı internet resusrslarından geniş şəkildə istifadə edilmişdir. Münaqişənin yaranması, böhrana çevrilməsi, böyük güclərin münaqişədəki movqeyi və müdaxilələri ilə bağlı United Nations, The Washington Post, The Guardian, The New York Times, BBC news, CNN İnternational, Aljazeera, Reuters və s. kimi tanınmış internet səhifələrində dərc olunmuş materiallardan geniş istifadə edilmişdir.

**Tədqiqatın obyekti.** Tədqiqat işinin obyektini 2011-ci ildən bəri davam edən Suriya münaqişəsində Rusiya və Qərb qarşıdurmasının xüsusiyyətləri və tərəflərin

münaqişədəki mövqeyi təşkil edir.

**Tədqiqatın predmeti.** Rusiyanın Surya böhranındakı mövqeyi və onun hərbi əməliyyatlara başlayaraq münaqişəyə müdaxiləsini şərtləndirən amillər, ABŞ-ın rəhbərliyi altında Qərb koalisiyasının böhrandakı mövqeyi və Qərb dövlətlərinin regiondakı geosiyasi və iqtisadi maraqlarında Süriya böhranının təsirləri tədqiqat işinin predmetini təşkil edir.

**Dissertasiyanın məqsədi.** Tədqiqat işinin əsas məqsədi Suriya böhranında Rusiya və Qərb qarşıdurmasını müxtəlif parametrlərdən öyrənmək və bu qarşıdurmanın regional və beynəlxalq münaibətlərə təsirini müəyyənləşdirməkdən ibarətdir.

**Dissertasiyanın vəzifələri.** Tədqiqat işində müəyyən olunmuş məqsədə çatmaq üçün aşağıdakı vəzifələri yerinə yetirmək nəzərdə tutulur:

-Suriyada daxili münaqişənin başlanması və beynəlxalq böhrana çevrilməsinin səbəblərini müəyyən etmək

-Suriya böhranında Rusiya-Qərb qarşıdurmasının Yaxın Şərq regionuna siyasi, iqtisadi və mədəni təsirlərini öyrənmək

-Suriya böhranında Qərb dövlətlərinin, Türkiyənin və İsrailin geosiyasi maraqlarına aydınliq gətimək

-Rusiyanın Suriya böhranında mövqeyi və müdaxiləsini şərtləndirən amilləri müəyyənləşdirmək

-Suriya sülh danışıqları və bu danışıqların gedişatına Rusiya və Qərbin təsirlərini təhlil etmək.

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqat işinin yerinə yetirilməsi zamanı müxtəlif metodlardan istifadə olunmuşdur. İş prosesində qarşıya qoyulan məqsəd və vəzifələrə çatmaq, Suriya böhranında və ümümilikdə Yaxın Şərq regionunda cərəyan edən hadisələrin obyektiv mənzərəsi haqqında dolğun məlumatlar əldə etmək və bu hadisələrin arxasında əslində hansı geosiyasi maraqların dayandağını müəyyən etməkdən ötrü müqayisəli təhlil, sintez, deduksiya və induksiya kimi metodlar tədbiq edilmişdir.

Müxtəlif fakt və materialların toplanması, onların müqayisəli və tənqidi yanaşma

üsulu ilə səmərəli isdifadə olunması nəticəsində əhəmiyyətli ümümiləşdirmələr aparılmışdır.

**Dissertasiyanın elmi yeniliyi.** Beynəlxalq münasibətlərin aktual məsələlərindən biri olan Suriya böhranı ilə bağlı yazılmış bu tədqiqat işində Suriyada daxili münaqişənin formalaşmasına səbəb olan konkret daxili və xarici amillərin rolu müəllif tərəfindən araşdırılmışdır. Bu səbəbdən müəllifin bu sahədə araşdırmaları yenilik kəsb edir. Suriya münaqişəsinin beynəlxalq böhrana çevrilməsində regional və qlobal güclərin rolu müəyyənləşdirilmişdir. Suriya böhranında baş verən hadisələrin Yaxın Şərq regionuna siyasi, iqtisadi və mədəni təsirləri, eyni zamanda, Suriyadakı hadisələrin qonşu dövlətlərin daxili siyasətinə nə dərəcədə təsir etdiyi öyrənilmişdir. Bundan başqa, qlobal güclərin Suriya münaqişəsinə müdaxiləsini şərtləndirən amillər təhlil edilmişdir. Suriya ilə bağlı sülh danışıqlarında Suriya hökuməti ilə yanaşı Suriya müxalifətinin və münaqişənin digər tərəflərinin mövqeyi və istəkləri ilə bağlı araşdırmalar elmi dövriyyəyə bu işlə gətirilmişdir.

**Dissertasiyanın praktiki əhəmiyyəti.** Dissertasiyada verilən məlumatlar, aparılan araşdırmalar və əldə edilən nəticələr Suriya böhranı və onun regiona təsiri, Suriyanın gələcək taleyi və böyük dövlətlərin Yaxın Şərq regionundakı maraqları ilə bağlı bir çox suallara aydınlıq gətirilməsi baxımından əhəmiyyətlidir.

İş prosesində əldə olunmuş nəticələr öyrənilən problemlə bağlı müəyyən proqnozların verilməsinə və qiymətləndirmələrin aparılmasına yardım edə bilər. Bundan başqa, dissertasiyanın materialları əsasında "Ərəb baharı"ndan təsirlənən dövlətlərin kecdiyi siyasi proseslər, regionda baş verən hadisələrdən sonra Yaxın Şərqdə baş verən siyasi və iqtisadi dəyişikliklər və region dövlətlərinin dəyişən mövqeyi ilə bağlı araşdırmaların aparılması, analitik materialların hazırlanması mümkündür.

Tədqiqat işində yer almış materiallar problemlə bağlı dərsliklərin, metodik vəsaitlərin, tədris proqramlarının, mühazirə mətnlərinin hazırlanmasında da əhəmiyyətli ola bilər.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işinin mövzusu ilə bağlı müəllifin 2 məqaləsi və 2 tezisi işıq üzü görmüşdür. Azərbaycan Dillər Universiteti

"Beynəlxalq münasibətlərin aktual problemləri" jurnalında "Suriyada vətəndaş müharibəsinin başlanması və beynəlxalq böhrana çevrilməsi" və "Suriya böhranında Qərb dövlətlərinin və Türkiyənin mövqeyi" adlı məqalələri və Qərb Universitetində keçirilən XX Tələbə Elmi Cəmiyyətində 2 tezisi dərc olunmuşdur.

**Dissertasiyanın strukturu.** Magistr dissertasiyası “Giriş”, iki fəsil, beş paraqraf, “Nəticə” və “İstifadə olunmuş ədəbiyyat siyahısı”ndan ibarətdir.

# FƏSİL I
# SURİYA BÖHRANININ YARANMA SƏBƏBLƏRİ VƏ BÖHRANIN BEYNƏLMİLƏLLƏŞMƏSİ

## 1.1. Suriyada daxili münaqişənin başlanması və beynəlxalq böhrana çevrilməsi

"Ərəb baharı" ərəb xalqlarının demokratiya və azadlıq hərəkatı olaraq başlayıb, bir çox diktatorların devrilməsilə nəticələnən və hələ də davam etməkdə olan tarixin ən böyük xalq hərəkatlarından biridir. 2010-cu ilin dekabrında Tunisdə narazılıqlar baş qaldıran zaman Yaxın Şərq və Şimali Afrikadakı ərəb dövlətləri ciddi problemlər bataqlığına düşmüşdü. Bütün ərəb dünyasında siyasi narazılıqlar çox yüksək səviyyədə idi. Burada böyük miqyasda işsizlik hökm sürürdü. İqtisadi artımdan gələn mənfəətlərin qarşısı da bir sıra insanlar tərəfindən alınırdı. Gənc nəsil çox narahat idi. Tunisdəki böhran iqtisadi və siyasi vəziyyəti çox da fərlqi olmayan digər region ölkələrinə də sürətlə yayılırdı. İğtişaşın Suriyaya da yayılacağı və burdakı rejimin süqütu düşünülürdü. Amma bu baş vermədi. Proqnozların əksinə olaraq Suriya rejimi illərdir xaricdən gələn amansız təzyiq və hücumlara müqavimət göstərə bilirdi. Suriyadakı vəziyyətə yaxından nəzər salmaq buradakı rejimin hansı səbəblərə görə süqut etmədiyini, Suriyadakı vəziyyətin mürəkkəbliyini və danışıqların siyasi həllini tapmaqda hansı maneələrin olduğunu başa düşməyə kömək edə bilər.

Suriyada daxili vəziyyət. 1946-ci ildə Suriya öz müstəqilliyini qazandığı vaxtdan 1970-ci ildə Hafiz Əsəd hakimiyyətə gələnə qədər olan dövr ərzində Suriyada hər hansi bir hökümətin mövcudluq dövrü orta hesabla 1 il idi. 1971-ci ilin martında Hafiz Əsəd dövlət başçısı seçildi və o gündən bu günə kimi ölkəni Əsəd ailəsi idarə etməyə başladı. Hafiz Əsəd hakimiyyətə gəldikdən sonra öz hakimiyyətini möhkəmləndirmək üçün ilk iş olaraq ona idarəetmədə, qanunvericilikdə və hərbi sahədə geniş səlahiyyətlər verəcək bir idarəetmə sistemi yaradan 1973-cü il konstitusiyasını hazırlatdı. Bu konstitusiya ilə ölkədəki bütün qurumlar üzərində

mütləq bir hakimiyyəti təmin edən Əsəd demokratik görünüşlü avtoritar bir rejim yaratdı. O, hakimiyyəti dövründə Suriyada siyasi stabilliyi təmin etmiş, SSRİ və İranla münasibətləri inkişaf etdirmişdi. Onun Qərb və İsrailin əleyhinə, Fələstinin leyhinə olan siyasəti məhsuldar Qolan Təpələrini işğal etmiş İsrailə qarşı olan suriyalıların dəstəyini qazanmışdı. Hafiz Əsəd ictimai həyatda çox görünməzdi və əhali ilə çox da əlaqə saxlamazdı, amma, buna baxmayaraq hamı ona hörmət edirdi (3).

Prezident Bəşər Əsəd. 2000-ci ildə Hafiz Əsədin ölümündən sonra hakimiyyətə gələn Bəşər Əsəd prezident olmaq üçün tələb olunan 40 yaş məhdudiyyətini ödəmirdi. Buna görə də ölkə parlamenti dərhal prezident seçilmək üçün yaş həddini 34-ə endirərək Bəşər Əsədin yolunu açmış və Əsəd ailəsinin hakimiyyətini bir daha gücləndirmişdi.

Beləliklə, 2000-ci ildə Hafizi hakimiyyətdə onun oğlu Bəşər Əsəd varisi olaraq əvəz etdi. Qərbdə yarımçıq təhsil almış Bəşər qardaşı Basel 1994-cü ildə vəfat etdikdən sonra siyasətə gətirilən könülsüz bir siyasətçi idi. O liberal idi və ölkəni liberallaşdırmaq üçün bir sıra addımlar atmışdı, lakin bəzi Bəəs (Ərəb Sosialist Dirçəliş partiyası) veteranları onlun əl-qolunu bağlayırdılar. O, əhali ilə tez-tez əlaqədə olur və onlar tərəfindən sevilirdi. Əhalinin bəzi təbəqələri üçün problemlərə səbəb olsa da onun iqtisadi islahatları əhali tərəfindən yaxşı qarşılanırdı və o, siyasi sabitliyi təmin etmişdi. Prezident kimi öz vəzifəsinə başladıqdan sonra o ilk nitqində cəmiyyəti liberallaşdırmaq üçün siyasi müxalifəti heyran qoyan bir neçə fikir qeyd etdi. Onun Qərbə açıq olması, Türkiyə və Qətər ilə sıx dostluq münasibətləri, Rusiya və İranla olan əlaqələrə yetərsiz diqqət göstərməsi Partiyanın mənafeyinə uyğun gəlmirdi. Bu mövzuda Partiyanın mənafeyinin doğruluğu sübut olundu. Ölkədə vətəndaş müharibəsi başlayandan sonra Türkiyə və Qətər Əsədin əleyhinə çıxdılar. Bununla belə ənənəvi dostları olan Rusiya və İran isə bu çətin günlərdə onun yanında idi. Narazılıqlar başlayanda Partiya sərt yanaşma metodunu seçdi, Bəşər isə daha yumşaq metodara üstünlük verirdi. Bütün bu müxtəlifliklərə baxmayaraq Suriya xaricdən maliyyələşdirilən üsyanla üzləşdikdə Prezident və Partiya birləşdi (38).

Suriya vətəndaş müharibəsinin köklərini, onun beynəlxalq böhrana çevrilməsinin

səbəblərini, hökümətin atdığı addımları və region dövlətlərinin Suriyadakı hadisələrə təsirini aşağıdakı meyarları sadalamaqla aydınlaşdırmağa çalışaq:

Təriqət problemləri. Suriya münaqişəsi bir çoxları tərəfindən təriqətlər arası münaqişə kimi xarakterizə olunur. Belə ki, şiə hesab edilən prezidentin özü də nüseyrilərdəndir. Əvvəllər bu münaqişə təriqətlər arası münaqişə deyildi. Bəəsin hakimiyyəti altında olan Suriya bölgədəki dünyəvi ölkələrdən biri idi. Suriyada əhalinin 73-75%-i sünni müsəlman, 12%-i şiə, 10-12%-i isə xristianlardır. Bundan başqa ölkədə az da olsa yəhudi və yezidilər də yaşayırlar. Bəşər özü nüseyrilərdən, arvadı Əsma isə Homsdan olan sünnilərdən idi. Bəşər azlıqların əksəriyyəti üçün məşhur idi. Onun aldığı hədsiz dəstəyin əksəriyyəti sünnilərdən gəlirdi. Ölkədə müxtəlif məzhəblər arasındakı fikir ayrılığı idarə ediləbiləcək səviyyədə idi. Nöqsanlar nə olursa olsun Bəəs rejimi təkidlə Suriyanın dünyəvi ölkə olaraq qalmasını təmin edirdi. Lakin, sünnilərin silahlı üsyanları zamanıəsasən azlıqlar hədəfə alındıqlarına görə təriqət narazılıqları tədricən münaqişəyə çevrilirdi. Xarici qüvvələr təkfirilər və sələfiləri Suriyaya göndərdikdən sonra vəziyyət daha da pisləşməyə başladı və Əl-Qaidənin iştirakı daha da artdı (4).

Əsrlər boyu Suriya müxtəlif istiqamətlərdən təkrar-təkrar işğal olunub və bu da cəmiyyəti daha qəddar, insanları isə təbiətcə qəsbkar edib. Bəzi tayfalar arasında məktəb imthanlarını keçdiyinə görə öz övladlarını silahla mükafatlandıran ailələr mövcud idi. Xarici görünüşdə vəziyyət xoşagələn olsa da, daxildə bəzi gərginliklər var idi. Amma onlar yalniz təriqətlə bağlı deyildi. Bu gərginliklər ictimai sülhə və ahəndarlığa təsir göstərməsinin qarşısını almaq məqsədilə müxtəlif növ tədbirlər vasitəsilə nəzarət altında saxlanılırdı.

Bəşər Əsəd və Bəəs Partiyası arasında əlaqələr. Rəhbərlik və partiya arasında fikir ayrılıqları var idi. Bəşər bir liberal idi və bu da onun partiyanın üzvləri ilə münaqişəsinə səbəb olurdu. O, hakimiyyətə gəldikdən sonra cəmiyyəti liberallaşdırmaq üçün bir sıra qərarlar verməyə başladı. Xalq tərəfindən sevilməsinə və məşhurluğunun artmasına baxmayaraq, prezident daha sonralar partiya tərəfindən müqavimətlə üzləşdi. 2007-ci ildə Partiya Konqresi tərəfindən siyasi islahatların keçirilməsi haqqında qərar qəbul olundu amma onlar həyata keçirilmədi. Həmçinin,

iqtisadi islahatlardan ziyan görmüş kənd təssərrüfatına, suvarma siteminə, kənd infrastrukturuna və işçilərə yetərsiz diqqət göstərildiyinə görə prezident patiyaya acıqlı idi. Öz növbəsində Bəşərin xarici siyasət seçimləri isə partiya üçün narahatlıq doğururdu. Lakin, bütün bunlara baxmayaraq, ölkədə narazılıqlar baş qaldırdıqdan sonra Partiya Əsədin arxasında dayanmağa davam etdi (22).

Etnik fərqlilik. Suriyada əhali etnik cəhətdən də çox müxtəlifdir. Əhalinin 77-83%-i ərəb, 9-10%-i kürd, 4-5%-i türkmən, 2%-i erməni, 1%-i çərkəz, 1%-i isə digər millətlərdən ibarətdir. Suriyada sayca azlıq təşkil edən xalqların ümumi əhaliyə nisbətləri aşağı olsa da, müəyyən bəlli bölgələrdə onların sayca əksəriyyət təşkil etmələri, bu azlıqların xüsusilə müharibəni bəhanə edərək yerli müxtariyyət tələblərini dilə gətirmələrini qaçınılmaz etdi. Bunun sayəsində də xüsusilə Bəəs dövründə ərəbçilik və müsəlmançılıq əsasında yaradılmağa çalışılan, lakin, hələ də tam olaraq formalaşdırılmayan Suriya milli kimliyi 2011-ci ildə başlayan etirazlardan sonra ciddi bir sınaqdan keçməkdədir.

Kürd faktoru və bölünmə müzakirələri. Suriyadakı ən boyük etnik qruplardan olan kürdlər bu günə qədər Suriya rejimi tərəfindən demək olar yox sayılırdılar. 1962-ci ildə tərtib edilən əhali siyahısında kürdlər - "vətəndaş, xarici və qeydiyyatsız" olaraq 3 ayrı statusda qeydə alınmışdılar. Vətəndaş statusunda olmayanlar - vətəndaş olmaq, mülk əldə etmək, səyahət etmək, ailə qurmaq, təhsil almaq kimi təməl insan hüquqlarından məhrum olmuşdular. Hətta, Hafiz Əsəd hakimiyyəti dövründə rəhbərlik ölkə xaricindəki kürd qruplarına dəstək verərək ölkədəki kürdlərin onlarla birləşməsinə əngəl olmağa çalışırdı. Bəşər Əsəd dövründə isə ölkənin şimalında məskunlaşan kürdlər ölkədəki vətəndaş müharibəsi və qarışıqlıqdan istifadə edərək Şimali İraqdakı kürd rəhbərliyinin dəstəyi ilə Suriyanın şimalında muxtar bir Kürd dövləti yaratmaq cəhdlərinə başlamış və artıq şimalda bir çox bölgənin idarəetməsini ələ keçirdərək Suriyadan ayrılma səslərini yüksəltməyə başlamışdılar.

Enerji müharibəsi. Suriyada yaşanan vətəndaş müharibəsinin pərdə arxasında dayanan məqamlardan biri də bölgədəki enerji qaynaqları və onların tranzit nəqli üzərində mübarizədir. Burada xüsusilə Turkiyə və Yaxın Şərq ölkələri ilə yanaşı ABŞ və Rusiyanın maraqlarına təsir edəcək təbii qaz layihələri mövcuddur. Suriya

da Türkiyə kimi regionun enerji qovşaqlarından birinə çevrilmək, Rusiya və İranla birlikdə böyük enerji layihələri həyata keçirtmək istəyirdi. Bu vəziyyət isə ABŞ, digər Qərb dövlətləri və Türkiyənin mənfi reaksiyasına səbəb oldu. Bölgədə Rusiya və İranın müttəfiqi olan güclü Suriya dövlətinin istənilməməsi ölkədəki vətəndaş müharibəsinin əsas səbəblərindən biri kimi qiymətləndirmək olar (39).

Kütləvi informasiya vasitələrinin rolu. Media Suriyadakı etirazların sürətlə yayılmasında böyük rol oynadı. Medianın bəzi bölmələri xüsusilə ərəb dilli və körfəz ölkələrinin mediası etirazlar haqqında şişirdilmiş rəyləri kobud şəkildə yayımlayır, zərər çəkənlərin sayını şişirdir, etirazçılar tərəfindən silahlı hücumun açıq aydın sübutu olsa belə, bütün zorakılığa görə ölkənin təhlükəsizlik qüvvələrini günahlandırırdılar. Onların yeganə məqsədi suriyalıları rejimə qarşı üsyana təhrik etmək idi. Artıq, rejimin devrilməsinə kömək etmək üçün bitərəflilik və obyektivlik bir kənara qoyulmuşdu. Suriya hökuməti isə medianın təzyiqinə qarşı mübarizə apara bilmirdi. Ölkədə aparılan rəy sorğuları dünyanın Suriya və onun prezidentindən üz çevirməsi ilə nəticələndi (5).

Çaşbaş qalmış müxalifət. Suriya böhranında etirazçılar nə istədiklərini dəqiq olaraq bilmirdilər, onlara xarici nizamlayıcılar tərəfindən pul verilmişdi və anti-rejim şüarları qışqırmaları tapşırılmışdı. Prezident Əsəd insanların narazılıqlarını müəyyənləşdirmək üçün müxtəlif əyalətlərdən onları müzakirə üçün görüşə çağırırdı. Bu görüşlər zamanı göstərilən tələblər şəxsi və dini islahatlardan tutmuş siyasi islahatlara qədər uzanırdı, onlar özləri də nə istədiklərini dəqiq bilmirdilər: sosial-iqtisadi narazılıq,yerli problemlər və s. Homsda etirazlar başlayan zaman onların əsas tələbi Səudiyyə Ərəbistanının tələbinə əsasən həbsə salınmış onlarla narkotik satıcısının və silah qaçaqmalçılarının azad edilməsi idi. Bir qədər sonra isə müxalifət prezidentin istefası da daxil olmaqla kəskin siyasi islahatların aparılmasını tələb etdi. Bu hadisə Qərb və Körfəz dövlətlərinin tələbi və 2011-ci ilin sentyabrında Ramazan ayının sonundan bir qədər əvvəl rejimi devirmək üçün üsyançılara edilən yardımdan sonra baş verdi. Təxminən üç-dörd ay sonra etirazda iştirak edənlərin sayı azalmağa başladı, lakin eyni zamanda müxalifətin zorakılıqları durmadan artırdı. O vaxta qədər qonşu ölkələrdən gələn qatı ekstremistlərlə bərabər müxalifət arasında

esktremistlərin iştirakı əhəmiyyətli dərəcədə artmışdı. Onların hərəkətləri isə əsasən, müxalifətin xarici sponsorları tərəfindən nizamlanırdı.

Suriyadakı müxalifət çox fərqli idi. Xaricdən ittifaq qurmaq cəhdləri uğurla nəticələnmədi. Onların etibarlılıq, yekdillik və ümumi fəaliyyət proqlamları yox idi. Arasıkəsilməz davalar, çox saylı qeyri-rezident suriyalıların iştirakı və digərləri ilə arasında müsəlman qardaşlığının aparıcı rol oynaması səbəblərinə görə Suriya Milli Şurası irəliləyişə nail ola bilmədi. Zaman keçdikcə müxalifət daha çox qütbləşməyə başladı (28).

Körfəz dövlətləri. Yaxın Şərq siyasətində Suriya və Fələstinin birgə mövqeyi, onun Livandakı rolu, sosialist yönümlü siyasəti, Rusiya və İrana yaxınlığı, Hizbullahı dəstəkləməsi və s. məsələlər Suriyanın Qərb və Körfəz dövlətləri ilə münasibətlərinin pozulmasına birbaşa səbəb oldu. Suriyanın bu cür siyasət yürütməsi İsrailin təhlükəsizliyi üçün bir təhdid idi. Diqqətdən yayınan mövzu o idi ki, İsrail 1967-ci il Ərəb-İsrail münaqişəsindən bəri Qolan təpəliklərinin Suriyaya məxsus hissəsini işğal edib. 2011-ci ilin martında Suriya texniki cəhətdən İsrail ilə müharibə şəraitində idi və fövqəladə vəziyyət qüvvədə idi.

2010-cu ildə ABŞ Körfəz dövlətlərini inandırmağa çalışırdı ki, onlar İrandan Livanın cənubuna qədər qövsvarı şəkildə şiyələrlə əhatə olunub və müəyyən müddətdən sonra şiələr Körfəz dövlətlərindəki sabitliyi pozmaq üçün cəhd edəcəklər. 2011-ci ilin fevralında Bəhreyndə baş verən proseslər, Yəmən və Səudiyyə Ərəbistanının şiə əsilli husilər tərəfindən üzləşdiyi problemlər Körfəz dövlətləri üçün ABŞ tərəfindən vurğulanan narahatlıqların təsdiqi idi.

Suriyanın uzun müddətdir Səudiyyə Ərəbistan ilə münasibətləri gərginliklərlə dolu idi. Səudiyyə Ərəbistanı ABŞ, Suriya isə Rusiya ilə müttəfiq idi. Suriya soyuq müharibə bitdikdən sonra Livandakı hadislərdə iştirakını davam etdirdiyinə görə Səudiyyə Ərəbistanını qəzəbləndirmişdi. Suriya hökuməti 2005-ci ildə sonuncu Səudiyyə Kralı Abdullah İbn Əbdüləzizin yaxın dostu Rafiq Həririnin sui-qəsdində günahlandırılırdı və Dəməşq ilə Riyad arasındakı əlaqələr soyuqlaşmağa başlamışdı. Bu əlaqələr 2006-ci ildə Cənubi Livanda İsrail əməliyyatı zamanı ərəb liderlərinə Bəşər tərəfindən verilən sərt reaksiya ilə daha da mürəkkəbləşdi. 2008-ci ilin

dekabrında Dəməşqdə keçirilən Ərəb Liqasının samitinə Səudiyə kralı qoşulmadı və onu boykot etdi (12).

2009-cu ildən sonra isə Livanın inkişafı üçün Dəməşqdən dəstək istədiyinə görə əlaqələr inkişaf etməyə başladı. 2010-cu ilə qədər Bəşər Əsəd Səudiyyə Ərəbistanına üç dəfə səfər etdi. Səudiyyə Ərəbistanının tələbinə əsasən Suriya bəzi insanları narkotik və silah qaçaqmalçılığına görə həbs etdi. Suriya hökuməti Səid Həririnin Livanda keçirilən seçkilərdə baş nazir vəzifəsinə təyin olunması üçün faydalı rol oynadıqdan sonra Kral Abdullah 2009-cu ilin oktyabrında Dəməşqə səfər etdi. Daha sonra hər iki lider birlikdə Beyruta baş çəkdilər. Bundan başqq Suriya İrandan dəstək almış husi üsyanları zamanı Yəməndə Səudiyyə Ərəbistanının silahlı fəaliyyətini dəstəklədi, əvəzində isə Səudiyyə Ərəbistanı 2011-ci ilin martında öz silahlı qoşunlarını Bəhreynə göndərdi. Buna baxmayaraq, çox qısa müddət ərzində Səudiyyə Ərəbistanı Suriya əleyhinə çıxdı və müxalifətə öz siyasi və maddi dəstəyini artıraraq onu daha da qızışdırdı. Hətta, sünni dini liderlərinə Bəşər Əsəd əleyhinə xoşagəlməz bəyanatlar verməyə və məzhəb narazılıqlarını artırmağa icazə verilmişdi.

Qətər əmiri Bəşər Əsədin yaxın dostu bilinirdi, məgər ki, Qətər ancaq yaxşı gün dostu imiş. Əl-Cəzirə nümayəndəliyi Suriya rejimi əleyhinə çıxan etirazçıları təşviq etmək və ictimai rəyi Dəməşq əleyhinə çevirmək üçün ərəb dünyasında Suriyada inkişafın təmamilə təhrif edilmiş görünüşünü əks etdirməyə çalışırdı. Qətərdə sürgündə olan Misir İslam aliminə Suriyada ictimai rəyləri azad şəkildə təşviq etməyə icazə verilmişdi. İlkin mərhələlərdən etibarən Qətərin müxalifəti dəstəklədiyi və onlara fəal şəkildə kömək etdiyi aşkar idi. Qətər və Səudiyyə Ərəbistanı 2011-ci ilin noyabrında Ərəb Birliyini manipulyasiya edib və bunun sayəsində Suriya Birlikdən kənarlaşdırılıb.

Misir. Suriya və Misir arasında əlaqələr 1961-ci ildə Suriya Birləşmiş Ərəb Əmirliklərindən çıxarıldığından bəri heç vaxt xoşagələn olmayıb. Suriya ilə Kemp Devid razılaşmasının əksinə olaraq Misirin 1973-cu ildə Ərəb İsrail müharibələri zamanı atəşkəs elan etməsi Suriyanın mənafeyinə uyğun gəlmədi. Suriya ilə əlaqələrin inkişaf etdirilməsi bir neçə il çəkdi. 2011-ci ilin əvvəllərində Prezident Hüsnü Mübarəkin devrilməsindən sonra Misir özü iğtişaş içərisində idi və bu

səbəbdən Suriyada heç bir tədbir görə bilmirdi. Lakin, əvvəlcə könülsüz olsa da Ərəb Birliyi vasitəsilə Dəməşq əleyhinə əməliyyatlarda Körfəz dövlətlərinə qoşulmuşdu.

Türkiyə. Suriya Türkiyə münasibətləri Bəşərin Dəməşqdə, Ərdoğanın isə Ankarada olması ilə möhkəmlənməyə başlamışdı. Türkiyə Xarici İşlər Naziri Əhməd Davudoğlu Dəməşqə tez-tez səfərlər edirdi. 2010-cu ildə bu dövətlər arasındakı əlaqələr ən yüksək zirvədə idi. Türkiyə Suriya və İsrail arasında körpü rolunu oynayırdı. 2009-cu ildə hər iki ölkə 50-dən çox anlaşma memorandomu müqavilələri imzalamışdılar. Türkiyənin iddiya etdiyi kimi bu müqavilələrdən biri hər iki ölkə arasında sərhədləri qanuniləşdirirdi. Tigris çayının sularının bölüşdürülməsi məsələsi də həmçinin Türkiyənin xeyrinə həll olunmuşdu. Bəəs Partiyası isə Türkiyəyə inanmadığına görə bu işdən məmnun deyildi. Hər iki ölkə visa tələblərini ləğv etməklə sərhədlərarası hərəkəti yüngülləşdirdi. Hətta münasibətlərin yaxşı olduğu vaxtlarda belə, Türkiyənin baş naziri Rəcəb Tayip Ərdoğan Bəşəri inandırmağa çalışırdı ki, Müsəlman Qardaşlığı ifratçı deyil və onlar demokratik istiqamətlərə gətirilməlidi.

Livan. Suriyanın Livanda nüfuzu 2005-ci ildə Həririnin sui-qəsdi və Suriya qüvvələrinin Livandan çıxarılması ilə azalmağa başladı. Dəməşqin Hizbullaha yardımı davam edirdi və bu yardımın səbəbi Suriya rəhbərliyi tərəfindən regional konkteks baxmından izah olunurdu. Səudiyyə Ərəbistanı Kralı Abdullanın təkidi ilə Səid Həriri Dəməşq şəhərinə iki dəfə səfər etmiş və 2009-cu ildə keçirilən seçkilərdən sonra Suriya hökümət Livanda Səid Həriri hökümətinin qurulmasında ona dəstək olmuşdu. 2009-cu ilə qədər hər iki ölkə diplomatik əlaqələr qurur və elçilər mübadiləsi aparırdılar. Səid Həriri atasının sui-qəsdində Suriyanın rolunun olmasına baxmayaraq Səudiyyə Ərəbistanının məsləhəti ilə bunun üzərindən keçsə də, bunu tamamilə unutmadı. Suriyada çətinliklər başlayanda Səid Hərinin rəhbərliyi altında olan Livan sünniləri əvvəlki rəhbərlərini çətinlik içində görməkdən məmnun oldular və təxminən 30 il ərzində Suriya hakimiyyəti dövründə yaşadıqları alçaldılmalara görə intiqam almaq üçün müxalifətə yardım etməyə başladılar. Hətta, bir çox ölkələr Suriyaya ləvazimat və döyüşçü göndərmək üçün Suriya və Livan arasındakı sərhədlərdən istifadə edirdilər.

Yuxarıda göstərilənlərdən də göründüyü kimi 2011-ci ilin əvvəllərində Başər Əsədin çox az sayda dostu var idi və hətta güvənə biləcəyini düşündüyü dostları belə ancaq "yaxşı gün dostu"na çevrilmişdi. Beynəlxalq səviyyədə isə onun sədaqətli dostları olsa da, düşmənləri daha çox idi (22; 1).

Rusiya, Çin və İran. Hafiz Əsəd hakimiyyəti dövründə Moskva və İranla olan əlaqələrə xüsusi diqqət yetirmişdi. Başər Əsədin Qərbə əl uzatmasına baxmayaraq, bu ölkələr arasında sıx əlaqələr davam etməkdə idi. Suriyanın Rusiya ilə güclü siyasi, iqtisadi və mədəni əlaqələri var idi. Rusiya hərbi dəniz qüvvələri Suriyanın Tartus limanından istifadə hüququna malik idi. Bir çox Bəəs rəsmiləri və yüksək vəzifəli hökümət rəsmiləri Rusiyada təhsil almışdı. Rusiya Suriyada texnologiya, müdafiə avadanlıqları və maliyyə inkişafının əsas mənbəyi idi. Bu Liviyaya Suriyadan qabağa keçməyə kömək etdi, lakin BMT qətnaməsi gözlənildiyi kimi şərh edilmədiyinə görə Rusiya Liviyanın işğalına başlaması məsələsində özünü aldadılmış hiss etmişdi. Onlar bu dəfə aldadılmamalı idi.

Çinin də, həmçinin, Liviyada baş verənlər haqqında müəyyən tərəddüdləri vardı. Bundan əlavə, o bölgənin bəzi ərazilərində baş alan dini ifratcılıq halları üçün narahat olmaqda idi. Sərhəddə İraqdan gələn silah axınına nəzarət edərək avadanlıqların gözdən keçirilməsinə xidmət edən və Suriyanı xəbərdar edən Çin ekspertləri idi. Çinin suriyada baş verənlər barədə yaxşı məlumatı vardı və Suriyaya siyasi dəstəyi artırırdı. BMT-nin iki daimi üzvünün Rusiya və Çinin dəstəyi ilə Suriya BMT-nin beynəlxalq sanksiyaları ilə üzləşməli olmadı.

İranla isə əlaqələrdə iqtisadi və siyasi əlaqələrlə yanaşı dini faktorlar da vardı. Çox mühüm şiə məbədləri Suriyada yerləşirdi və bu, hər il onlarla, minlərlə iranlını bura cəlb edirdi. İran-İraq müharibələri zamanı Suriya İranın tərəfində idi. Ən əsası isə Suriya Livanda İranın Hizbullaha yardımı üçün fəal şəkildə dəstək göstərirdi (22; 29).

Suriyada İslam Şam dövləti. Belə hesab etmək olar ki, sonunda İraq Şam İslam Dövlətinə çevrilən İraqdakı Əl-Qaidə təşkilatı Suriyada hadisələrin başlanğıcından bəri fəaliyyət göstərməkdə idi. İŞİD-in ilk böyük əməliyyatı 2011-ci il aprelin 20-də Dara yaxınlığındakı təhlükəsizlik zastavasında həyata keçirilmişdi. Onlar Türkiyə

sərhədi boyu olan sərhəd zastavalarının tutulması üçün ön cəbhə xəttində idilər və xaricdən birbaşa və bilavasitə dəstək almaqda idilər.

Suriyada narazılıqların artması. Daxili vəziyyətlə yanaşı xarici faktorlar və fəal xarici cəhdlər də Suriyada baş qaldıran narazılığın başlıca səbəblərindən biri idi. 15 məktəblinin anti-rejim divar yazılarına görə günahlandırılması qığılcımların meydana gəlməsini başlatdı. Onlar martın 18-də Dara şəhərində minlərlə insanın qarşısında həbs olundular və işgəncəyə məruz qaldılar. Etirazçıların əsas tələblərindən biri də torpaq transferi ilə bağlı qanunun ləğv olunması idi. Bu qanuna görə sərhədin 10 kilometrliyində olan torpaqlar transfer olunmalı idi. Bu korrupsiya və gecikmələrlə nəticələnirdi. Buna görə də dövlət bu qanunu ləğv etməyi qərara aldı. 24 mart 2011-ci il tarixində Prezident yanında Suriyanın Siyasi və Media məsləhətçisi hökümətin qərarlarını elan etmək üçün mətbuat konfransı keçirdi. Dəməşq ümid edirdi ki, bu qərarlar nəticəsində etirazların qarşısı alınar. Lakin, belə olmadı. Hər keçən gün etirazlar müxtəlif şəhərlərə yayılırdı. Artıq həmin anlardan başlayaraq baş verən hadisələrdə xarici qüvvələrin iştirakı son dərəcə aydın idi.

Narazılıqların artmasından sonra Suriya hökümətinin bir sıra səhvləri oldu. Daradakı uşaqların etinasız şəkildə həbsi şiddətli qınağa səbəb olmuşdu və ona görə də buna daha tez cavab verilməliydi. Hökümətin etirazçıları ələ alması cəhdi mənasız idi. Çünki, Suriyada yalnız təhlukəsizlik qüvvələrinin cəbhə boyu düzülməsini təmin edən bir neçə minə qədər polis qüvvələri vardı. Həmin təhlükəsizlik qüvvələri isə daxili narazılıqların aradan qaldırılmasında deyil, yalnız xarici düşmən və terroristlərin tutulması üçün təlim keçmişdilər. Bunun da nəticəsində həddindən artıq zorakılıq hallarının olması göz qabağında idi. Belə olduqda Suriya höküməti bəzi tədbirlər görməyə başladı. Tanklar problemli rayonlara göndərilirdi və təbii ki, bütün bunlar kütləvi informasiya vasitələrində nümayiş etdirilirdi (11).

Üsyançılar bəzi hərbiçilərin ailə üzvlərini qaçırdıqlarına görə hərbiçilər təzyiq altında idilər, onlar yalnız fərarilik edəcəkləri halda onların ailə üzvləri buraxılacaqdı. Hökümətin ictimaiətlə əlaqə cəhdləri də səmərəsiz oldu. Üsyanın ilk mərhələlərində itkilərin 40%-i hökümət tərəfindən idi ki, bunlara da silahlı qüvvələr, kəşfiyyat heyəti və digər hökümət tərəfdarları daxil idi. Siyasi baxımdan da Dəməşq

tərəddüd içində idi. İnkişaf etməkdə olan vəziyyətin ciddiliyini nəzərə alsaq cavab qeyri-qənaətbəxş və zəif idi. Sərt cavabların tərəfdarı olan Bəəs partiyası ilə ali rəhbərlik arasında fikir ayrılıqları var idi. Bəşər Əsəd bəzi Qərb ölkələrinə dolayı yolla siyasi cavabları gecikdirməyə icazə vermişdi. Əsasən, xaricdən gələn qatı ekstremistlər vasitəsilə sayi durmadan artan müxalifətin cavabı isə qəddar oldu və zorakılıqlar artmağa başladı.

Artıq, Bəşər Əsəd anlayırdı ki, onun səyləri heç bir nəticə vermir. Buna görə də 2012-ci ilin fevralında yeni konstitusiyada qəbul olunan əsas qərarlar daha əvvəldən elan olunmalı idi. Bunlara mühüm rol oynayan maddə 8 də daxil idi, hansı ki, bu maddə prezidentin birbaşa seçilməsini, prezidentlik müddətini 2 ilə qədər məhdudlaşdırmaqla çoxpartiyalı demokratiyanın tətbiqini nəzərdə tuturdu. Bu məlumatlar dolayı yollarla da verilə bilərdi, lakin əsas məqsəd küçələrdə müəyyən təsir yaratmaq idi (44).

## 1.2. Suriya böhranında Rusiya-Qərb qarşıdurmasının Yaxın Şərq regionuna siyasi, iqtisadi və mədəni təsirləri

2011-ci ilin mart ayında Suriyada azadlıq tələbləri ilə başlayan üsyanda Əsəd rejimi nümayişləri şiddət yolu ilə sonlandırmaq istəyirdi. Suriyanın geosiyasi önəmi çox sayda ölkənin bu münaqişəyə müdaxilə olması və nümayişlərin qanlı bir vətəndaş müharibəsinə çevrilməsinə səbəb oldu. Şiddətli döyüşlərin getdiyi və ilk mərhələdən başlayaraq qonşulara yayılma təsiri göstərən Suriya vətəndaş müharibəsi Yaxın Şərq təhlükəsizliyini gedərək daha çox təhdid etməyə başlamışdı. Digər tərəfdən vətəndaş müharibəsinin bölgədə tətiklədiyi təhlükəsizlik problemi Suriyadakı qeyri-sabitliyin davam etməsinə də səbəb idi.

Suriya böhranı Rusiyanın maraqları kontekstində araşdırıldığında hər şeydən əvvəl bu ölkənin Rusiya ilə SSRİ dövründən qalan kök salmış əlaqələrindən danışmaq lazımdır. Liviya məsələsində Qərbin önünə keçə bilməyən Rusiya Suriya məsələsində öz mövqeyini ortaya qoydu. Bunun əsas səbəbi Suriyanın Rusiya üçün

geostrateji əhəmiyyətə sahib olması ilə bərabər digər təməl faktorların da olmasıdır.

İlk öncə Rusiyanın Suriya məsələsində Qərb müdaxiləsinə qarşı gəlməsinin əsas səbəblərindən biri Rusiya-Suriya əlaqələrindən daha çox Rusiya-İran münasibətlərindədir. Bu səbəbdən də Rusiya baxımından Suriya İrana edilə biləcək hər hansı bir ABŞ-İsrail müdaxiləsinin qarşısını almaq üçün bir sədd rolunu oynayır. Eyni zamanda, Rusiyanın Suriya sahilində olan Tartus Hərbi Limanı 1971-ci ildə etibarən rus hərbi qüvvələrinin Aralıq dənizidəki varlığı baxımından böyük əhəmiyyət daşımaqdadır. Bu hərbi liman həm də Suriyaya qarşı ediləcək müdaxilələrə qarşı daşındırıcı güc olaraq dayanmaqdadır (61).

Rus mütəxəssislərinə görə Ərəb baharının son hədəfi İrandır. Bu isə birbaşa Rusiya ilə Çinə ciddi bir zərbə vurmaq mənasını verməkdədir. Əgər Qərb bloku İranı istədiyi xəttə gətirərək hazırladığı sistemi orada yerləşdirərsə Qərb ölkələri baxımından əlavə enerji resursları təmin ediləcək və bu proses enerji gəlirlərini artırmağa çalışan Rusiyanın bazar payında enişə səbəb olacaqdır. Çin baxımından isə İranın enerji qaynaqları Rusiya və ABŞ-dan enerji asılılığında olmaması üçün çox böyük əhəmiyyətə malikdir. Buna görə də Qərb dövlətləri üçün İran üzərində nəzarət birbaşa Çinin bu ölkədən təmin etdiyi enerji ehtiyacları üzərində nəzarət deməkdir (60).

Göstərilən bu faktorlar Rusiya və Çin üçün Suriya məsələsinin əhəmiyyətini ortaya qoyur. Ona görə də onlar Suriyadakı mövcud rejimin saxlanılmasında maraqlıdırlar və xüsusilə Rusiyanın Suriya üzərindəki dəstəyi həm diplomatik (BMT vasitəsilə), həm siyasi (Əsəd rejiminin hələ də qanuni rejim olduğunu qəbul edərək), həm də hərbi (Əsəd rejimini hərbi təchizatlarla təmin edərək) sahələrdə davam etməkdədir.

Suriya böhranından təsirlənən əsas region dəvlətlərindən biri də Turkiyədir. Hər nə qədər Türkiyənin mövqeyi Əsəd rejiminə qarşı Qərb ittifaqı tərəfdarı olaraq görünsə də Türkiyənin Suriyaya dönük siyasətini göstərən bəzi meyarlar var. Türkiyə çalışır ki, Suriyada öz tərəfdarı olan rejimin qurulmasına nail olsun və burada qurulacaq yeni rejimlə razılaşaraq ölkənin iqtisadi maraqlarının qorunmasını təmin etsin. Türkiyə göstərilən bu iki meyarı Rusiya ilə birlikdə reallaşdıra bilər amma bu vəziyyətdə onun Qərb ilə olan müttəfiqliyi sona çata bilər. Əgər Qərb dövlətləri

xüsusi olaraq Suriya mövzusunda, ümumi olaraq isə Yaxın Şərq regionunda Türkiyənin maraqlarına zidd olan bir siyasət həyata keçirtsələr Türkiyənin mövqeyində dəyişikliklərin ola biləcəyi ehtimal oluna bilər(54).

ABŞ-ın Yaxın Şərq siyasəti, avtoritar rejimlərin səbəb olduğu böhranlar, Suriyada vətəndaş müharibəsinin uzanması və əl-Qaidə ilə əlaqəli qrupların təşkilatlanması bölgədə təhlükəli bir güc boşluğu meydana gətirmiş və bu xaos mühitində başda İŞİD olmaqla terror təşkilatları bölgə təhlükəsizliyini təhdid edən əsas meyara çevrilmişdi. Eyni zamanda, İraq və Suriyadakı güc boşluğu bu ölkələrdə PKK-nın daha rahat fəaliyyət göstərməsinə yol açmaqda və bölgə daxilində kürd mənşəli siyasi məsələləri qabartmaqda idi. Buna görə də Türkiyənin öz sərhədləri çərçəivəsində kürd problemini həll etmək və terror təşkilatlarını tərksilah məqsədiylə başlatdığı həll prosesi daha böyük maneələrin iştirak etdiyi bir mühitdə davam etdirilməkdə idi. Türkiyə Yaxın Şərqdə insan hüquqları və demokratiya prinsiplərinin önə çıxarması istiqamətindəki mövqeyini beynəlxalq cəmiyyətlə birlikdə reallaşdırmağa çalışır. Onun bu mövqeyini dəyişməkdə olan maraqlı qüvvələr isə Türkiyəni regionda yanlızlaşdırmağa çalışsalar da, buna nail ola bilmirlər (65).

Suriyada yaşanan hadisələr Türkiyə-İsrail əlaqələrinə və Türkiyənin kürd probleminə yanaşmasına da ciddi şəkildə təsir etmişdir. 2013-cü ilin mart ayının sonlarında ABŞ prezidenti Barak Obamanın İsrailə səfəri zamanı etdiyi təzyiqlərlə İsrail hökuməti Mavi Mərmərə gəmisinə etdiyi qanlı müdaxilə üzündən Türkiyə dövlətindən üzr istədi. Türkiyə və İsrail dövlətləri arasında bir müddətdir pis şəkildə davam edən əlaqələrin İsrail hökumətinin ABŞ-ın təkidi ilə atdığı bu addımla düzəlmə yoluna girməsi də bölgədə baş verən hadisələrin mahiyyətini açıqca ortaya qoydu. İsraildə yayımlanan Haaretz qəzeti İsrailin Türkiyədən üzr istəməsini böyük ölçüdə Suriyadakı yeni şərtlərlə bağlı olduğunu diqqət çəkərək, Ankara ilə əməkdaşlığın yenidən başladılmasını Suriyadakı vəziyyətin ciddiliyi ilə əlaqələndirdi.

Suriyadakı kürdlər üzərində ən təsirli güc olan və PKK-nın rəhbərliyi altında hərəkət edən PYD-nin Qərbi Kürdüstan adlanan bölgədə böyük irəliləyişlər qət

etməsi, hakimiyyəti altında bölgələr meydana gətirməsi Türkiyə Cümhuriyyətini hərəkət etməyə onsuz da məcbur edirdi. Bu günə qədər təhdidlə və Azad Suriya Ordusu üzərindəki təsirin istifadə edilməsi yolu ilə qarşısı alınmağa çalışılan Suriya kürdləri üzərində bu siyasətin nəticə verməyəcəyini gördükdə siyasət dəyişikliyinə gedildi. Öcalan ilə razılığa gələrək Kürd Azadlıq Hərəkatının silahlı ünsürlərinin Türkiyə sərhədlərinin xaricinə çıxarılması qərarının alınmasına nail olması ilə Türkiyə kürd problemində quruluşundan bu yana davam etdirdiyi fəlsəfəsində yeni düzəlişlər etyməyə qərar vermiş görünür. Şübhəsiz ki, bunda qüvvətli şəkildə özünü ortaya qoyan imperialist arzularının yanında kürd azadlıq hərəkatının qarşısı alınmayan yüksəlişi də təyin edici rol oynadı.

Suriya vətəndaş müharibəsinin Yaxın Şərq regionuna əsas siyasi təsirlərindən biri də radikalizmdir. İraq işğalı Yaxın Şərqdə radikal hərəkətlərin zəmin qazanmasına səbəb olmuşdu. İraqda uzun müddət hakim olan güclü mərkəzi hakimiyyətin çöküşü ölkədə dərin bir güc boşluğu yaratmış və bu boşluq başda Əl-Qaidə olmaq üzrə bir çox radikal qrup tərəfindən doldurulmağa çalışılmışdı. İraqda hakim olan xaotik mühit dünyanın müxtəlif ölkələrindən olan radikal qrupların döyüşmək üçün bu regiona axın etməsinə səbəb olmuşdu.

Suriya vətəndaş müharibəsi də bu radikal qruplar baxımından yeni bir fürsət yaratdı. Daha əvvəl Əfqanıstan və İraqda yaşanan proseslər indi Suriyada yaşanmağa başlamışdı və minlərlə insan İŞİD və Nusra Cəbhəsi kimi cihadçı təşkilatlar üçün döyüşmək üzrə Suriyaya axın etdi. Bu döyüşçülərin dünyanın bir çox bölgələrindən olmaqla yanaşı böyük bir qismi Şimali Afrika və Yaxın Şərq ölkələrindən gəldi. Suriya rejiminin nəzarəti itirdiyi bölgələrdə bu təşkilatlar sahib olduqları insan qaynağı, maliyyə gücü, döyüş təcrübəsi və ideoloji bağlılıq kimi faktorlar sayəsində önə çıxdılar və xüsusilə Suriyanın şimal cəbhəsində əhəmiyyətli bir coğrafiyanı nəzarətləri altına keçirdə bildilər. Bu vəziyyət Yaxın Şərq və Suriyaya qonşu ölkələrin təhlükəsizliyi baxımından biri qısa, digəri uzun müddətli iki təhdid ortaya çıxartdı. Qısa müddətli təhdid Suriyada güclənən radikal qrupların qonşu ölkələrə yayılma meylinin olmasıdır. Dəyişik ölçülərdə olsa da hər bir qonşu ölkə bu təhdid ilə birbaşa qarşı-qarşıyadır. İraqda İŞİD-in irəliləyişinin Suriyadakı hadisələrdən

təsirlənmədiyini düşünmək mümkün deyil. Livanda çox uzun illər sonra ardı-ardına bu radikal qruplar tərəfindən bir sıra hücumlar həyata keçirilmişdi. İŞİD və Nusra Cəbhəsi Suriyada Türkiyə və İordaniyaya açılan bəzi sərhəd qapılarına nəzarət etməkdədirlər. Türk ordusu İŞİD-in sərhəd bölgəsində yaratdığı qeyri-sabitlik səbəbiylə təşkilatın mövqelərini dəfələrlə bombalamaq məcburiyyətində qalmışdı. Bu prosesin Yaxın Şərqdə daha uzun müddətdə yaradacağı təhlükəsizlik təhdidi isə əksəriyyəti Şimali Afrika və Yaxın Şərq ölkələrindən gələn döyüşçülərin sahib olduqları təcrübə və şəbəkə şəklində ölkələrinə geri qayıtmalarıdır (63).

Şiə-Sünni qütbləşməsi. İraq işğalının Yaxın Şərqdə yaratdığı ən əhəmiyyətli nəticələrindən biri bölgədə şiə-sünni qütbləşməsinin dərinləşməsi və yeni bir qarşıdurma dinamikası olaraq ortaya çıxmasıdır. İraqda yaşanan məzhəb mübarizəsi güclü daxili döyüş və Yaxın Şərq ölkələrinin müdaxilə etməsiylə regional ölçü qazanmışdır. İraqda iqtidarın şiələrə keçidi ilə İrandan başlayıb Livana qədər uzanan coğrafiyanı əhatə edən "Şiə Hilali "anlayışı bu dövrdə ortaya çıxmışdır. Yeni vəziyyəti təhdid olaraq qəbul edən ölkələr öz aralarında bir "sünni blok" yaratdılar. Suriyada başlanan xalq üsyanı da bu proseslər nəticəsində dini-məzhəb qarşıdurmalı güclü bir vətəndaş müharibəsinə çevrilməsi ilə bölgədə əhəmiyyətli bir qarşıdurmanın - "şiə-sünni" qütbləşməsinin dərinləşməsinə səbəb oldu. Bölgədəki bütün aktorlar bu qütbləşmədən kənar qala bilmədilər. Bu vəziyyət hər şeydən əvvəl dəyişkən ictimai quruluşa sahib Yaxın Şərq ölkələrinin daxili ictimai sabitliyinə mənfi təsir göstərdi. Öz vətəndaşlıqlarından daha çox məzhəb kimlikləri ön plana çıxmış və eyni ölkənin vətəndaşları arasında güvən böhranı yaranmağa başlamışdı. Ölkələrin öz xarici siyasət seçimlərini məzhəbi istinad alaraq etməsi ölkə daxilində fərqli qrupların dövlətlə sədaqət bağını zəiflətdi. Haqqsızlığa məruz qaldıqlarını düşünən qruplar isə haqq axtarmağa başlamaq qərarına gəldilər. İraq və Livanda Sünnilərin silahlanması, Səudiyyə Ərəbistanda böyük diametrli olmasa da şiə qiyamlarının baş tutması Suriya böhranındakı məzhəb qarşıdurmasının Yaxın Şərqdəki səbəb olduğu şiə-sünni qütbləşməsinə nümunə olaraq göstərilə bilər.

Sərhədlərin dəyişməsi. Suriyada vətəndaş müharibəsinin necə sona çatacağı və yeni Suriyanın necə olacağı sualına cavab vermək demək olar qeyri-mümkündür. Amma

hər vəziyyətdə köhnə Suriyaya geri qayıdılmasını və ölkənin güclü mərkəz tərəfindən idarə ediləcəyini söyləmək çətin olardı. Yaxın Şərqdə avtoritar rejimlərin aradan qalxdığı hallarda necə bir siyasəsi quruluşun ortaya çıxa biləcəyilə bağlı iki nümunə olaraq Livan və işğal sonrası İraq göstərilə bilər. Hər iki ölkədə müxtəlif etnik-dini qrupların öz ərazilərinə nəzarət etdiyi və hətta İraqda federal bölgələrin yarandığı görülməkdədir. Suriya vətəndaş müharibəsinin 6 ildir davam etdiyi bu müddətdə Suriyanın praktiki olaraq "rejim bölgəsi, müxalifət bölgəsi, Kürd bölgəsi, İŞİD bölgəsi və SDQ bölgəsi (Suriya Demokratik Qüvvələri)" şəklində bir bölünməyə məruz qaldığı deyilə bilər. Bu bölünməni daha təhlükəli edən meyar isə bunun İraqdakı bölünmə ilə paralellik təşkil etməsidir. Suriyada müxalifət bölgəsi demək olar tamamilə sünni əksəriyyətin yaşadığı bir sahəni əhatə edir. Suriyadakı sünni əhalinin yaşadığı bu bölgə onsuzda uzun müddətdir mərkəzi hökumətin nəzarət edə bilmədiyi bir bölgə idi və son böhran ilə birlikdə sünni bölgənin sərhədləri daha dəqiq şəkildə ortaya çıxmağa başladı. Suriyadakı kürdlər xarici təhdidlərə baxmayaraq mərkəzi hökumətin kürd ərazilərindən çəkilməsi ilə tək tərəfli və hökuməti olmayan bir quruluş da olsa kürd avtonom bölgələri meydana gətirməyi bacardılar. İraqdakı proseslər ilə birlikdə düşünüldüyündə Suriya böhranının Yaxın Şərq bölgəsinin təhlükəsizliyi baxımından sərhədlərin yenidən dəyişilməsinə gətirib çıxardacaq səviyyədə bir təhlükəsizlik təhdidini ortaya çıxardığını söyləyə bilərik.

Regional rəqabət. Bölgə ölkələrindən olan Livan son dərəcə mürəkkəb etnik və dini-ictimai birliklərin bir yerdə yaşadığı bir ölkədir. Və bu birliklər arasında tarixi kökləri olan bir güvənsizlik mövcuddur. Bu etibarsızlıq 1975-ci ildə başlayıb 15 il davam edən vətəndaş müharibəsi ilə daha da dərinləşmişdi. Bununda bərabər ölkə zəif mərkəzi hakimiyyət tərəfindən idarə edilməkdədir. Bu səbəblə özünü güvəndə hiss etməyən bu ictimai birliklər xarici bir gücün qorumasına ehtiyac duymaqdadır. Bu vəziyyətin iki əhəmiyyətli nəticəsi vardır. Birincisi ölkə davamlı olaraq xarici təsirə açıq qalmaqda və regional aktorların rəqabət sahələrindən biri halına gəlməkdədir. İkincisi ölkədə sabitlik və təhlükəsizlik çox kövrək bir hal almaqdadır. Buna görə də Livan Yaxın Şərqə qeyri-sabitlik ixrac etmə potensialı səbəbiylə hər zaman bölgə təhlükəsizliyi üçün əhəmiyyətli bir ölkə olmuşdur.     Bənzər bir

vəziyyət vətəndaş müharibəsinin başlamasının ardından Suriya üçün də keçərli oldu. Suriyada rejimin zəifləməsinəndən və paralel olaraq mərkəzi hakimiyyətin mövcudluğunun xarici dəstəklərdən asılı qalmasından sonra Suriyada fərqli mərkəzdənqaçma qüvvələri meydana gəlmiş və bu da bölgədə reginaol rəqabət baxımından yeni bir oyun sahəsi yaranmışdı. Beləcə Suriya vətəndaş müharibəsi regional qütbləşməni və vəkalət müharibəsini dərinləşdirmişdi. Bu səbəbdən Livan və İraqdan sonra Suriya da Yaxın Şərq təhlükəsizliyi baxımından yeni və daha böyük bir problem sahəsi olaraq ortaya çıxmış vəziyyətdədir (69).

Suriya böhranının Yaxın Şərq regionuna təsirlərindən biri də heç şübhəsiz iqtisadi təsirlərdir. Bölgədə sürətlə artan neft istehsalının ən qısa və etibarlı yolla qlobal iqtisadiyyata açılması üçün uyğun marşrut axtaranlara Şərqi Aralıq dəhlizi çox cazibədar bir fürsət idi. Aralıq dənizi dəhlizinin açılmasının əsas əhəmiyyəti bu dəhlizin etibarlı bir keçid olmasında idi. Bu bölgənin sabit olması açılacaq dəhliz planlarının əsas şərtlərindən biridir. Burada qurulacaq hər hansı bir  siyasi quruluşun davamlı olması bölgənin "işləyən" bir bölgə olmasıyla da birbaşa əlaqəlidir. Bunun mənası isə ən azından bölgənin müəyyən hissələrində qaydalar, hüquqi strukturlar və sərbəst bazarlar baxımından yeni bir siyasi quruluşun meydana gəlməsi deməkdir. Bölgədə neft istehsal edən beynəlxalq şitkətlərin də prioritet seçimləri budur. Şimali İraqda Bərzaninin domeni ilə digər qruplar arasındakı fərq bunu açıq şəkildə göstərir. Bu səbəblərdən dolayı Türkiyə ilə 911 km-lik sərhədi olan Suriyada Türkiyənin qəbul etməyəcəyi federal və ya digər bir formada siyasi quruluş yaratmaq mümkün görünsə də, onun idarə edilməsi çox çətin olacaqdır.

Türkiyə ilə Qətərin Əsəd rejiminə qarşı müxalifəti dəstəkləmələrində təbii qaz geopolitikası Ankara ilə Dohanın Suriyaya qarş münasibətlərində önəmli yerə sahibdir. 2009-cu ildə Əsəd Qətərdən Türkiyəyə təbii qaz daşıyacaq boru xəttinin Suriyadan keçməsi proyektini rədd etdi. Hər kəsə məlumdur ki, Rusiya Avropa Birliyinin bir nömrəli qaz tədarükçüsüdür və Avropa Birliyi dövlətlərinin Rusiyadan enerji aslılğı mövcuddur. Bu layihəyə görə təbii qaz boru xətti Qətərin şimal nöqtəsindən başlayaraq Səudiyyə Ərəbistanı, İordaniya və Suriyadan keçməli idi. Belə qənaətə gəlmək olar ki, Bəşər Əsəd rejiminin bunu qəbul etməməsi Rusiya ilə

bağlıdır. Rusiyanın Suriya ilə tarixi əlaqələrini və bundan əlavə, Rusiyanın Qara dəniz donaması üçün yeganə Aralıq dənizi hərbi bazasının Suriyanın Tartus limanında yerləşməsini nəzərə alsaq, Bəşər Əsədin bu layihəyə razılıq verməsi mümkün deyildi.

Bu proseslər şimali İraq neftinin Aralıq dənizinə çıxış yolunun təhlükəsizliyini və Şərq Aralıq dənizində Gazpromun da içində olduğu fəaliyyətlərin və bölgənin nəzarəti üçün Rusiyanın əvvəlkindən daha çox güclənməsini təmin edəcək. Rusiya ABŞ-ın yaxın gələcəkdə Asiya-Sakit okean regionunda gücünü artırmaq üçün edəcəyi hücumlara qarşı Yaxın Şərqdə daha güclü olmağa çalışır.

Rusiyanın Yaxın Şərqdəki böyük planının tərkibinə gələcəkdə İngiltərəni və xüsusilə Aralıq dənizi üçün ABŞ xarici siyasətindən fərqli düşünən Fransanı da daxil edərək əməkdaşlıq yaratmaq daxildir. Bu əməkdaşlığın təməlində ən təyin edici güc Şərqi Aralıq dənizi təbii qazının Avropa üçün daşıdığı əhəmiyyət olaraq ortaya çıxmaqdadır. Bütün bu proseslərdən görünən odur ki, Yaxın Şərqdə qurulacaq yeni nizamın formalaşmasında və bu nizamın qismən sabit qalmasında xüsusilə Şimali İraq nefti və Şərq Aralıq dənizindəki yeni karbohidrogen zənginliyi çox mühüm rol oynayacaqdır.

Suriya böhranının iqtisadi təsirlərindən biri də yenidən formalaşacaq Yaxın Şərqdə su təhlükəsizliyinin təmin edilməsinin prioritet olaraq seçilməsidir. Əslində bu təhlükəsizlik düşüncəsinin indidən var olduğu müxtəlif güclərin nəzarət altında tutduqları yerlərə baxıldığında görünür. Bölgədəki mövcud yerüstü və yeraltı sularının yanında su yığma və su çevirmə strukturlarının vəziyyəti, suvarılan sahələr, artıq yeni sərhədlərin müəyyənləşməsində təsirli faktorlar olduğunu göstərir.

Yaxın Şərqin 100 il əvvəlki dizaynında neft qaynaqları üçün göstərilən həssaslıq bu dəfə su qaynaqlarını və mövcud su strukturlarını da əhatə edəcək. Bu vəziyyətdə böyük ehtimalla Fərat-Dəclə hövzəsi sularının bütün Yaxın Şərqin su problemlərini həll edəcək bir qaynaq olaraq görülməsi qlobal güclər tərəfindən təkrar müzakirə olunacaqdır. Yaxın Şərqdə qurulacaq yeni nizam bölgədə su təhlükəsizliyinin təmin edilməsinə nail olmalıdır. Bu coğrafiyada su iqtisadi dəyəri ilə yanaşı ictimai, mədəni və dini motivlərə də sahib olan bir təbii qaynaqdır. Bu xüsusiyyət su mənbələrindən

Suriya münaqişəsində siyasi məqsədlər üçün də istifadə edilməyə çox uyğun bir mühit yaradır (48).

Həmçinin, regionun su qıtlığı problemini çətinləşdirəcək bəzi ünsürlər da var. Dəclə sularına əhəmiyyətli miqdarda qatqısı olan İran da keçmişdə olduğundan daha çox su tənzimlənməsinin içində yer almağa çalışacaqdır. Suriya münaqişəsinin gedişatında məzhəblərarası mübarizəinin inkişafı İranı bu mövzuda daha aktiv bir mövqe sərgiləməyə məcbur edir. Diger tərəfdən hələ də su çətinliyi yaşayan Livan, Fələstin, İordaniya kimi ölkələrin yeni siyasi sərhədlərlə olan əlaqələri və İsrailin su təhlükəsizliyi üçün çox əhəmiyyətli olan Qolan təpələrinin vəziyyəti də Yaxın Şərqdə su tənzimlənməsinin həllini çətinləşdirəcək. Bu çətinlikləri artıracaq bir digər təsir isə qlobal iqlim dəyişilməsinin bölgədəki su qaynaqları üzərinə mənfi təsirləri olacaq (56).

ABŞ-ın keşmiş dövlət katibi Hillari Klinton 2012-ci ilin aprelində “2020-ci ildən sonra başda Cənubi Asiya, Yaxın şərq və Şimali Afrika olmaq üzrə suyun bir döyüş silahı olaraq istifadə edilməsi və ya terror vasitəsi halına gəlməsi ehtimalı artacaq. Bu təhdidlər gerçək və ciddi təhlükəsizlik qayğıları yaradır" şərhini edərək bu bölgələrdəki ABŞ müttəfiqlərinə bu mövzuda diqqətli olmalarını tövsiyyə etdi.

Suriyalı qaçqınlar və təhlükəsizlik. Suriya böhranını əhəmiyyətli edən ünsürlərdən biri də hümanitar və mədəni təsirlərdir. Daxili döyüş səbəbiylə 3 milyondan çox Suriyalı ölkə xaricinə köç etmək vəziyyətində qalmışdır. Qaçqınların böyük əksəriyyətinə Suriyanın dörd qonşu ölkəsi Türkiyə, Livan, İordaniya və İraq ev sahibliyi etməkdədir. Türkiyə və İraq Kürd Bölgəsi nisbətən daha az risk altında olsa da iqtisadi olaraq zəif, qaynaqları məhdud, həssas siyasi və ictimai quruluşa malik olan Livan və İordaniya üçün isə qaçqınlar əsas təhlükəsizlik probleminə çevrilməkdədir. Suriyada qeyri-sabitliyin davam etməsi, yeni köç dalğalarının olma ehtimalını gücləndirməkdədir. Xüsusilə, Şam ətrafında qarşıdurmaların sıxlaşması onsuz da böyük təzyiq altında olan İordaniya və Livana doğru kütləvi köç yaşanmasına səbəb olacaq. Köç edənlərin böyük əksəriyyətinin sünni olması, xüsusilə, Livan kimi etnik-dini məzhəb ayrı-seçkiliyinə əsaslanan ictimai və siyasi quruluşa sahib ölkələrdə gərginliyi daha da artırmaqdadır. Təhlükəsizlik baxımından

ən əhəmiyyətli mövzulardan biri də qaçqınların həyat şəraitinin xüsusilə Livan və İordaniyada son dərəcə pis olmasıdır. Bu vəziyyət qaçqın düşərgələrində və düşərgə xaricində yaşayan Suriyalıların bölgədə qeyri-sabitlik çıxarma potensialına sahib güclər baxımından qaynaq olaraq istifadə edilməsi riskini də özü ilə gətirməkdədir. Buna nümunə olaraq Fələstin qaçqın düşərgələrinin uzun illərdir Yaxın Şərq təhlükəsizliyi baxımından oynadığı rol göstərilə bilər.

Suriya vətəndaş müharibəsinin yol açdığı qaçqınlar məsələsi Türkiyəyə iqtisadi baxımdan da böyük ziyan vurmaqdadır. Suriyada vətəndaş müharibəsi başlayandan bəri 2 milyondan çox suriyalının Türkiyəyə sığındığı təsbit edilmişdir. Türkiyə açıq qapı siyasəti ilə qəbul etdiyi suriyalıların ehtiyacları üçün bütün imkanlarını səfərbər etmiş, edilən xərclər milyard dollarlar həcmində çatmışdı. Rəsmi xərclər xaricində Türkiyə qeyri-hökumət təşkilatları da suriyalı qaçqınları 700 milyon dollar həcmində yardımla təmin etmişdilər.

Eyni zamanda, Türkiyədəki suriyalı qaçqınlar açıq bir şəkildə cəmiyyətə uyğunlaşma problemi yaşamaqdadırlar. Qaçqınlar ilə yerli xalq arasında fərqli dil, mədəniyyət və həyat tərzindən qaynaqlanan problemlər yerli xalqın reaksiyasının ən əhəmiyyətli səbəbləri olaraq önə çıxmaqdadır. Türkiyədəki vətəndaşların ən böyük qorxularından biri də özlərini terror hücumlarına açıq hiss etmələridir. Suriyalılar arasında Əsəd rejiminə, İŞİD və ya PKK-ya çalışanların ola biləcəyi, onların terror aktları edə biləcəyi istiqamətində ciddi narahatlıqlar müzakirə mövzusudur. Suriyalı qaçqınların kənar məhəllələrdə bir arada həyatlarını davam etdirməsi uyğunlaşma prosesini çətinləşdirir və onların çətin şərtlər altında yaşamağa davam etmələri hər cür cinayətkarlıq üçün yol açmaqdadır (64).

Beləliklə, Suriya vətəndaş müharibəsi keçmişdə Livanın Yaxın Şərq təhlükəsizliyi üçün oynadığı rolu indi çox daha geniş bir coğrafiyada və daha təsirli bir şəkildə oynamaqdadır. Suriya böhranı özünün yaranma səbəbləri, onun iştirakçıları, regiona siyasi, iqtisadi və mədəni təsirləri və böhranının yayılma səbəbi ilə xüsusilə qonşu ölkələrin, ümumiyyətlə isə Yaxın Şərq regionunun təhlükəsizliyini uzun bir müddətdə təhdid altında saxlayacağını qeyd edə bilərik.

# FƏSİL II
# SURİYA BÖHRANI RUSİYA VƏ QƏRB DÖVLƏTLƏRİNİN YAXIN ŞƏRQ STRATEGİYASINDA

## 2.1. Suriya böhranının gedişatında Qərb dövlətləri, Türkiyə və İsrailin mövqeyi

Yaxın Şərq Qərb üçün hər zaman vacibliyini qoruyan bir region olaraq qarşımıza çıxmaqdadır. Region sahib olduğu enerji ehtiyatları, strateji və coğrafi mövqeyi, eyni zamanda tarixi əlaqələr və təhlükəsizlik məsələləri ilə həmişə Qərbin diqqət mərkəzində olmuşdur. Təbii ki, regional yaxınlıq səbəbindən Yaxın Şərqdə meydana gələn hər bir mənfi xarakterli hadisə Qərb dövlətlərini yaxından maraqlandırmaqdadır. Çünki, Avropa dövlətləri enerji ehtiyaclarının təxminən yarısını Yaxın Şərqdən idxal etməkdədirlər. Belə olan halda regionda baş verən qeyri-sabitlik, xaos enerji ixracının axışını təhlükə altında qoyacaqdır. Bu səbəbdən Qərbin Yaxın Şərq və Suriya siyasəti həm iqtisadi, həm də siyasi maraqlar çərçivəsində formalaşmışdır.

Suriyanın Rusiya və İrana yaxınlığı, Hizbullahı dəstəkləməsi, anti-İsrail siyasəti və şübhəli nüvə proqramına kömək etməsi ABŞ-ı ona qarşı çıxartdı. Bəəsin hakimiyyəti altında olan Suriya 50 il idi ki, ABŞ üçün bir tikan rolunu oynayırdı. Bununla belə, 11 sentyabr hadisələrindən sonra Suriya Əl-Qaidə şübhəlilərini cinayət başında tutmağa kömək edən məlumatı ABŞ-la paylaşmaqla ona səssizcə kömək etdi. ABŞ konqresmenləri Dəməşqə tez-tez səfər edirdilər. ABŞ dövlət katibi John Kerri də Suriyaya tez-tez baş çəkirdi. Onun Suriyaya son səfəri 2010-cu ilin noyabrında baş tutmuşdu. Bu səfərdə mübahisələrə səbəb olan bir sıra məsələlər müzakirə olunmuşdu: Suriyanın Deyr-er-zor şəhəri yaxınlığında şübhəli bilinən nüvə təchizatı (İsrail bu təchizatı 2007-ci ilin sentyabrında dağıtdı və daha sonra məlum oldu ki, bu nüvə təchizatı deyilmiş); şübhəli Əl-Qaidə liderini cinayət başında yaxalamaq məqsədilə Şərqi Suriyada Abu Kamalda sərhəddən kənar helikopter əməliyyatı; və

Suriyanın İraqda ABŞ əleyhinə müxalifətə dəstək verməsi barədə iddialar. Bir çox Suriya muzdlu əsgəri İraqda (eləcə də Çeçenistanda) ABŞ qüvvələrinə qarşı döyüşürdülər (43).

ABŞ ilk mərhələlərdə fəaliyyət mərkəzində deyildi. Bəzi mənbələrdən gələn məlumata görə, ABŞ və Avropa İttifaqı dollayı yollarla Suriya hökumətinə bəzi təkliflər irəli sürüb və Suriya müsbət cavab verib. Lakin, bu cəhdlər heç bir nəticə vermədi, çünki regional iştirakçılar Suriya müxalifətini inandırdılar ki, heç bir güzəştə getməsin. Mərkəzi Kəşfiyyat İdarəsi başlanğıcdan fəal şəkildə fəaliyyət göstərirdi, amma Mərkəzi Kəşfiyyat İdarəsi, Pentaqon və Dövlət Departamenti arasında fikir ayrılıqları var idi. ABŞ-ın Qərargah rəisləri Birləşmiş Komitəsinin sədri Martin Dempsi müxalifətin kimliyi barədə tam məlumatın olmadığı təqdirdə onu silanlandırmamaq barədə xəbərdarlıq etdi. O haqlı idi. Suriya müxalifətinə verilən məlumat, pul və avadanlıqlar Əl-Qaidə və digər terrror qruplarının əlinə keçdi. ABŞ həmçinin dövlət müəssələrinin sökülməməsi mövzusunda da haqlı idi (onların İraqdakı xoşagəlməz sınaqlarından sonra). Bu cür hərəkətlər boşluq yarada bilərdi və bu boşluğa kimin daxil olacağı naməlum idi.

ABŞ Bəşər Əsədi etibarlı şəkildə əvəz edəcək bir lider müəyyənləşdirə bilmirdi. Onlar əgər Suriyada rejim dağılarsa bunun İsrail və digər ölkələr üçün necə nəticələnəcəyini tam şəkildə başa düşürdülər. Müşahidəçilərin qiymətləndirilməsinə görə, dağıdılan Liviya, Tunis və Misir kimi dövlətlərdən fərqli olaraq, öz tarixinə, mövqeyinə, qəbilələr arası əlaqələrə görə Suriyanın dağıdılması bölgədəki digər ərazilərə daha çox təsir göstərə bilərdi. Suriyanın stabilliyinin pozulması ABŞ üçün böyük narahatlığa səbəb olan İsrail üçün ciddi təhlükəsizlik problemlərinə səbəb olardı. Suriyadakıların çoxu isə, eləcə də daxil müxalifət üzvləri  hesab edirdi ki, əgər Bəşər qəflətən kənara çəkilərsə bu silahlı müxalifətə fayda gətirəcək məzhəb qarşıdurmaları və vətəndaş müharibəsinə səbəb olardı. O vaxta qədər Suriyanın hər yerində fəaliyyət göstərən müxtəlif növ ekstremistçilər(ifratçılar) göz qabağında idi və Suriya əhalisi İraqdakı kimi qarmaqarışıqlığa düçar olmuş ölkənin gələcək planlarından  qorxurdu (44).

Suriyaya qarşı silah embarqosu məsələsi və ABŞ, Aİ və Ərəb Liqası tərəfindən

hazırlanan qərar layihələrinin Rusiya və Çin tərəfindən veto edilməsi, ABŞ-ı yeni alternativ platformalar təkmilləşdirməyə sövq etmişdir. Bu çərçivədə ABŞ Suriyadakı dəyişikliklər qarşısında bənzər fikirlərə sahib ölkələri bir araya gətirərək, Suriyanın dostları adlı qrup təşkil edilmişdir. Bu dövlətlərin ilk toplantısı Tunisdə, ikinci toplantısını isə 84 ölkənin iştirakı ilə İstanbulda həyata keçirmişdir. Eyni zamanda, Suriyalı müxaliflər arasında alternativ iqtidar bloku yaratmaq məqsədi ilə Suriya Milli Şurası yaradıldı. İstanbul konfransından sonra, Suriya Milli Şurası Suriya xalqının hüquqi təmsilçisi olaraq tanınmış və müxalifətə hərbi yardımdan kənar, hər cür texniki və humanitar yardımın göstərilməsi qərarı qəbul edilmişdir.

ABŞ və Rusiyanın geosiyasi məkanda apardığı rəqabət son nəticədə regionda xaos və böhrana səbəb olmuşdur. Domino effekti alan Ərəb baharının şaxələnməsi son nəticədə Suriyaya da təsirsiz ötüşməmişdir. ABŞ-ın birqütblü sistemi möhkəmləndirmə cəhdləri və bunu həyata keçirmək üçün köhnə prinsiplərə zidd olan yeni prinsiplər irəli sürməsi, Rusiyanın isə tam əksinə olaraq ənənəvi sistemi qorumaq cəhdləri Suriya böhranının meydana gəlməsində və inkişaf edərək bugünki mərhələyə çatmasında aydın şəkildə müşahidə edilir (36).

Con Kerri qeyd edir ki, Birləşmiş Ştatların xarici siyasətinin qarşısında duran əsas məsələlərdən biri Suriya silahlı münaqişəsidir. Onun sözlərinə görə, Suriya münaqişəsinə münasibətdə ABŞ-ın strategiyası üç əsas istiqamətə malikdir. Birinci istiqamət, İŞİD terror qruplaşmasına qarşı mübarizə kampaniyasının başlanmasıdır. İkinci, Yaxın Şərqdə zorakılığa yol verməmək üçün partnyorlarla əməşdaşlıq edilir. Üçüncü istiqamət, Rusiya və digər dövlətlərin dəstəyi ilə Suriya konfliktinin deeskalasiyasının və siyasi keçidinin təmin edilməsi, terrorist qrupların təcrid edilməsi üçün yeni diplomatik səylər həyata keçirilir (35).

Suriya böhranının meydana gəldiyi ilk mərhələdən ABŞ Əsəd rejiminin devrilməsinin tərəfdarı olaraq çıxış edir. Bəşər Əsədin şiə məzhəbinə yaxın olan Ələvi təriqətinə mənsub olması və bunun da son nəticədə İranla yaxın münasibətlərin mövcudluğuna təsir göstərməsi ABŞ-ın regiondakı mövqeyinə mənfi təsir göstərir. Eyni zamanda Suriyanın hazırkı Prezidenti Bəşər Əsədin və ondan öncəki prezident Hafiz Əsədin Rusiya ilə sıx münasibətlərinin olması ABŞ-ın maraqlarına uyğun

gəlmirdi.

Ərəb Baharı Avropa birliyi üçün çox əhəmiyyətli sınaq oldu. Belə ki, Aİ baş verən hadisələrdə həm öz daxilində birlik olduğunu göstərə bilmədi, həm də Fransa, Almaniya və İngiltərə arasında ciddi siyasət fərqlərinin olduğu ortaya çıxdı. Ərəb Baharının başlamasına səbəb olan Tunis hadisələri zamanı Fransa ilk əvvəl, üsyanın yatırılması üçün Tunis hakimiyyətinə dəstək vermək təklifini irəli sürdü. Ancaq hadisələr nəzarətdən çıxdıqdan sonra, başda Fransa olmaqla bütün Aİ dövlətləri xarici siyasətdə radikal dəyişikliyin olması ehtiyacını hiss etdilər. Artıq Liviya böhranı zamanı, Qəddafinin qazana bilməyəcəyini hiss edən Fransa və İngiltərə əvvəlcə müxalifətin təşkilatlanmasına yardım göstərdilər, daha sonra isə BMT-nin qərarlarının əsas icraçıları oldular. Aİ üzv ölkələrin Suriya məsələsində də ortaq mövqedən çıxış etməyinə baxmayaraq, Aİ-nin bu məsələdə effektiv xarici siyasət müəyyənləşdirdiyi deyilə bilməz (6).

Fransa Tunisdə ilk üsyan dalğaları başlayanda Tunisə üsyanın yatırılmasına kömək üçün əlavə polis qüvvələrinin göndərilməsini təklif etmiş və özünün üsyana qalxmış xalqın deyil mövcud rejimin yanında olduğunu göstərmişdi. Üsyanın bu qədər uzun müddət davam edəcəyi düşünülmədiyi üçün Fransa hökümətinin mövcud rejimi dəstəkləməsi narazılığa səbəb olmuşdu. Lakin, tezliklə Fransa hadisələrin gedişatına uyğunlaşmış və bu hadisələrdə xalq hərəkatına dəstək verməyə başlamışdı. 2011-ci ilin martında Suriyada başlayan üsyanda isə Fransa ABŞ və İngiltərə ilə birlikdə koalisiya şəklində Suriyadakı mövcud rejimin devrilməsi üçün müxalifətə dəstək verməkdədir (8).

Fransa Suriya siyasətinə çox tərəfli yanaşma ilə baxır və o, Ərəb Liqasında və Avropa Birliyində Suriya ilə əlaqədar qərarların qəbul olunmasında mühüm rola malikdir. Suriyadakı Fransa səfiri geri çağırıldıqdan sonra Fransa tərəfindən embarqolara başlanılmışdı. BMT çərçivəsində isə Suriya ilə bağlı ortaq bir siyasətin aparılması inkişaf etdirilə bilmədi, buna görə də Fransa "Suriya Xalqının Dostlar Qrupu"nun yaradılmasında ilkin addımları atmağa basladı. Eyni zamanda Fransa "Suriya Milli Şurası"nı Suriya müxalifətinin qanuni təmsilcisi olaraq tanıyan ilk ölkə oldu. Fransa həm də mövcud rejimin beynəlxalq fəaliyyətini dayandırması üçün

"Azad Suriya Ordusu"nun əməliyyat qabiliyyətinin artırılmasında yaxından iştirak edirdi. Bunun da nəticəsində Fransanın Suriya müxalifətinə silahlı yardımı etdiyini düşünmək olardı. Eyni zamanda, Fransa vətəndaşların qorunması və xalqa yardım edilməsi məqsədiylə Suriyaya insani koridor açılmasını müdafə edənlərdəndir (70).

Fransa ilk başlarda beynəlxalq bir qərar olmadan Suriyaya xarici müdaxilənin edilməsinə qarşı olduğunu bildirirdi. Lakin, daha sonra hadisələrin gedişatı və Suriyanın şimalında baş verənlər nəticəsində Fransa həm "Azad Suriya Ordusu"na dəstək verilməsi, həm də Suriyadan qaçan hərbiçilərin və vətəndaşların qorunması üçün Turkiyənin də iştirak edəcəyi NATO əməliyyatlarına razılıq vermiş və bu əməliyyatlarda yaxındam iştirak etmişdi. Beləliklə, Fransa Suriyadakı hadisələrlə yaxından maraqlanır və beynəlxalq arenada Suriya ilə bağlı çoxtərəfli siyasət həyata keçirtməkdədir (7).

Fransa Əsəd və İŞİD rejiminə qarşı yanaşmada digər qərb dövlətlərindən daha israrşı dayanırdı. Əsədin istefasını tələb edən Fransa İngiltərədən fərqli olaraq Suriyadakı İŞİD rejiminə qarşı hava əməliyyatlarına qoşuldu. İŞİD 2013-cü il 13 noyabr tarixində Parisdə həyata keçirdiyi terror aktının məsuliyyətini birbaşa olaraq fransız döyüş təyyarələrinin "xilafət torpaqlarındakı müsəlmanlara hücumu" ilə əlaqələndirmək lazım olduğunu bildirdi (10).

Növbəti həftə fransız döyüş təyyarələri Deyr-er-Zor bölgəsindəki neft və qaz yataqlarına hücumlar həyata keçirdi və Fransa bunu İŞİD-in maliyyə qaynaqlarını məhv etmək cəhdlərindən biri kimi açıqladı. Prezident Fransua Oland Fransanın tək təyyarə daşıyan gəmisi olan "Şarl de Qoll"un Suriya və İraqdakı İŞİD rejiminə qarşı əməliyyatlarda iştirak etmək üçün sərəncam verdi. Fransız döyüş təyyarələri artıq sentyabrın sonlarından başlayaraq ilk hədəflərini vurmağa başladılar.

Fransa İraqdakı ABŞ liderliyi altında koalisiyaya qoşulan ilk ölkə oldu və kürd döyüşçülər də daxil olmaqla anti-Əsəd üsyançılarına maddi-texniki dəstək verirdi. Bir çox tərəfdən İngiltərə siyasətinə bənzəsə də, Fransa Suriya hökumət qüvvələri tərəfindən istifadə olunan barrel(çəllək) bombalarından mülki vətəndaşları qorumaq üçün BMT tərəfindən hazırlanan bir qərarın qəbul edilməsi də daxil olmaqla daha güclü tədbirlər üçün diplomatiyadan istifadə etməyə başladı.

Hələ 2013-cü ildə Bəşər Əsəd Şam yaxınlığındakı Quta şəhərində 1400 nəfərin ölümünə səbəb olan kimyəvi silahdan istifadə etdiyinə görə günahlandırıldıqda Fransa Suriya hökumətinə qarşı hərbi müdaxiləyə başlamaq çağırışları etsə də ABŞ Konqresi və Britaniya Parlamenti birbaşa hərbi müdaxiləylə bağlı çağırışlara istəksiz olduqlarını göstərdilər.

Fransa Suriya vətəndaş müharibəsi başlayandan bəri Əsəd rejiminin istefasını tələb etməkdə davam edirdi. Sentyabrda Fransalı rəsmilər kod adı "Sezar" olan keçmiş bir Suriyalı fotoqrafın dəlilləri vasitəsilə 2011-2013-cü illərdə Suriya hökumətinin həyata keçirtdiyi iddia edilən müharibə cinayətləriylə əlaqədar Əsəd rejiminin istintaqına başladılar. Bu dəlillərdə işgəncə və on bir min insanın öldürülməsi ilə bağlı görüntülərin olduğu iddia edilirdi.

Əsəd rejiminə qarşı olan müxalifətçilər hələ də onları ən yaxından dəstəkləyən ölkənin Fransa olduğunu bildirirdilər. Ana müxalifət lideri Xalid Xoca mülki vətəndaşların təhlükəsizliyini təmin etmək üçün Parisdə tez-tez görüşlər keçirtdiklərini bildirdi (9).

2013-ci il 29 avqust tarixində Böyük Britaniya millət vəkilləri Suriya prezidenti Bəşər Əsədin kimyəvi silahdan istifadə etmə ehtimalını önləmək məqsədilə Böyük Britaniyanın ABŞ-ın liderliyi altında hərbi əməliyyatlara qoşulmasını parlamentdə 285-dən 272 səs çoxluğu ilə rədd etdi. ABŞ rəhbərliyi isə "ən yaxın müttəfiqlərimizdən və dostlarımızdan" biri olan İngiltərə ilə "müzakirələrə davam edəcəyik" deyə bildirdilər (26). Fransa da İngiltərənin Suriya ilə qərarını dəyişdirməyi dəstəklədiyini bildirdi. Əsəd hökuməti ilə yaxınlığı bilinən Rusiya isə İngiltərənin bu qərarını məmnunluqla qarşıladı. Böyük Britaniya baş naziri Devid Kemeron 21 avqustda Quta şəhərinin ətrafında kimyəvi silahdan istifadə edildiyinə gorə yüzlərlə insanın öldüyünü vurğulayaraq hökumətə Suriyada hərbi əməliyyatlara başlamağı qəbul etməklə bağlı çağırış etdi. ABŞ və İngiltərə bu hadisənin də arxasında Əsəd rejiminin olduğunu düşünürdü. Bəşər Əsəd isə Suriyaya hər hansı bir hücum həyata keçirilərsə özlərini müdafiə edəcəklərini bildirdi.

İŞİD əleyhinə bombalama aksiyaları başladaraq Baş Nazir Devid Kemeron ölkəsini "bizi öldürmək üçün hiylə quran" hərbiçilərin yox edilməsinə yardım edilməsi

istiqamətindəki təklifini dəstəkləməyə çağırdı. 10 saatlıq gərgin müzakirələrdən sonra 397 nəfərdən 223-ü hava hücumlarına başlanması leyhinə səs verdi. Seçimlərdən bir neçə saat sonra Böyük Britaniyanın Kiprdəki Akrotiri hava basasından 4 döyüş təyyarəsi uçuşa başladı. Döyüş təyyarələrinin eniş yeri barədə isə heç bir məlumat verilmədi (53).

Bu qələbə Devid Kemerona İngiltərənin beynəlxalq aləmdə mövqeyini yenidən bərpa etmək şansı verdi. O parlament üzvlərini ehtiyac duyulduğu zaman Fransa kimi müttəfiqlərinə geri dönməməyə çağırdı.

Xarici İşlər Naziri Filip Hamond "Sky News" telekanalına verdiyi müsahibədə "İngiltərə İcmalar Palatasının qəbul etdiyi qərardan sonra bu gecə daha təhıükəsizdir" deyə bildirdi. Lakin, seçicilərin bəziləri İngiltərənin Yaxın Şərqdəki müharibəyə sürüklənəcəyindən çəkinirdilər. Onların bir çoxu qərbin hərbi müdaxiləsinin hadisələrdə qarışıqlığı daha çox artıracağını düşünür. Ancaq Parisdə 130 nəfəri öldürən və İŞİD tərəfindən həyata keçirilən 13 Noyabr hücumları bəzi deputatların qərarını sərtləşdirdi. Devid Kemeronun İraq ətrafına hava hücumları həyata keçirmək barədə qərarının müxalif İşçi Partiyası tərəfindən dəstəklənəcəyi bildirildi. Kemeron 2011-ci ildən bəri davam edən Suriya vətəndaş müharibəsinin yaınız hərbi əməliyyatlar vasitəsilə həll edilməyəcəyini söyləsə də, bu hücumların İŞİD hərbçilərini zəiflədəcəyini bildirdi (21).

ABŞ prezidenti Barak Obama İngiltərə Parlamentinin qərarını məmnuniyyətlə qarşıladı. Obama, İngiltərə hərbi hava qüvvələrinin Suriya əməliyyatlarında koalisiya ilə birlikdə uçmasını səbrsizliklə gözlədiyini və İngiltərənin Suriyadakı mübarizədə ən yaxın müttəfiqlərdən biri olduğunu bildirdi. Almaniya Parlamentinin də tezliklə İŞİD-lə mübarizəyə qoşulmaq üçün qərar qəbul edəcəyi gözlənilirdi, ancaq, yalnızca hava hücumlarına hərbi dəstək vermək tam olaraq koalisiyaya qoşulmaq demək deyildi.

Millət vəkillərinin hücuma keçmək qərarını qəbul etdikdən qısa müddət sonra Kiprdəki Akrotiri bazasından uçuşa başlayan 4 "Tornado" döyüş təyyarəsi hücuma başladı və Omar neft yataqlarını atəşə tutdu. Müdafiə katibi Maykl Falon əsas məqsədin İŞİD-in nəzarətində olan neft yataqlarına və gəlir mənbələrinə zərbə

vurmaq olduğunu söylədi. Fallon qərarların qəbul edildiyi çox ciddi bir dönəmin yaşandığını və bütün inglis hərbi əməliyyatları zamanı "çox ciddi öhdəlik qaydalarına" əməl ediləcəyini bildirdi. Cənab Fallona İngiltərənin Suriyadakı işğala qarşı həyata keçirilən Koalisiya kompanyasından nə zaman çıxa biləcəyi soruşulduqda, o "bu tezliklə olmayacaq" dedi və digər hava qüvvələrinə hücumların həyata keçirilməsinin düzgün olmadığını bildirdi. O, 2016-ci il fevralın 1-də verdiyi açıqlamada Rusiya Prezidenti Vladimir Putinin Bəşər Əsədi gücləndirmək cəhdi göstərmək üçün İŞİD müxaliflərini bombalayaraq Suriya vətəndaş müharibəsini sona çatdırma səylərini zəiflətdiyini bildirib (19).

Hamond Putinin vətəndaş müharibəsini sona çatdırmağı hədəfləyən siyasi bir prosesə səy göstərmədiyi üçün günahlandırdı və eyni zamanda, Əsədə müxalif qüvvələri bombaladığı üçün onu tənqid etdi. O, Suriya sərhədinin təxminən 10 km cənubunda İordaniya ərazisində verdiyi müsahibədə bildirib ki: "Etdiyimiz hər şey ruslar tərəfindən uğursuzluqla nəticələnir və bu məni çox məyus edir. Ruslar danışmaq istədiklərini bildir və danışırlar da, lakin, ruslarla problem odur ki, onlarla bu məsələni müzakirə etdiyimiz zamanda belə onlar Əsəd rejiminə dəstək verirlər." O bildirdi ki, Rusiyanın Suriyaya müdaxiləsindən sonra Suriyaya geri qayıdan insanların hərəkatı dayandı və rusların həyata keçirdiyi proseslərdən dolayı xüsusilə cənub sərhədi boyunca yeni bir hava axını yarandı.

Hamond bir daha Rusiyanın müdaxiləsinin böhrana siyasi bir həll tapmaq üçün beynəlxalq səylərə əngəl olduğunu və bu müdaxilənin İŞİD-i gücləndirdiyini söylədi. O bildirdi ki, ruslar İŞİD-i məhv etmək istədiklərini söyləsələr də İŞİD-i deyil digər üsyançıları bombalayırlar və rus əməliyyatlarının yalnızca təxminən 30%-i İŞİD-ə qarşı həyata keçirilib. O eyni zamanda bildirdi ki, hal-hazırda Putinin Əsədə verdiyi dəstəyin dəyişib-dəyişmədiyini bilmək mümkün deyil (20).

Münaqişə izləyicilərinə və qərb rəsmilərinə görə, 30 sentyabrda Fransa və Birləşmiş Ştatlar İŞİD qüvvələrini bombalayarkən Rusiya müttəfiqi Bəşər Əsədi dəstəkləmək üçün digər üsyançıları bombaladı. Qərb rəsmiləri Əsədin artıq getməli olduğunu və Rusiyanın tutduğu siyasətdən əl cəkməsini bəyan etdilər.

Suriya Türkiyə münasibətləri Bəşərin Dəməşqdə, Ərdoğanın isə Ankarada olması

ilə möhkəmlənməyə başladı. Türkiyə Xarici İşlər Naziri Əhməd Davudoğlu Dəməşqə tez-tez səfərlər edirdi. 2010-cu ildə bu dövətlər arasındakı əlaqələr ən yüksək zirvədə idi. Türkiyə Suriya və İsrail arasında körpü rolunu oynayırdı. 2009-cu ildə hər iki ölkə 50-dən çox anlaşma memorandomu müqavilələri imzalamışdılar. Türkiyənin iddiya etdiyi kimi, bu müqavilələrdən biri hər iki ölkə arasında sərhədləri qanunilәşdirirdi. Tigris çayının sularının bölüşdürülməsi məsələsi də həmçinin Türkiyənin xeyrinə həll olunmuşdu. Bəəs Partiyası isə Türkiyəyə inanmadığına görə bu işdən məmnun deyildi. Hər iki ölkə visa tələblərini ləğv etməklə sərhədlərarası hərəkəti yüngülləşdirdi. Hətta münasibətlərin yaxşı olduğu vaxtlarda belə, Türkiyənin baş naziri Rəcəb Tayip Ərdoğan Bəşəri inandırmağa çalışırdı ki, Müsəlman Qardaşlığı ifratçı deyil və onlar demokratik istiqamətlərə gətirilməlidi. Bəşər Ərdoğanı və Suriyadakı bəzi dini şöbələri barışdırmaq üçün bəzi addımlar atdı. Bunlara nümunə olaraq cümə ibadətindən sonra dindarlar tərəfindən moizələrin oxunması və himayəçisi tərəfindən sürgün olunan bir çox dindarların geri qaytarılması göstərilə bilər. Bunlar dünyəvi Bəəsçilər tərəfindən yaxşı qarşılanmadı. Əlaqələrin bu cür vəziyyətini nəzərə aldıqda narazılıqlar üzə çıxan zaman ən azından Türkiyənin neytral olmasını gözləmək olardı. Ərdoğan ilk növbədə Müsəlman Qardaşlığı fəallarının sərbəst buraxılması və Qardaşlığın siyasi bərpasını tələb etdi. 2011-ci ilin martında sərbəst buraxılan 260 məhbusun 85%-dən çoxu Türkiyənin tələbi ilə sərbəst buraxılan Müsəlman Qardaşlığı fəalları idi. Suriyadakı vəziyyət dərinləşdikdən sonra isə Ankara bütünlüklə müxalifətə tərəf istiqamətlənməyə başladı (32).

Vətəndaş müharibəsinin gedişatı 2012-ci ilin oktyabr ayında Suriya ilə münasibətlərin kəskinləşməsinə gətirib çıxardı: Suriya ərazisindən atılan mərmi Türkiyə ərazisində yerləşən evə düşdü, nəticədə 5 nəfər öldü, 13 nəfər isə yaralandı. Buna cavab olaraq, oktyabr ayının 3-dən 4-nə keçən gecə Türkiyə ordusunun artilleriyası Suriya ərazisini atəşə tutdu. Eyni gündə Türkiyə parlamenti zəruri olarsa Suriyaya qarşı hərbi əməliyyatlar keçirməyə imkan verən qərar qəbul etdi. NATO-nun baş katibi Anders Foq Rasmussen Suriya tərəfindən hücumlara qarşı Türkiyənin müdafiəsini təmin etməyə hazır olduğunu bildirdi. NATO Şurası Suriyanı ölkələr

arasında münasibətlərin kəskinləşməsində qeyd-şərtsiz təqsikar hesab etdi. Suriya könüllü olaraq Türkiyə ilə sərhəddə 10 km-lik uçuşa qadağan bölgə yaratdı.

Regionun iki əhəmiyyətli dövləti olaraq Türkiyənin və İranın Suriya böhranına münasibətdə nümayiş etdirdikləri fərqli mövqelər gözlənilən idi. Hələ 1982-ci ildə Suriya rejiminin Müsəlman qardaşlarına qarşı mübarizə aparması zamanı Türkiyə təşkilatın nümayəndələrinə ərazisində məskunlaşmağa icazə verib. Müsəlman Qardaşlığının bir çox nümayəndələri AKP modelini Suriya üçün unikal model olaraq qəbul edir.

Məsələyə digər tərəfdən yanaşılarsa İran və Türkiyənin maraqlarının üst-üstə düşdüyü tərəflər də mövcuddur. Belə ki, Suriya böhranının kəskinləşməsi regionda kürdlərin aktivləşməsi ilə nəticələnib. Türkiyə və İran kürd məsələsi ətrafında İrandakı PJAK (Kürdlərin Azad Həyatı Partiyası) və Türkiyədə PKK-ya qarşı mübarizə aparır.

Suriya münaqişəsinin başlanması əslində Türkiyə ilə PKK arasında münasibətlərin nisbətən normallaşdığı bir dövrə təsadüf edir. 2013-cü ilin mart ayında PKK atəşkəs elan edir və Kürd əyalətlərinə muxtariyyət verilməsi müqabilində onillərlə davam edən çaxnaşmanı bitirməyi öhdəsinə götürür. Atəşkəsin əldə edilməsi Türkiyənin daxili stabilliyi ilə yanaşı onun regional mövqeyini də möhkəmləndirəcək. Türkiyə İraq Kürdüstanı ilə də bir neçə iqtisadi müqavilə imzalayıb. Lakin Türkiyənin kürd qrupları ilə yaxınlaşması onun PYD ilə münasibətlərinə eyni şəkildə təsir etmədi. Suriyada kürdlərin muxtariyyat iddialarının artması Türkiyədə də eyni əhval ruhiyyənin güclənməsi qorxusunu yaradır. 2013-cü ilin iyulunda Türkiyə PYD lideri Salih Müslimi Ankaraya dəvət edir. Burada Müslim təsdiq edir ki, onun başçılıq etdiyi qrup Suriyadan ayrılmaq iddiasında deyil. Türkiyə də öz növbəsində Suriyanın şimalındakı Kürd ərazilərinə humanitar yardım etməyi öhdəsinə götürür.

Türkiyənin Suriya daxili kürd qrupları ilə konstruktiv əlaqələri ilk növbədə Suriya vətəndaş müharibəsinin Türkiyə daxilində Kürd konfliktlərinin alovlanmasına mane olmaq məqsədi daşıyır.

Narahatlığa səbəb olan məsələ Türkiyənin Hatay əyalətində ərəb ələvi azlığı ilə bağlıdır. Türkiyənin sünni üsyançı qrupları dəstəkləməsi ərəb ələvi qrupun

narazılığına səbəb olur. Hataydakı ələvi qrupun Suriyadan olan sünni qaçqınlar tərəfindən hücuma məruz qalması situasiyanı daha da gərginləşdirir. Türkiyə Suriyadan olan çoxsaylı qaçqınları Hatayda deyil digər əyalətlərdə yerləşdirməklə sabitliyi qorumağa çalışır. Gələcəkdə Türkiyə hökuməti ilə ərəb ələvi qruplaşma arasında çaxnaşmanın baş verə bilməsi ehtimalı real görünür (45).

Bu faktları gözə alaraq Türkiyənin Suriya böhranında maraqlı tərəf kimi çıxış etməsi bir neçə səsəblə izah oluna bilər. Səbəblərdən biri Türkiyə Suriyada demokratik hakimiyyətin formalaşmasına dəstəkçi çıxır. Lakin Türkiyə bu prosesin daha dinc yolla həyata keçirilməsinin tərəfdarı olaraq çıxış edirdi. Yəni hazırki vəziyyət, Suriyanın böhran vəziyyətində olması və silahlı münaqişənin ölkəni bürüməsi Türkiyəni immiqrant problemi ilə üz-üzə qoydu ki, bu da Türkiyənin maraqları çərçivəsində deyil. İkinci bir səbəb kimi Türkiyənin əsasən sünni dövləti olmasıdır. Suriyada ələvi rejimi ilə Sünni çoxluq arasında gərgin münasibətlər Ankarada narahatlıq yaradır. Digər bir səbəb isə Suriya böhranının dərinləşməsi nəticəsində Türkiyədə kürd probleminin kəskinləşməsi göstərilə bilər. Mövcud səbəbləri nəzərə alaraq Türkiyənin anti-əsəd koalisiyasında yer alması daha aydın dərk edilə bilər.

Suriya ilə İsrail arasında 1974-cü ildə BMT müşahidəçilərinin iştirakı ilə qoşunların geri çəkilməsi haqqında müqavilənin imzalanmasından bəri uzun sürən atəşkəs rejimi davam etməkdə idi. Lakin Suriya vətəndaş müharibəsinin başlanması 40 ildən çox bir müddətdə davam edən "soyuq sülhü" təhlükə altına atmış oldu.

ABŞ-ın birbaşa hərbi müdaxilə etmək ehtimalının az olduğunu görən Netanyahu geniş təbliğ edilən "İsrail özü öz qayğısına qalmalıdır" bəyanatı ilə çıxış edir. 2013-cü ilin oktyabrın 13-də İsrail Livan hava məkanından qeyri-qanuni istifadə edərək Ələvi rejimin möhkəmləndiyi Latakiya yaxınlığında yerləşən hərbi bazanı atəşə tutur. Buna bənzər bir neçə hücumun həyata keçirilməsi ABŞ tərəfindən müsbət qarşılanmır. ABŞ bildirir ki, İsrail BMT-nin kimyəvi silahlar haqqında qətnaməsinə hörmətlə yanaşmalı və Suriya müxalifəti ilə siyasi tənzimləmələrin həyata keçirilməsi yollarını axtarmalıdır.

İsrail Əsədin devrilməsinin tərəfdarı deyil, çünki, üsyançı tərəfin qüvvətlənməsi və

son nəticədə Əsəd rejimin devrilməsi hakimiyyət dəyişikliyi ilə nəticələnəcək. Baxmayaq ki, müxalif tərəf ABŞ və Qərb tərəfindən dəstəklənir, lakin kimin hakimiyyətə gəməsi və onun nə dərəcədə Qərbin diktəsinə tabe olacağı sual doğuran məsələlərdəndir.

Suriya konfliktinin meydana gəlməsi və uzunmüddətli davam etməsinin səbəblərindən biri də ölkə ərazisində təbii resurs mənbələrinin mövculuğu ilə əlaqədardır. Belə ki, Dəməşq müqaviləsi İran qazının İraq ərazisindən keçərək Aralıq dənizinə çıxış əldə etməsi üçün şərait yaradır. Bu yeni geosiyasi reallıqların meydana gəlməsi üçün yol açır və konteksdə Suriya xüsusi önəm kəsb edən tərəflərdən biri kimi çıxış etməyə başlayır. Xüsusi olaraq vurğulanmalıdır ki, Suriya təkcə qaz tranzit zonası olması baxımından deyil həm də, potesial neft ixracatçısı kimi də mühim əhəmiyyət daşıyan dövlətdir. Belə ki, 2013-cü ildə rəsmi Dəməşq Suriya sularında 14 neft yatağının aşkarlanması bəyanatı ilə çıxış edir.

Yataqlarda kəşfiyyat işləri aparılması zamanı Livan onlara öz iddiasını irəli sürür və müvafiq yataqlardan hasilatın dayandırılması ilə bağlı BMT-yə müraciət edir. Lakin onun bu müraciətinə cavab olaraq BMT situasiyaya müdaxilə etməkdən imtina ilə cavab verdi. Eyni vəziyyət Suriya məsələsində də diqqəti cəlb edir. Yəni Suriya daxili böhran vəziyyətində olduğu halda onun enerji mənbələrinə üçüncü dövlətin müdaxiləsi istisna deyil. Territorial yerləşmə baxımından İsrail Suriyanın neft mənbələrinə iddia edə bilməz. Amma, İsrailin neft şirkətləri mövcud qarışıq vəziyyətdən istifadə edərək öz məhsullarını Suriya enerji bazarına çıxarmaq imkanı qazanmış olur. Buradan belə bir nəticə hasil olur ki, Suriyada daxili sabitliyin pozulması digər faktorlarla yanaşı İsrailin iqtisadi maraqlarının təmin edilməsi baxımından da xüsusi əhəmiyyət kəsb edir.

İsrailin Suriya konfliktində maraqlı tərəf kimi çıxış etməsinin səbəblərindən biri də iki ölkə arasında 1967-ci ildən bəri mübahisəli zona olaraq qalan Holan təpələri probleminin mövcudluğudur. Qeyd etmək lazımdır ki, Holan təpələri istər təhlükəsizliyin təmin edilməsi, istər iqtisadi istərsə də ərazi məskunlaşma perspektivləri baxımından İsrail üçün çox böyük strateji əhəmiyyətə malikdir. Eyni zamanda Holan təpələri Suriya İlə İsrael arasında bufer zonası rolunu oynayır və

İsrailin su təchizatının həyata keçirilməsində xüsusi önəm daşıyır (15).

2012-ci ilin noyabrından etibarən Holan təpələri atəşkəs bölgəsində İsrail ilə Suriya qoşunları arasında atışma halları baş verdi. Eyni zamanda Suriyada baş verən vətəndaş müharibəsi ilə əlaqədar olaraq humanitar böhran İsrailin sərhədlərinə çatmışdır. Lakin digər qonşu dövlətlərdən fərqli olaraq İsrail Suriya qaçqınları üçün açıq qapı siyasəti irəli sürmür və Holan təpələrinə üz tutmuş suriyalıları geri çevirmişdir. 2014-cü ilin dekabr ayında özünün BMT-nin təhlükəsizlik Şurası qarşısında hesabatında Ban ki Mun İsrail Müdafiə Qüvvələrinin üsyançı qüvvələrlə kontakta keçməsi haqqında məlumatı səsləndirir.

Bir tərəfdən üsyançı qüvvələrə dəstək olan İsrail hökuməti,digər tərəfdən öz sərhədlərini möhkəmlətməkdə davam edir. İsrail qorxur ki, Holan təpələri müxalif tərəfdə üstünlük təşkil edən İslamçı qüvvələr üçün hücumu həyata keçirməkdə başlanğıc nöqtəsi olaraq çıxış edə bilər. İsrail islamçı qruplaşmaların İsrail sərhəddini keçərək hüum etmələrinin qarşısını almaq məqsədilə Suriya sərhəddi boyu hündürlüyü 5 metr olar 250 km uzunluğunda sədd çəkib. Bu iki tərəf arasında gərginliyin artmasına səbəb olmuşdur.

İsraili Əsəd hakimiyyətində əsas narahat edən tərəf onun ələvi qoluna aidmalik olması,və dolayısıyla bu məhzəbin şiəlik təriqəti ilə əlaqələndirilməsidir. Bu isə İranla yaxınlaşmaya yol açır. İsarili özünə əsas düşmən kimi qəbul edən İranın regionda gücünün artması İsrailin maraqlarına tamamilə ziddir. Digər tərəfdən İsrail üçün təhlükə mənbəyi olan Hizbullahın İran və Suriya tərəfindən dəstəklənməsi İsrailə hədə olaraq qəbul edilir. Bu baxımdan İsrail Suriya qarışıqlığın olmasında, rejimin devrilməsində maraqlı tərəf kimi çıxış edir.

Bugün müxalif qüvvələrə qarşı vuruşan Hizbullah ordusunun silahı münaqişə sonrası İsrailə qarşı çevrilə bilər. Yəni hal-hazırda İsrail üçün əsas maraqlı olan məsələ Hizbullahın hansı cəbhədə kimə qarşı vuruşmasından daha çox, onun nə dərəcədə qüvvətlənməsi,əhalinin rəğbətini qazanmasıdır. Lakin buna əks fikir olaraq iddia edilir ki, münaqişə davam etdiyi müddətcə Hizbullah daha çox qüvvə itirir (14).

İsrail hökuməti belə bəyanatla çıxış edib ki, "Suriya və İran Hizbullaha kimyəvi silah və hərbi texnologiyalar göndərdiyi təqdirdə İsrail hərbi güc tətbiq etməkdən

çəkinməyəcək." Bunun ardından Suriyanın Şam hava limanı da daxil olmaqla strateji nöqtələrə hava hücumları həyata keçirilmişdir. Beləliklə, əgər Əsəd rejimi devrilərsə bu silahlar Hizbullah rejimi və ya digər terror qruplarının əlinə keçə bilər.

Beləliklə belə qənaətə gəlmək olar ki, İsrail Suriyanın zəifləməsinin tərəfdarıdır amma bu zəifləmə Suriyanın tamamilə parçalanması anlamına gəlmir. Belə ki bu son nəticədə Hizbullahın mövqeyinin möhkəmlənməsi və İsrailin hədəfə çevrilməsi ilə nəticələnə bilər. Və İsrail Suriya yeni hököümətin tərəfdarıdır. Lakin bu hökumət İran yönümlü olmamalı və qərbin diktəsi altında hərəkət etməlidir (16).

## 2.2. Rusiyanın Suriya böhranında mövqeyi və müdaxiləsini şərtləndirən amillər

Liviyada Qərbin müdaxilə effekti Rusiyanı Suriya məsələsində həlledici rol oynamağa vadar etmişdi. Rusiyanın Suriya hakimiyyətini dəstəkləməsi onun özü üçün müəyyən problemlər yaratdı. Belə ki, Rusiyanın mövqeyini Qərbin mənfi qarşılayacağı heç kimdə şübhə doğurmasa da, Ərəb dövlətlərinin Rusiyaya qarşı çıxacağı gözlənilmirdi. Bu da Qərb dövlətlərinə Rusiyanı əksər Ərəb ölkələrində baş verən hadisələrin səbəbkarı kimi təqdim etməyə imkan verirdi. Bu isə Rusiyanın xarici siyasətinə uyğun gəlmirdi. Rusiyanın Bəşər Əsədi dəstəkləməsinin gətirdiyi ikinci problem onun BMT-dəki nüfuzunun təsirlənməsi oldu. Rusiyanın Suriya rejiminə yardım etməsi 2012-ci ilin əvvəllərində etibarən ciddi diplomatik və nüfuz itkilərinə səbəb oldu. Bu itkilər miqyas etibari ilə böyük olmasa da Rusiya üçün yeni hesab edilirdi (25).

Buna baxmayaraq, Rusiyanın Suriya üzərində müəyyən maraqları var. Bu maraqlara Suriyaya silah satılmasını və Rusiyanın regionda özü ilə müttəfiq olacaq yeganə ölkənin Suriya olmasını aid etmək olar. Buna görə də Rusiya Suriyanı ABŞ-a müttəfiq olaraq vermək istəmir Başqa sözlə, Rusiya Liviyada buraxdığı səhvləri yenidən təkrarlamaq istəmir. Eyni zamanda, Rusiyada 2012-ci ildə seçkilərin yaxınlaşması və bu seçimdə Qərb dövlətlərinə güclü lider profili göstərmək istəyi də

Rusiyanın Suriya ilə bağlı siyasi maraqlarına təsir edirdi (23).

Rusiyanın böhranın əvvəlindən etibarən Suriyada sərgilədiyi strategiya Liviyada olduğu kimi xarici qüvvələrin mövcud rejimi devirmək cəhdlərini əngəlləməkdən ibarət olmuşdur. Bu məqsədlə Rusiya BMT-nin Təhlükəsizlik Şurasının Suriya əleyhinə olan dörd qərar layihəsinin qəbul edilməsinə veto hüququndan istifadə edərək mane olmuşdur.

21 avqust 2013-cü ildə Suriya hakimiyyətinin Quta şəhərində dinc əhaliyə qarşı kimyəvi silahlardan istifadə etməsinə dair iddialar BMT-də müzakirə edilmiş və iddiaların yoxlanılması üçün tədqiqat heyəti yaradıldı. Tədqiqat heyətinin BMT-nin Baş Katibi Ban Ki Muna təqdim etdiyi 16 sentyabr 2013-cü il tarixli hesabatda iqtidarın bu şəhərdəki uşaqlar da daxil olmaqla dinc əhaliyə qarşı kimyəvi silahların istifadə etdiyini göstərən açıq və inandırıcı dəlillər yer alırdı. 10 sentyabr 2013-cü ildə isə Rusiya və Suriya Xarici İşlər Nazirlərinin görüşündən sonra Əsəd Rusiyanın Suriyadakı kimyəvi silahları məhv etməsi təklifini qəbul etdi və bununla da Qərb dövlətlərinin Suriyaya hərbi müdaxilə cəhdlərinin qarşısı alındı (24).

Suriya böhranında Rusiya maraqlarını təhlil edərkən ilk növbədə hərbi maraqlara diqqət yetirilməlidir. Belə ki, Rusiyanın Suriyanın Tartus Limanında yerləşmiş hərbi bazası Rusiya hərbi gəmilərinə Qara dənizə qayıtmadan Aralıq dənizində yanacaq doldurmağa imkan verir. Əsəd rejimin devrilməsi Rusiya ilə müqavilənin pozulmasına və Tartus stansiyasının bağlanmasına səbəb ola bilər. Eyni zamanda Rusiyanın Suriyanı dəstəkləməsinin məqsədlərindən biri də, özünə yaxın bölgələrdəki Ukrayna, Gürcüstan və Serbiyada olan rəngli inqilabların və ya Suriya böhranının Rusiyanı nəzarəti altında olan Mərkəzi Asiya və Qafqaz bölgəsinə keçməsinin qarşısını almaqdan ibarətdir.

İŞİD-ın fəaliyyətin kritik səviyyəyə çatması sünnilər və şiələr, ərəblər və kürdlər, xristian və müsəlmanlar arasında sekta müharibələrinin baş verməsini reallaşdırdı. Əsədin tabeliyində raketlər və hətta mümkün kimyəvi silahların olması son nəticədə onların digər ölkələrə qarşı da istifadə edilməsi ilə nəticələnə bilər. Liviyadan fərqli olaraq Suriya Rusiya sərhədlərinə daha yaxındır. Nəzərə alınarsa ki, Dəməşqdən Maxaçkalaya qədər olan məsafə 1000 mildən daha azdır bu Rusiya üçün real təhlükə

kəsb edilə bilər.

Son dövrlərdə Qərb dövlətləri Suriya böhranının həllində Rusiyanın həlledici rola malik olduğunu qəbul edirlər. Böhranın həlli üçün Əsəd rejimi ilə görüşlərin keçirilməsini qəbul etmələri V. Putinin uğuru hesab edilməlidir (74).

28 sentyabr 2015-ci ildə New Yorkda BMT-nin Baş Assambleyasının iclası çərçivəsində Putin və Obama arasında əhəmiyyətli görüş keçirildi. Görüşdə Suriya böhranının həlli ilə əlaqəli tərəflərin siyasətlərində yaxınlaşma proqnozu özünü doğrultmadı. Hər iki tərəfin regiondakı maraqlarının digərləri ilə üst-üstə düşməsi ilə tərəflərin yaxınlaşmasının mümkün olmayacağı təxmin edilirdi. Moskva və Vaşinqtonun Suriya böhranında razılaşdığı yeganə mövzu ölkənin dövlət olaraq qalması və yeni siyasi sistemin qurulmasıdır. İŞİD-la mübarizənin davam etdirilməsinin vacibliyində də tərəflər həmfikirdirlər. Lakin Suriyada yeni siyasi sistemə keçid prossesinin necə olacağı mövzusunda tərəflər razılığa gələ bilmirlər. B. Obama ilə görüş zamanı V. Putin onun Rusiyanın təklifini qəbul etməyəcəyi təqdirdə Suriya ilə Rusiya arasında 1980-ci ildə bağlanmış müqaviləyə əsasən B.Əsəd hökümətinə kömək etmək məcburiyyətində qalacağını qeyd etmişdir (17).

30 sentyabr 2015-ci ildə prezident Bəşər Əsədin rəhbərliyi altında Suriya hökuməti tərəfindən edilən rəsmi xahiş ilə Rusiya hərbi hava qüvvələri İŞİD və anti-Əsəd qüvvələrinə qarşı davamlı hava hücumları kampaniyasına başladı. Bundan əvvəl isə Rusiya prezidenti Putin Qərb dövlətlərini Suriya müxalifətinə silah satmaqda günahlandırırdı. Bu silah yardımları beynəlxalq hüquq və BMT-nin Təhlükəsizlik Şurasının qərarlarına uyğun olmadığından Rusiya tərəfindən tənqid edilirdi. Putinə görə Qərb dövlətlərinin B.Əsədə müxalif olan qüvvələrə dəstək verməsi əslində regiondakı terror təşkilatlarına edilmiş kömək olaraq dəyərləndirilməlidir. Eyni zamanda, Putin Rusiyanın Əsəd hökümətinə hərbi yardımının beynəlxalq sazişlər çərçivəsində həyata keçirildiyini bildirdi. İlkin olaraq reydlər Suriyada Xmeimim hava bazasında yerləşən Rusiya təyyarələri tərəfindən həyata keçirildi. Rusiya əməliyyatlara başladıqdan qısa müddət sonra ABŞ prezidenti Barak Obama komandasına xüsusi vurğulayaraq bildirdi ki, ABŞ Suriya müxalifətini dəstəkləməyə davam edəcək.

Digər tərəfdən isə Rusiyanın hava əməliyyatlarının Türkiyəyə daxil olmasından sonra Qərb dövlətləri (ABŞ, Fransa, Almaniya, Böyük Britaniya) Rusiyaya qarşı mövqe aldılar. İdlib, Həma və Humusda edilən hücumların İŞİD terror təşkilatına deyil müxaliflərə qarşı həyata keçirilməsi və mülki əhalinin həlak olmasından dolayı, Rusiya tənqid obyektinə çevrilmişdir. Səudiyyə Ərəbistanı Rusiyaya müraciət edərək, Suriyadakı bombardmanları dayandırmağı tələb etmişdir.

7 oktyabr 2015-ci ildə Rusiya rəsmiləri bildirdilər ki, Rusiya Xəzər dənizində yerləşən hərbi dəniz gəmiləri vasitəsilə təxminən 1500 km məsafədən Suriyadakı İŞİD mövqelərinə raket zərbələri endirdi. Müdafiə naziri Sergey Şoyqu bildirib ki, 4 hərbi dəniz gəmisi 11 hədəf istiqamətində 26 qanadlı raket zərbəsi endirmişdir. Bu zərbə nəticəsində həmin hədəflər dağıdılmış, lakin mülki əhali arasında heç bir itki olmamışdır.

Suriya rəsmilərinin məlumatına görə elə həmin gün Suriya hökumətinin quru qoşun qüvvələri Rusiya hərbi hava qüvvələrinin dəstəyi ilə yerüstü əməliyyatlara başlayaraq bir neçə gün ərzində ölkənin qərbində yerləşən Hama vilayətində sahilyanı ərazilərə yaxın bir sıra əsas əraziləri ələ keçirdiblər.

Rusiya həftələrlə davam edən raket zərbələrinin, əsasən, qeyri İŞİD mövqelərinə istiqamətləndiyi barədə iddiaları rədd edirdi. Suriya İnsan Hüquqları üzrə müşahidə məntəqəsinin məlumatına görə, "bu aylar ərzində ən gərgin döyüşlər" Həma və İdlis əyalətlərində baş verib. Bu məlumata əsasən, toqquşmalar həmin ərazilərdəki Rusiya hərbi hava zərbələri ilə müşayiət olunub. Rusiya bildirir ki, hücüm əməliyyatı bütün terroristlərə doğru istiqamətlənib, lakin deyilənə görə, bəzi hava hücümları zamanı dinc əhali və Qərbin dəstəyini almış üsyançılara da zərbə dəyib.

Rusiya Xarici işlər Nazirliyi bəyan edib ki, Moskva İŞİD və digər terrorist qrupları ilə döyüş mövzularını müzakirə etmək və Suriyada siyasi nizamlama üçün zəmin hazırlamaq məqsədilə Qərbin dəstəklədiyi üsyançı Azad Suriya Ordusu ilə təmas qurmağa hazırdır (18).

ABŞ Müdafiə Naziri Eşton Karter bildirib ki, Suriyada döyüşən koalisiya qüvvələri Rusiya ilə əməkdaşlıq etməzlər. O bildirib ki: "biz hesab edirik ki, Rusiya düzgün strategiya yeritmir və qeyri İŞİD hədəflərinə zərbə endirməyə davam edir, bu isə

tamamilə səhv addımdır”. Bu açıqlamadan sonra Rusiyanın hərbi əməliyyatları daha da intensivləşməyə başladı.

Rusiyanın Xəzər dənizində yerləşən hərbi dəniz gəmiləri vasitəsilə İŞİD mövqelərinə hücümü barədə qərarı Moskvanın böhrana daha çox cəlb edilməsində yeni dönüş olduğunu göstərir. Hələ də havadan hücüm əvəzinə Rusiyanın bu cür xüsusi silahlara nəyə görə üstünlük verdiyi məlum deyil, lakin bu raketlərin Suriyaya çatmaq üçün İran və İraq üzərindən müəyyən məsafədə uçmalı olduqları məlum idi. Dənizdən buraxılan raketlər uzun müddət Birləmiş Ştatlar tərəfindən xarici müdaxilələrdə istifadə olunan silah seçimi olub, ona görə də, ola bilsin ki, Rusiya bu silahlardan bir “fövqəltəbii güc” kimi hərbi arsenala sahib olduğunu nümayiş etdirmək məqsədi ilə istifadə edib.

Rusiya prezidenti Vladimir Putin ilə televiziyada görüş zamanı Sergey Şoyqu bildirib ki, qanadlı raketlər idarə və nəzarət mərkəzləri, eləcə də, silah anbarları daxil olmaqla bütün hədəfləri məhv edib, mülki obyektlərə isə heç bir ziyan dəyməyib. Cənab Şoyqu bildirib ki, Rusiya bombardmanı başlayandan bəri 112 hədəf vurulub. Müdafiə nazirinin məlumatına görə, Kalibr-Nk raketləri oktyabrın 7-də gecə yarısı Xəzər dənizinin cənub-qərbindən yerin relyefi boyu buraxılıb və 50 metr hündürlükdə qeyri-yaşayış ərazisindəki öz hədəflərinə yaxınlaşıb. Rusiya müdafiə nazirinin "twitter" hesabında havaya buraxılan qanadlı raketlərin şəkilləri göstərilib və bildirilib ki, onlar dəqiqliklə bütün hədəflərə uğurlu şəkildə zərbə endiriblər. İŞİD ilə əlaqəli olan kütləvi informasiya vasitələri onun çərşənbə günü səhər radələrində Raqqa şəhərinin təxminən 55 km qərbinə düşən və üzərində Rus yazıları olan Skad raketlərinin qalıqları olduğunu bildirən şəkilləri nəşr ediblər(30).

2015-ci il oktyabrin 8-i ABŞ höküməti rəsmi şəkildə etiraf edərək bildirdi ki, Pentaqonun Suriya müxalifətinə təlim və təchizat dəstəyi üçün ayırdığı 500 milyon dollarlıq proqramı uğursuzluğa uğradı. Bu proqram ona görə işə yaramadı ki, yeni gələn döyüşçülər Əsədə qarşı deyil, yalnız döyüşən İŞİD qüvvələrinə qarşı mübarizəni qəbul edəcəkdi.

Suriyada Rusiyanın əməliyyatlara başlamasından iki həftə sonra ABŞ-ın tank əleyhinə raketlərdən istifadə etməsi və Rusiyanın hökümət əleyhdarlarına qarşı hava

zərbələrini durmadan artırması nəticəsində, Suriya münaqişəsi Rusiya və Birləşmiş Ştatlar arasında vəkalət müharibəsinə daha da yaxınlaşdı. Hərbi dəstəyin səviyyəsinin artması müharibə məqsədlərini daha da genişləndirmək, siyasi mövqeləri möhkəmlətmək və diplomatik həlli daha da inandırıcı etməklə münaqişənin hər iki tərəfində ruh yüksəkliyini artırdı.

Suriyadakı İran qüvvələri tərəfindən çoxlu sayda yüksək rütbəli itkilərə baxmayaraq, oktyabrın ortalarında Hələbdə Rusiya-Suriya-İran-Hizbullah koalisiyası birgə hücum nəticəsində üsyançılar qarşısında önə keçdi. Üsyançı komandirlər isə bildirdilər ki, Suriya hökümətinin dəstəyini almış Rusiyanın hava hücümları başladığı vaxtdan bəri, onlar ilk dəfədir ki, çoxlu sayda ABŞ istehsalı olan güclü tank əleyhinə raket təchizatları alırlar.

ABŞ istehsalı tank əleyhinə idarə olunan TOW raketlərİ MKİ-nin (Mərkəzi Kəşfiyyat İdarəsi) rəhbərliyi altında Suriya höküməti əleyhinə döyüşən üsyançı qruplara yardım etmək məqsədilə Birləşmiş Ştatlar, Səudiyyə Ərəbistanı və digər müttəfiqlər tərəfindən həyata keçirilən proqram vasitəsilə 2013-cü ildə regiona gətirilməyə başlanılmışdı. Silahlar Amerika müttəfiqləri tərəfindən döyüş meydanına gətirilir, Birləşmiş Ştatlar isə onların göndəriləcəyi yeri təstiqləyirdi. Bu onu göstərir ki, yeni davamlı döyüş meydanının təchizatı ən azından ABŞ tərəfindən təstiq olunur, əvəzində isə Rusiya hərbi hava qüvvələri yenə də Bəşər Əsədə dəstək verirdi. Üsaynçı komandirlərdən biri Əhməd Əl Səid müsahibə zamanı bildirib ki: “Biz istəyimizi çox qısa müddət ərzində əldə edirik.” O əlavə edib ki, cəmi iki gün ərzində, onun qrupu 7 ədəd tank əleyhinə idarə oluna bilən TOW raketi ilə 7 zirehli texnika və tankları məhv edib (31).

Həmadakı rəsmilərdən biri bildirib ki: “Biz nə zaman və nə qədər ehtiyacımız olsa təchizat əldə edə bilərik” və tənqid etdiyi üsyançıların təzyiqlərinə məruz qalmamaq üçün adının gizli qalmasını istəyib. O, Rusiyanın münaqişəyə daxil olmasının yeni bir dəyişikliyə səbəb olacağına inandığını bildirib və söyləyib ki: “Bizi bombardman etməklə Rusiya Suriya rejimi əleyhinə çıxan müttəfiq ölkələri də bombardman edir.” Bu müttəfiqlərdən danışarkən o, Birləşmiş Ştatlar və 2011-ci ildə siyasi etirazlarda Əsədi sıxışdıraraq onun istefasını tələb edən müttəfiqləri nəzərdə tuturdu.

2015-ci ilin oktyabrın sonlarında ABŞ-ın müdafiə naziri Eşton Karter ABŞ rəhbərliyinin strategiyasındakı dəyişikliyi vurğulayaraq bildirdi ki, Suriyadakı döyüşlərdə əsas diqqət Raqqa şəhərinə veriləcək. Hava hücumları daha çox olacaq və yerüstü reydlərdən daha çox istifadə ediləcək. İki həftə sonra Vyanada Suriya sülh danışıqları həyata keçirildi. 30 oktyabrda Suriya sülh prosesi ilə bağlı keçirilən danışıqlara ilk olaraq ABŞ, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanı başladılar. Lakin, bu danışıqlarda iştitakçılar Bəşər Əsədin gələcəyi ilə bağlı razılığa gələ bilmədilər.

10 noyabr 2015-ci ildə Suriya hökumət qüvvələri 2013-cü ilin aprelindən bəri hökumət qüvvələrinin mühasirədə olduğu Hələb vilayətindəki Kweires hava limanını üsyançıların blokadasından qurtarmaq üçün əməliyyatlara başladı. 2015-ci il noyabrın ortalarında Sinay yarımadası üzərində rus təyyarə bombardmanından və Fransa hava hücumlarının ardından həm Rusiya, həm də Fransa Suriyada döyüş əməliyyatlarını intensivləşdirdilər. Fransanın bu hərbi əməliyyatları ABŞ hərbi qüvvələri ilə koordinasiya daxilində baş tuturdu.

Müdafiə Naziri Sergey Şoyqu Rusiya prezidentinin sədrliyi ilə Moskvada keçirilən Milli Təhlükəsizlik iclası zamanı bildirdi ki: “biz Suriyada İŞİD mövqelərinə qarşı kütləvi hava hücümü əməliyyatları aparırıq. Biz ölkənin həm eni, həm də uzunu boyu əməliyyatlar aparmağa imkan verən hərbi uçuşların sayını iki dəfəyə qədər artırmışıq.” Eyni zamanda, Hərbi Hava qüvvələri komandanlığı əlavə etdi ki, hücüm əməliyyatlarına Su-34 bombardmançı təyyarələri və Su-27 qırıcı təyyarələri də daxil olmaqla 34 yeni təyyarə əlavə edilmişdir. Baş Qərargah rəisinin məlumatına görə isə anti-İŞİD kampaniyasının yeni mərhələsində Rusiya aerodromları üzərindən uçan 25 uzaqmənzilli bombardmançı təyyarələr də bu əməliyyatlarda iştirak edəcək. Putin isə hərbi rəislərə cavabında bildirib ki: “Suriyada hərbi missiyalar aparmaqla siz Rusiya və onun vətəndaşlarını qoruyursunuz. Suriyadakı hava əməliyyatlarımız təkcə bu şəkildə davam etdirilə bilməz, bu əməliyyatlar genişləndirilməlidir ki, cinayətkarlar intiqamın qaçılmaz olduğunu anlasınlar."

Noyabrın 17-i Putin şərqi Aralıq dənizindəki Şarl de Qoll flaqman gəmisinin rəhbərlik etdiyi Fransa hərbi dəniz qüvvələri ilə əməliyyatları əlaqələndirmək üçün

“Moskva” kreyserinin (yüksək sürətli hərbi gəmilər) şərqi Aralıq dənizinə göndərilməsi barədə sərəncam verdi. O bildirdi ki: "Biz Fransa hərbi dəniz qüvvələri ilə birbaşa təmas yaratmalı və onlara müttəfiq kimi münasibət göstərməliyik. Biz həm su, həm də hava əməliyyatları üçün birgə fəaliyyət planı hazırlamalıyıq." (72; 75)

Kremlin verdiyi bəyanatda deyilir ki: "Şəxsi telefon zəngindən sonra birgə missiya parametrləri barədə Putin və Fransa Prezidenti Fransua Olland ikitərəfli və çoxtərəfli əməkdaşlığa cəmləyib. Bura Suriyada Rusiya və Fransa hərbi komandanlığı və xüsusi xidmət orqanları arasında sıx əlaqələr və birgə əməliyyatlar daxildir”.

Noyabrın 26-da Vladimir Putin və Fransua Olland Moskvada görüşdülər. Bu görüşdə Rusiya Baş Qərərgah rəisi Valeri Qerasimovun verdiyi məlumata görə Rusiya hərbi hava qüvvələrinin fəaliyyəti Suriya hökümət qüvvələrinə mühüm əraziləri terrorçuların nəzarətindən azad etməyə və Hələb, Latakiya, İdlib, Homs və Dəməşq regionlarında bütün cəbhə boyu hücüm əməliyyatları həyata keçirməyə imkan verdi. Qerasimovun sözlərinə görə, Rusiya hərbi hava qüvvələri Suriyada əməliyyatların başlamasından bəri terror obyektlərinə 4000-dən çox raket və bomba zərbələri endirib. Son 48 gün ərzində isə Rusiya hərbi aviasiyası 2289 uçuş əməliyyatı yerinə yetirib. Rusiya hava hücumları tərəfindən dağıdılmış obyektlər arasında 562 nəzarət məntəqəsi, 64 terorçu təlim düşərgəsi, 64 silah və döyüş sursatı istehsal obyekti, 8 idarə mərkəzi, 8 arsenal və 6 yanacaq doldurma tankları var idi. Həmçinin, o vurğuladı ki, təkcə Hələb vilayətində 40 yaşayış məntəqəsi azad edilib (50).

Qısa müddət sonra isə Rusiya Xarici İşlər Nazirliyi Fransanın anti-Əsəd mövqeyini və eləcə də Fransanın Suriyadakı neft və qaz qurğularına hava hücumlarını tənqid etdi. Yəqin ki, bu hücumlar o qurğuların Suriya hökumətinin nəzarəti altına qaytarılmasının qarşısını almaq üçün nəzərdə tutulmuşdu. Rusiya rəsmi şəkildə bildirdi ki, Suriya hökumətinin razılığı olmadan Fransanın həyata keçirdiyi bu hücumlara haqq qazandırmaq olmaz. Fransız millət vəkillərinin daxil olduğu Fransa nümayəndə heyəti 14 noyabrda çıxış etdi, prezident Bəşər Əsəd isə digər qərb dövlətləri kimi Fransanın da Suriya hökumətinin təklifinə qarşı həyata keçirdiyi tədbirləri kəskin şəkildə tənqid etdi.

19 noyabr 2015-ci ildə Barak Obama Vyana danışıqlarında Əsədin hakimiyyətdə qaldığı müddətcə Suriyada vətəndaş müharibəsini sonlandıra bilməyəcəklərini bildirdi. O, Rusiya və İranı Suriya hökumətinə dəstək verməyi dayandırmağa çağırdı. 20 noyabr 2015-ci ildə BMT Təhlükəsizlik Şurası terror qruplarının dəstəyi ilə İŞİD tərəfindən xüsusi törədilmiş terror aktlarının və onların növbəti cəhdlərinin qarşısını almaq üçün Beynəlxalq Suriyaya Dəstək Qrupu tərəfindən razılaşdırılmış və BMT üzvləri tərəfindən təsdiqlənmiş 2249 saylı qətnaməni yekdilliklə qəbul etdi. Qəbul olunan qətnamə Fransa tərəfindən hazırlanmış və Birləşmiş Krallıq tərəfindən maliyyələşdirilmişdi. Ertəsi gün isə Rusiya qərb dövlətləri tərəfindən əngəllənən və Əsədin hakimiyyətini leqallaşdırmaq istəyən əvvəlki qətnamənin tamamilə yenilənmiş versiyasını təqdim etdi (42).

24 noyabr 2015-ci ildə Türkiyə Rusiyanın döyüş təyyarəsini vurub saldı, hansı ki, ölən pilotun Turkiyənin hava sərhədlərini pozaraq Suriyanın şimal-qərbində qəzaya uğradığı iddia edilirdi. Hansı ki, bu hadisə Rusiyanın Suriyada hərbi əməliyyatlarını daha da genişləndirməsinə və Rusiya-Türkiyə münasibətlərinin pozulmasına səbəb oldu. Qəzadan sonra üsyançılar Rusiya xilasetmə vertolyotuna hücama keçərək onu vurdular və nəticədə daha 1 rus hərbiçisi həlak oldu. Bir neçə gün sonra rus təyyarələrinin İdlib vilayətinin Ariha mahalında hədəfləri vurduğu və nəticədə qiyamçılardan çoxlu sayda itki verdiyi bildirildi.

2 dekabr 2015-ci ildə Britaniya Parlamenti 397 nəfərfən 223 səs çoxluğu ilə Suriyada əməliyyatları genişləndirməyi qəbul etdi. Həmin gün 22:30-da dərhal iki Britaniya "Tornado" hərbi təyyarəsi "Royal Air Force-Aktrotiri"-dən (Kral Hərbi Hava Qüvvələri-Akrotiri, Kipr) havaya buraxıldı. Əməliyyata başlamaq üçün 3 dekabr saat 00:30-da daha iki təyyarə cəlb olundu və bütün təyyarələr saat 06:30-da bombasız geri döndülər. Müdafiə katibi Michael Fallon hava hücumlarının şərqi Suriyadakı Omar neft yataqlarına edildiyini və daha 8 təyyarənin Akrotiridəki qüvvələrə qoşulması üçün oraya göndərildiyini bildirdi.

21 yanvar 2016-cı ildə hökumətin nəzarətində olan Əl-Qamışlı hava limanında Rusiyanın yeni baza yaradılması istiqamətindəki fəaliyyəti ilk dəfə qeydə alınırdı, Əl-Həsəkə vilayətində Əl-Qamışlı ərazisinin şimal-şərq hissəsi Suriya-Kürd-İslamçı

münaqişəsi başlayandan bəri Suriya kürdlərinin nəzarəti altında idi. ABŞ qüvvələrinin Kamishly hava limanından 50 km uzaqlıqda eyni vilayətdə yerləşən Rmelian hava limanındakı oxşar fəaliyyəti şübhə doğurmağa başladı. Həmçinin, bu ərazi ABŞ tərəfindən dəstəklənən "Kürd Xalqının Müdafiə Birlikləri"-nin nəzarətində idi. 24 yanvar 2016-cı ildə Suriya hökuməti elan etdi ki, hökumət qüvvələri Latakia vilayətinə hücumlarını davam etdirərək qiyamçıların Latakia vilayətində ələ keçirdikləri sonuncu böyük şəhər olan Rəbiə şəhərinin əsasən sünnilər məskunlaşdığı hissəsini ələ keçirdiblər. Rusiyanın Rəbiənin geri qaytarılmasında mühüm rol oynadığı deyilirdi. 2015-ci ilin dekabrından başlayan əməliyyatlar nəticəsində 26 yanvar 2016-cı ildə Suriya hökuməti Dara vilayətinin Əl-Şeyx şəhəri üzərində nəzarəti və idarəçiliyi tam olaraq ələ keçirdi. Suriya hökuməti tərəfindən şəhərin geri qaytarılması "Suriya müharibəsinin dönüş nöqtəsi" kimi adlandırmaq olar.

Suriya böhranında Rusiya ilə eyni mövqedə olan və Əsəd rejimini dəstəkləyən İran regionda böyük geosiyasi gücə malikdir. Regionda İranın güclənməsini istəməyən Körfəz dövlətləri Suriyada Əsəd rejiminin devrilməsini İranı izolyasiyaya salmaq və onun regional üstünlük əldə etməsinə son qoymaq imkanı kimi baxırlar. Səudiyyə Ərəbistanı, Qatar, Türkiyə kimi region dövlətləri Əsəd rejiminə qarşı müxalif qüvvələrə siyasi və maliyyə dəstəyi etməkdən çəkinmirlər. İran da öz növbəsində Hizbullah vasitəsilə Əsəd rejiminə dəstək olur. Müxtəlif dövlətlər tərəfindən alovlandırılan böhran artıq regional kontekstdən çıxmış və ABŞ, Rusiya, Çin kimi dövlətlərin də istər BMT çərçivəsində istərsə də digər beynəlxalq danışıqlar səviyyəsində müzakirə və "qarşıdurma" mövzusuna çevrilmişdir.

Qeyd edək ki, Suriya ilə İran arasında sıx münasibətlərin olmasına baxmayaraq iki ölkə ideoloji baxımdan bir-birindən fərqlənir: Suriyada rejim sekulyar, İranda isə teokratikdir, hakimiyyətdə ələvilərin olmasına baxmayaraq Suriyada üstünlük təşkil edən sünnilərdir,İranda isə şiələr. Lakin bunlarla yanaşı Suriyanın geosiyasi mövqeyi İran üçün mühüm əhəmiyyət kəsb edir. Suriyanın Livan, İraq və İsraillə həmsərhəd olması və Hizbullah, Fələstinin radikal qrupları ilə əlaqə saxlamaq üçün keçid rolunu oynaması onu İran üçün vacib oyunçuya çevirir. Əsəd rejiminin devrilməsi

təqdirində şiə azlığın hakimiyyəti ələ alması qeyri mümkün görünür. Bu da İran üçün önəmli zərbə olmaqla yanaşı İranın regional izolyasiya vəziyyətini gərginləşdirəcək. Hakimiyyətə Türkiyə və ya qərb yönümlü qüvvələrin gəlməsi isə İran üçün daha bir zərbə olacaq (34).

ABŞ-ın Əfqanıstana (2001) və İraqa (2003) müdaxiləsi İranın regiondakı 2 əsas rəqibi Taliban və Səddam Hüseyni "oyundan" kənarlaşdırdı. Lakin ABŞ-ın qoşunlarını bu ərazilərdən çıxarması İran üçün növbəti zərbə oldu. İranın sərhədlərinə yaxın bir ərazidə Sünni Əl-Qaidə qrupunun güclənməsi və Əfqanıstanda Taliban rejiminin bərpası İranın regional maraqlarını hədələyir. Növbəti olaraq Suriyanın da regional müttəfiq kimi itirilməsi İranın hərbi və siyasi maraqlarına ziddir. Eyni zamanda Suriyada məzhəb qarşıdurmasının geniş vüsat alması və şiələrin hədəf olaraq seçilməsi İranda qorxu doğurur.

Türkiyənin Suriyaya qarşı mövqe tutması Dəməşqin ən yaxın müttəfiqi olan Tehranı çox ciddi olaraq narahat edir. İranla Suriya arasındakı qarşılıqlı müdafiə müqaviləsinə görə, Tehran Dəməşqə hərbi yardım etmək öhdəliyinə malikdir. İranın Baş Qərargah rəisi, general Həsən Firuzabadi bəyan edib ki, ABŞ-ın döyüş planlarına köməkçi olmaq Suriyanın qonşusu olan ölkələr üçün doğru deyildir. Rəsmi Ankaranın Suriya siyasətini tənqid edən İranın Baş Qərargah rəisi Türkiyəyə sərt xəbərdarlıq etmişdir.

Türkiyənin baş naziri Ərdoğan da öz növbəsində İranı sərt tənqid edərək qeyd etmişdir ki, "Çox təəssüf ki, İran ordusunun baş qərargah rəisi Suriyadakı qanlı olayların məsuliyyətini Türkiyə, Səudiyyə Ərəbistanı və Qətərin üzərinə atır. Dünyada yanında heç kimin qalmadığı bir dövrdə İranı dəstəkləyən ölkə Türkiyə idi və nüvə problemi məsələsində sonuna qədər onu müdafiə mövqeyində dayandı. Ancaq Suriyada 100 minə yaxın insanı öldürən bir rejimi müdafiə etmək bizim dəyərlərimizə yaddır."

## 2.3. Münaqişə tərəflərinin Suriya sülh danışıqlarında mövqeyi

Suriyada aylardır davam edən daxili qarşıdurmaların sonlandırılması üçün 30 İyun

2012-ci ildə əhəmiyyətli bir prosesə başnalıldı. BMT və Ərəb Birliyinin Suriya xüsusi nümayəndəsi Kofi Annanın hazırladığı planı daha əvvəl qəbul etdiyini ifadə edən Suriya rəhbərliyi bu gündən artıq onun tədbiqinə başladığını açıqladı.

Annan Planı özündə nələri ehtiva edir? Kofi Annan tərəfindən hazırlanaraq Suriya rəhbərliyinə qəbul etdirilən 6 maddəlik o plan:

1 - Suriya rəhbərliyi xalqın qanuni istək və qayğılarına cavab vermək üçün başladılacaq və Suriyalıların liderlik edəcəyi bu siyasi prosesdə əməkdaşlıq edəcəyi ilə bağlı öhdəlik götürür.

2 - Suriya insanların yaşadığı bölgələrdə qarşıdurmalara və hərbi əməliyyatlara son verəcəyini və ağır silahlardan istifadə edilməsini dərhal dayandıracağını öhdəsinə götürür. Bu addımlar atılarkən Suriya zorakılığı bitirmək üçün BMT nəzarəti altında Annanla birlikdə işləyəcək. Annan, müxalifətdən də bütün qarşıdurmaların sona çatdırılması üçün bənzər öhdəliklər gözləməkdədir.

3 - Suriya humanitar yardımın çatdırılması və yaralıların azad edilməsi üçün gündəlik iki saatlıq "insani dayanma"nı qəbul edir və həyata keçirdir.

4 - Suriya "təsadüfi həbs olunan şəxslərin sərbəst buraxılma prosesinin sürətlənməsini və genişlənməsi"ni və bu şəxslərin tutulduğu yerlərin bir siyahısını təqdim etməyi öhdəsinə götürür.

5 - Suriya ölkə daxilində jurnalistlər üçün hərəkət azadlığını təmin etməyi və "ayrı-seçkilik olmayan bir viza siyasəti tətbiqi"ni öhdəsinə götürür.

6 - Suriya qanun və qaydalar çərçivəsində toplaşmaq azadlığı və nümayiş etmək hüququna hörmət edəcəyini öhdəsinə götürür (55).

Birləşmiş Millətlər Təşkilatının və Ərəb Liqası xüsusi nümayəndəsi Kofi Annan, BMT Təhlükəsizlik Şurasında etdiyi danışmada Suriya üçün hazırlanan sülh planının "vətəndaş müharibəsini önləmək üçün son fürsət" olduğunu bildirdi. Kofi Annan, Suriya ordusunun bu gün daha az sayda ağır silah istifadə etdiyini, lakin insan hüquqları pozuntularının artmaqda olduğunu söylədi.

Beynəlxalq Qızıl Xaç Təşkilatı də dünən etdiyi şərhdə yüz minlərlə insanın köməyə ehtiyac duyduğunu ifadə edərək Suriyaya əlavə 27 milyon dollarlıq yardım tələb etmişdi. Suriyada işgəncə, topluca həbsə gedilməsi və digər insan hüquqları

pozuntularından narahat olduğunu ifadə edən Kofi Annan, hərbi əməliyyatları sona çatdırma məsuliyyətinin başda prezident Bəşər Əsədə düşdüyünü vurguladı. Məlumatlandırma toplantısından sonra mətbuata açıqlama verən Annan, atəşkəs müşahidəçilərini Suriyanı sabitliyə qovuşdurma mövzusunda "əldəki tək fürsət" kimi qiymətləndirdi. Annan, "Əks halda ölkə vətəndaş müharibəsinə sürüklənir ki, bunun nəticələri də çox qorxunc olacaq. Buna icazə verə bilmərik" dedi. Annanın bir ay əvvəl nəticələndirdiyi sülh planında 300 BMT müşahidəçisinin Suriyaya göndərilməsi nəzərdə tuturdu, ancaq, bu ölkədəki şiddəti sona çatdırmağı bacara bilmədi (46).

ABŞ-ın BMT nümayəndəsi Suzan Rays, Vaşinqtonun, Əsədin istefa etməsi üçün təzyiqə davam edəcəyini bildirdi. Rays bildirdi ki: "Suriya rejimi Kofi Annanın altı maddəli planından heç birini bu günə qədər tamamilə yetirməyib".

Qızıl Xaç Komitəsi Suriyanın bəzi bölgələrində zaman-zaman sükunət dövrləri görülsə də digər bir çox bölgədə zorakılığın eyni formada davam etdiyini ifadə edir. Qızıl Xaç Təşkilatının başçısı Yakob Kellenberger Annanın atəşkəs planının müvəffəqiyyətlə başa çatmasının real görsənmədiyini bildirdi. Kellenberger, verdiyi açıqlamada bildirdi ki: "Sülh planının uğurlu olması üçün Suriyada BMT müşahidəçilərinin sayı artırılmalıdır. Halbuki Suriyada hələ çox az sayda müşahidəçi var".

Suriyadakı Bəşər Əsəd rəhbərliyi zorakılığın dayandırılması üçün üsyanın başladığı tarixdən bu yana ən ciddi addımı atdı. Əsəd BMT və Ərəb Birliyin Suriya üzrə xüsusi nümayəndəsi Kofi Annanın sülh planını qəbul etdi. Annanın sözçüsü Əhməd Fevzi Şam hökumətinin ölkədə zorakılığın dayandırmasını nəzərdə tutan və siyasi həll nəzərdə tutan altı maddəlik sülh planını tətbiq edəcəyini söylədi. Annan isə planın qəbul edilməsinin əhəmiyyətli bir addım olduğunu, ancaq, bunun tək başına bir şey ifadə etməyəcəyini və əsl əhəmiyyətli olanın planın həyata keçirilməsi olduğunu ifadə etdi.

BMT və Ərəb Birliyi tərəfindən Suriyadakı böhrana siyasi həll tapması üçün vəzifələndirilən Annan bir müddətdir diplomatik təmaslarını daha da artırdı. Həftəsonu Rusiyadan sülh planına tam dəstək alan Annan, Pekində Çin hökuməti

nümayəndələri ilə görüşdü. Suriyalı müxaliflər isə bu prosesə daha təmkinli yanaşırdılar. Suriya Milli Şurasının üzvlərindən ola Xalid Hoca Annan planını dəstəklədiklərini ancaq Əsədin bunu zaman qazanmaq məqsədiylə qəbul etdiyini bildirdi. O söylədi ki: "Əsəd plandakı atəşkəs, məhbusların sərbəst buraxılması, jurnalistlərin ölkəyə girməsi, kritik bölgələrə yardım getməsinə icazə verilemsi kimi maddələri əvvəl bir həyata keçirsin və bu mövzuda səmimi olduğunu göstərsin. Biz də ona uyğun mövqeyimizi bildiriərik" (52).

II Cenevrə Konfransı. Əsəd rejimi tərəfindən 21 Avqust 2013-cü il tarixində Şamın Şərqi Guta bölgəsində kimyəvi silahdan istifadə edilməsi və beynəlxalq cəmiyyətin bu vəziyyətə səssiz qalması Suriya böhranı baxımından bir qırılma nöqtəsi oldu. Bu hücumda 450-si uşaq olmaqla 1400-dən çox adamın həyatını itirdiyi açıqlanmışdır. Bu hadisədən sonra ABŞ, Fransa və İngiltərə tərəfindən Suriya rejiminə qarşı hava əməliyyatları müzakirəsi başlanmış, digər tərəfdən isə BMT nəzarət etmə qrupu kimyəvi silahın kim tərəfindən istifadə edildiyinin tam dəqiq aydınlaşdırılması üçün Suriyaya gedərək araşdırmalara başlamışdı. Bu nöqtədə Suriya böhranında 2011-ci ildən bəri əks istiqamətdə siyasətlər yeridən ABŞ və Rusiyanın birlikdə hərəkət etdiyi bir proses başlamış, Əsəd rejiminin kimyəvi silahdan istifadəsinə göstərilən reaksiyalar zəifləmiş və başda ABŞ olmaqla Qərb ölkələrinin Suriya böhranındakı mövqeyi qeyri-müəyyənləşdi.

ABŞ Suriya böhranına müdaxilə qərarında kütləvi qırğın silahlarından istifadə edilməsini qırmızı xətt olaraq təyin etdiyi halda, Əsəd rejiminin devrilməsinə yönəlmiş bir müdaxilə etməyib Rusiya ilə Suriyadakı kimyəvi silahların məhv edilməsi mövzusunda razılaşma əldə etdi. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası 27 Sentyabr 2013-cü il tarixində Suriyanın kimyəvi silahlarının məhv edilməsini nəzərdə tutan qərar layihəsini yekdilliklə qəbul etdi. 2118 saylı bu qərar böhran ərzində BMT Təhlükəsizlik Şurasının Suriyaya sanksiya nəzərdə tutan ilk qərarı oldu. Bu qərar eyni zamanda ABŞ və Qərbin Suriyaya hərbi müdaxilə etməyəcəyinin bir göstəricisi olaraq da şərh oluna bilər. Belə ki, bu qərar istiqamətində 2013-cü ilin noyabrında Kimyəvi Silahların Qadağan Təşkilatı Hələb yaxınlarındakı kimyəvi silah istehsal edən müəssisənin məhv edilməsinə başlamış,

ABŞ və Rusiyanın razılaşması nəticəsində Əsəd rejimi müdaxilədən xilas olmuşdu.

30 İyun 2012-ci ildə ilki reallaşdırılan 1-ci Cenevrə Konfransından il yarım sonra, 22 yanvar 2014-cü il tarixində İsveçrənin Montrö şəhərində təxminən 40 ölkənin xarici işlər naziri və nümayəndələrinin iştirakı ilə II Cenevrə Konfransı keçirildi. İkinci konfransda kimyəvi silahlarının məhv edilməsini qəbul edən Əsəd rejimi ilə Suriya müxalifəti arasında danışıqlar edilməsi və bu danışıqlar nəticəsində bir keçid hökuməti yaradılması nəzərdə tutulurdu. Əsəd rejimi ilə müxalifət arasında danışıqlar konfransın üçüncü günündə başlamış, ancaq tərəflər arasında Homs şəhərindən təhlükəsizlik çıxışı istisna olmaqla, uzlaşma təmin edilə bilməmiş və heç bir bir nəticə əldə edilməmişdi. Necə ki, konfransın əvvəlində Suriya böhranının mövcud tarazlığına görə Əsədlə və ya Əsədsiz bir keçid hökumətinin qurulması məqsədiylə reallaşan görüşlərin uğurlu ola bilməyəcəyi nəzərdə tutulmuşdu.

Əsəd rejimi üçün II Cenevrə konfransının üç baxımdan əhəmiyyətli olduğunu deyə bilərik. Birincisi, üç ildən bəri beynəlxalq miqyasda hakimiyyətini və nüfuzunu itirdiyi ifadə edilən Əsəd rejiminin Cenevrədə həmsöhbət olması və rejimin müxalifət qarşısındakı köhnə mövqeyini mühafizə etmə cəhdidir. Əsəd rejiminin ölkədə reallaşdırdığı böhrana baxmayaraq konfransda müxalifətlə eyni mühiti paylaşması rejimin hərbi üstünlüyünə işarə edir. Eyni zamanda rejimin ölkədəki vətəndaş müharibəsini terrorla mübarizə olaraq əks etdirməsi və Əsədsiz bir keçid hökumətinin mümkün olmayacağını konfransda ifadə etməsi böhranın davam edəcəyinin göstəricisi idi.

İkincisi, konfransın məqsədinin Əsədlə və ya Əsədsiz bir keçid hökumətinin təsisi olaraq təyin olunması, istər müxalifətin istərsə də beynəlxalq cəmiyyətin ölkəni təxminən 40 ildir idarə edən Bəəs rejimiylə bir probleminin olmadığı istiqamətində bir təəssürata gətirib çıxartmışdı. Ancaq Suriya böhranının daha çox bir rejim problemi olduğu unudulmamalıdır. Bəəs rejiminin davam edəcəyi halda yalnız Bəşər Əsədin devrilməsiylə böhranın həll edilməsi mümkünsüz görsənir. Suriyada sağlam bir dəyişimin olması üçün Əsədin igetməsindən əvvəl Bəəs rejiminin devrilməsi lazımlıdır. Əks təqdirdə Əsədin ayrılması ölkədəki zülmün əl dəyişdirəcəyindən başqa bir nəticə verməyəcək.

Üçüncüsü isə 2-ci Cenevrə Konfransında Əsəd rejiminin danışıqlarda əsas məqsədi müxalifəti zəiflətməyə meyillənmişdi. Prosesin uğursuzluqla nəticələnməsi təqdirdə rejimin müxalifətin sərbəst buraxılmaları üçün adını verdiyi Suriyadakı məhbus müxalifləri cəzalandırması gözlənilirdi.

II Cenevrə Konfransında başlıca olaraq bu amillər diqqət çəkmişdir; başda BMT olmaq üzrə ABŞ və Qərb ölkələri Suriya böhranında tutduqları mövqelərinə görə davamlı tənqid olunmaqdadırlar. Xüsusilə 21 Avqust 2013-cü il tarixində Şərqi Qutada kimyəvi silahlarla həyata keçirilən hücumdan sonra ABŞ və digər Qərb ölkələrinin Əsəd rəhbərliyini devirəcək hər hansı bir addım atmaması ümidsizlik meydana gətirmişdi. Obamanın Suriyada kimyəvi silahlardan istifadə edilməsinin özləri üçün qırmızı xətt olduğunu ifadə etməsinə baxmayaraq Quta hadisəsində buna əks bir reaksiya sərgiləməsi, beynəlxalq arenada xüsusilə ərəb ictimaiyyətində ABŞ-a qarşı bir güvənsizliyin ortaya çıxmasına səbəb olmuşdu. Bu problemi həll edə bilmək üçün ABŞ və Rusiya konfransda bir araya gəlmiş, iki ölkə arasında Suriya böhranı ilə əlaqədar bir əməkdaşlıq mühiti yaradılmış, rejim və müxaliflərin razılaşması qarşıya məqsəd qoyulmuşdu. Lakin, bu konfransda nəticəsi etibarilə Suriya böhranına həll gətirməkdən çox tövsiyə xarakterli qərarlar qəbul olundu.

Beynəlxalq cəmiyyətin Suriya böhranının həll edilməsi mövzusunda ciddiliyini göstərmək üçün tərəflər arasında əvvəlcə atəşkəsin təmin edilməsi istiqamətində addımlar atması lazım idi. Konfrans atəşkəs mühiti təmin edildikdən sonra daha mənalı ola bilərdi. Böhranın üç ildir davam etməsi və on minlərlə insanın həyatını itirdiyi reallığı varkən sürətli bir müzakirə çərçivəsində yalnız rejim və müxalifəti bir araya gətirilərək böhranın həll edilməsi mövcud şəraitdə olduqca çətin görünürdü. Bu cür cəhdlər böhranın başladığı 2011-ci ildə reallaşmış olsaydı və konfransın əvvəlində atəşkəs razılığı əldə edilsəydi II Cenevrə konfransının müvəffəqiyyətli olma ehtimalı yarana bilərdi (57).

Bütün bu hadisələrin üfiqində müzakirəyə başlayan rejim və müxalifətin II Cenevrə Konfransında hər hansı bir nəticəyə varmaması, tərəflər arasında ciddi bir güvən probleminin yaşandığını göstərirdi. Ayrıca konfransın uğurlu olması üçün tərəflərin hər hansı bir addım atmadığı da görülməkdə idi. Danışıqların uğurlu olması üçün

konfrans başlamazdan əvvəl rejim gücləriylə müxalifət arasında atəşkəs elan edilməsi, rejim həbsxanalarındakı günahsız məhbusların bir qisminin sərbəst buraxılması və şəhərlər arasında kömək koridorlarının açılması kimi qarşılıqlı addımlar atılması lazım idi. Lakin müzakirələr davam edərkən qarşıdurmaların da davam etdiyi bir mühitdə belə bir konfransın uğurlu olması demək olar qeyri-mümkün idi.

II Cenevrə Konfransından sonrakı dövrdə Suriya böhranında Qərb ölkələri və Rusiya ilə yanaşı İŞİD və İsrail kimi iki əhəmiyyətli aktorun səhnəyə çıxacağı və təyin edici ola biləcəyi qiymətləndirilməkdə idi. Buna görə də ABŞ-Rusiya danışıqlarında rejimin devrilməsindən çox danışıqlar İŞİD təhdidi üzərində cəmlənmişdi. İsrail isə Suriyadakı mövcud parçalanmış quruluşun davamını istəməklə yanaşı, eyni zamanda, Əsədsiz bir keçid hökumətinin qurulmasına da müsbət rəy bildirdi.

Vyana konfransı (2015 oktyabr) - II Cenevrə danışıqları nəticəsində də müvəffəqiyyətli bir nəticə əldə edilmədiyindən 30 oktyabr 2015-ci ildə Vyanada ABŞ, Rusiya, Çin, Türkiyə, Misir, Səudiyyə Ərəbistanı və ilk dəfə olmaq üzrə İranın da qatıldığı bir konfrans reallaşdırıldı. Vyana konfransında Suriyada fəaliyyət göstərən silahlı müxalif qrupların hansının terrorist qrup olaraq adlandırılacağı ana mövzu idi. Vyanada razılaşdırılan “18 aylıq konkret təqvim” çərçivəsində 1 Yanvardan etibarən rejim ilə müxaliflər arasında müzakirələri başladaraq bir keçid hökuməti yaradılması nəzərdə tutulmuşdu. Rusiya Qətər, Türkiyə və Səudiyyə Ərəbistanının dəstəklədiyi bəzi silahlı qrupların terrorist olaraq təsdiqlənməsini istəyirdi. Ancaq Səudiyyə Ərəbistanı bu qrupları Riyad konfransına dəvət edərək onları müzakirə masasına oturacaq Suriyalı müxaliflərin sıralarına əlavə etmək niyyətində idi (67).

Riyadda keçiriləcək görüşdə ABŞ, İngiltərə, Türkiyə, Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, Qatar, Misir, Səudiyyə Ərəbistanı, Oman, İordaniya, Livan və İraq müşahidəçi kimi dəvət edildilər. Sünni Səudiyyə Ərəbistanının ən böyül rəqibi, Əsəd rejiminin dəstəkçisi olan şiə İranı isə Riyad konfransına dəvət edilmədi. İran Riyad görüşünü tənqid edərək, bu görüşün Vyanadakı sülh danışıqlarına zərər verəcəyini

önə sürdü (58).

Vyana görüşündən sonra ABŞ xarici işlər naziri John Kerry Moskvada rus həmkarı Lavrov ilə görüşdü. Daha sonra isə Rusiya Dövlət Başçısı Vladimir Putin Kerry və Lavrovun Kremlin Sarayında qəbul etdi. Təxminən üç saat davam edən görüşdən sonra təşkil edilən mətbuat konfransında danışan Lavrov, görüşdə Suriyada terrorla mübarizənin daha koordinasiyalı bir şəkildə aparılmasına kömək edəcək addımları qərarlaşdırdıqlarını söylədi. Lavrov mərkəzində Suriya böhranının həllini irəliyə daşımaq və terrorla mübarizə məsələlərinin yer aldığı konkret bir görüş reallaşdırdıqlarını ifadə edərək, "görüşdə Suriya böhranının həllində hansı nöqtədə olduğumuzu ətraflı bir şəkildə qiymətləndirdik və Vyanada əldə edilən razılığı təsdiq etdik" dedi (59).

Suriyadakı terror təşkilatları siyahısının müəyyən edilməsi və rejimlə müzakirələr aparacaq müxalifət heyətinin yaradılması mövzularında əməkdaşlığa davam etmə qərarı alıqlarını ifadə edən Lavrov bildirdi ki: "18 dekabrda New Yorkda təşkil ediləcək Suriya danışıqlarını dəstəkləyirik. Bu görüş sonunda qatılan bütün tərəflərin qarşılıqlı razılığı ilə Vyanada qəbul edilən prinsiplərin BMT Təhlükəsizlik Şurasına qərar layihəsi olaraq təqdim ed25 fevral tarixinə qədər təxirə salındığı açıqlandı.iləcəyini düşünürük." Kerry Moskvanın əsl düşmən İŞİD-le döyüşəcəyi təqdirdə ABŞ-ın İŞİD-le mübazrizədə Rursiya ilə əməkdaşlığa hazır olduğunu söylədi.

III Cenevrə sülh danışıqlarının başlaması üçün ən uyğun tarix olaraq Beynəlxalq Suriya Dəstək Qrupu tərəfindən 1 yanvar 2016-ci il olduğu açıqlanmışdı. Daha sonra 25 yanvar tarixində başlayacağı deyilməsinə baxmayaraq tərəflərin şərtləri, etirazları və iştirakçıların müəyyənləşməməsi səbəbiylə müzakirələrin 25 fevral 2016-ci il tarixinə qədər müvəqqəti olaraq dayandırıldığı açıqlandı (50).

BMT TŞ-nın 2254 saylı qərarında nəzərdə tutulan 18 aylıq müvəqqəti hökumətin rəhbərliyi hakimiyyətdə qalma müddətini uzatmaq mövzusunda israr edə bilər. Bunun olması çox ehtimal olunurdu, çünki, Əsəd Rusiyanın verdiyi hərbi dəstək və etdiyi hava hücumları nəticəsində gücünü artırmağa başlamışdı. İkinci olaraq Suriyada nəzərdə tutulan məzhəb ayrı-seçkiliyi olmayan bir rəhbərliyin qurulması

çox çətin görünür. Çünki, indiki hakimiyyət sayca az olsalar da Şiələrin əlindədir və nə Əsəd, nə Ələvilər, nə də Rusiya hakimiyyətin sayca çox olan sünnilərin əlinə keçməsinə icazə verərdi. Üçüncü olaraq İran-Səudiyyə məsələsi kimi regional çəkişmələr Suriya məsələsində ortaq bir qərarın alınmasını çətinləşdirir. İranla edilən nüvə razılaşması Səudiyyə Ərəbistanını və bəzi Körfəz ölkələrini yalnızlaşdırdı və bu ölkələrin İranı işğalçı bir güc olaraq qiymətləndirmələrinə yol açdı. Eyni şəkildə, əgər digər regional güclərin maraq və narahatlıqlarının nəzərə alındığı ortaq bir razılaşma əldə edilməzsə regional bir gərginlik yaşanmağa davam edəcəkdi.

2011ci ilin martından davam edən Suriya böhranında diplomatik bir həll yolunun tapılması 27 fevral 2016-ci ildə BMT Təhlükəsizlik Şurasının 2268 saylı qərarı ilə 9 mart tarixində keçirilən III Cenevrə konfransının kritik gündəmi oldu. III Cenevrə konfransı BMT Təhlükəsizlik Şurasının 2268 saylı qərarının təsiriylə ABŞ və Rusiyanın Suriyadakı döyüşü dayandırmaq razılığı cəhdləri nəticəsində reallaşdırıldı. Bu qərar döyüşün bitirilməsi üçün bütün üzvlərə, xüsusilə, Avropa Birliyi, Ərəb Birliyi, BMT, ABŞ və Rusiyanı da əhatə edən 17 dövlətdən ibarət Beynəlxalq Suriya Dəstək Qrupu üzvlərinə üstlərinə düşəni etmələrini və beləcə qalıcı bir atəşkəsə nail olmaq üçün tərəfləri daha aktiv olmağa çağırırdı. Eyni zamanda, bu qərar Suriyadakı döyüşü bitirmək üçün bir yol xəritəsi çəkdi. Bu yol xəritəsinə görə BMT vasitəsilə təmin edilən siyasi danışıqlar iki illik bir keçid dövrü nəticəsində Suriyada milli atəşkəsi təmin edilə bilər. Bu qərarın verilməsinin əsas səbəbi isə kimyəvi silahlar və yaşanan insani xaos ilə əlaqədar idi (49).

Astana konfransı. Türkiyə və Rusiyanın təşəbbüsü ilə Astanada keçiriləcək Suriya danışıqları 23 yanvar 2017-ci il tarixində başladı. Bu danışıqlara həm Suriya hökuməti, həm müxalifət tərəfi qatıldı. Astana danışıqları daha əvvəlki danışıqlardan fərqli olaraq siyasi müxalifətin qoşulması ilə yanaşı, bu dəfə birbaşa silahlı müxalif qrupların da dəvət edilməsi ilə xüsusi əhəmiyyət daşıyırdı.

Suriyanın ən əhəmiyyətli şəhərlərindən Hələb dekabr ayı içərisində ordunun nəzarəti altına keçdi. Hələbin alınması, vətəndaş müharibəsinin başlanğıcından bu yana Suriya hökumətinin Rusiyanın havadan və İran ilə Hizbullahın isə qurudan təmin etdiyi güc dəstəyiylə birlikdə döyüş sahəsində əldə etdiyi ən əhəmiyyətli uğur

olaraq göstərilərkən, müxaliflərə ciddi bir zərbə endirdi.

Hələbin hökumət tərəfindən geri alınması prosesində şəhərin şərqindən müxaliflərin çıxarılmasında mühüm rol oynayan Türkiyə və Rusiyanın əsas məqsədi əvvəlcə ölkə daxilində atəşkəs elan edilməsini, sonraisə tərəflərin müzakirə masasına oturmasını təmin etmək idi. İki ölkənin təşəbbüsü ilə 2016-cı ilin son günlərində Əl-Nüsrə Cəbhəsi və İŞİD-in xaric tutulduğu Suriya daxilində etibarlı bir atəşkəs elan edildi və danışıqların yanvarın 23-ü Astanada keçirilməsinə qərar verildi (66).

Astana prosesləri hər şeyə baxmayaraq müsbət bir başlanğıc oldu. Suriyada altı ildir bir-biriylə döyüşən silahlı müxalif qruplar ilə Suriya hökuməti səlahiyyətlilərinin eyni dam altında görüşməsiylə Suriya böhranı ərzində bir ilk yaşandı. Suriya hökuməti ilə müxalifətinin əhəmiyyətli bir qisiminin qatıldığı danışıqları təşkil edən Türkiyə və Rusiya da danışıqlarda iştirak edəcək. Ayrıca İranın da danışıqlara qatılması planlaşdırılır.

Türkiyə və Rusiya tərəfindən dəvət edilən ABŞ Astanadakı danışıqlara Qazaxıstandkı səfiri George Albert Krolun müşahidəçi qismində iştirakı ilə qoşuldu. Rusiya Vaşinqtondakı yeni rəhbərliyin danışıqlara qatılmasını "ümid etdiyini" açıqlayarkən, İran isə ABŞ-ın iştirakına qarşı olduğunu elan etmişdi.

Türkiyə və Rusiya BMT-ni də Astanaya dəvət etdi. BMT nümayəndəsi Mistura isə Astanaya köməkçisi ilə birlikdə getdi.

Suriyadakı kürd qruplar isə Astana danışıqlarında iştirak etmədilər. Türkiyə Kürd Müdafiə Birliklərinin (YPG) terror təşkilatı olduğu səbəbiylə danışıqlara dəvət edilmədiyini açıqladı.

Astanada danışıqlarının sonunda bəyan edilən iki səhifəlik bəyanatda aşağıdakılar qeyd olundu: Suriyanın çox etnik quruluşlu, çox dinli, bir məzhəbə bağlı olmayan və demokratik bir ölkə olaraq ərazi bütövlüyü, müstəqilliyi, birliyi və suverenliyinin təsdiqi; Suriyada hərbi bir həllin mümkün olmadığı və yalnız siyasi yollarla həll yolunun mümkünlüyü; atəşkəsin davamı; atəşkəsin müşahidəsi və atəşkəsə istiqamətli təxribatların qarşısının alınması üçün bir mexanizmin qurulması; İŞİD və Əl Nüsrəyə qarşı ortaq mübarizə.

Astanada yekunlaşmayan danışıqlar IV Cenevrə konfransında davam etdirildi. Bu

konfransda əsas müzakirələr Bəşər Əsəd rejimi ilə siyasi keçid prosesiyi mövzusunda müzakirələrlə başladı. Əsəd rejimi və müxalifət arasındakı bilvasitə danışıqlar BMT qarovulunda İsveçrənin Cenevrə şəhərində 23 Fevral-3 Mart tarixləri arasında reallaşdı. BMT Suriya xüsusi nümayəndəsi Stefan de Misturanın idarəçiliyində keçirilən görüşdə "dönüş nöqtəsi" təşkil edəcək bir inkişaf yaşanmadı.

Görüşlər BMT Təhlükəsizlik Şurasının 2254 saylı qərarı ilə qeydə alınan yol xəritəsi çərçivəsində başladı. Bu qərar çərçivəsində müzakirələrin Suriyada tam səlahiyyətli bir keçid rəhbərliyinin qurulmasının, bu rəhbərliyin konstitusiyanı hazırlamasını, və daha sonra ölkəni ədalətli seçkilərə aparmağı nəzərdə tutan bu 3 istiqamətdə gedəcəyi gözlənilirdi. Eyni zamanda, Əsəd rejimi "terrorla mübarizə"-nin 4-cü mövzu başlığı olaraq danışıqlara əlavə olunmasını istədi (68).

Müxalifət ağırlıqlı olaraq keçid rəhbərliyinin ələ alınması, konstitusiya və seçki məsələlərinin səthi şəkildə qiymətləndirilməsi şərti ilə bu proqramla razılaşdı. Terrorla mübarizə aparan tərəfin əsl özləri olduğunu daha dəqiq göstərmək istəyən müxalifət gündəminin dəyişdirilməməsi şərti 4-cü başlığı da qəbul etdi. Müxalifləri ən çox narahat edən mövzu isə Moskva və Qahirə rəhbərliklərinə yaxın olan və özlərini müxalif olaraq adlandıran qrupların BMT-yə dəvət edilməsi idi.

Əsəd rejimi həqiqi müxalifətin parçalanmış olduöunu göstərərək "qarşımda müzakirə edəcək həmsöhbət yoxdur" ifadəsiylə masadan qaçış yollarını axtardı. Müxaliflər isə bu taktikaya Moskva və Qahirə qruplarını tamamilə rədd etmədən öz tərkibinə qataraq və bunun sayəsində onları təsirsiz etməyə çalışaraq cavab verdilər. Beləcə, müxalifət Cenevrədə masadan ayrılan tərəf olmamaq staretegiyasını həyata keçirtdi və rejimin artan atəşkəs pozuntularını Cenevrədə aşkara çıxartmaq üçün özünü masada qalmağa məcbur etdi.

Türkiyə Cenevrədə siyasi keçid prosesinin müzakirəsini təmin etmək üçün rejim xaricindəki tərəflər üzərində bütün təsirini istifadə etdi və görüş gündəminin dəyişdirilməsinə maneə olmağa çalışdı. Eyni zamanda, müxaliflərə masada qalaraq rejimi siyasi keçid prosesini müzakirə etməyə məcbur etməyi tövsiyə etdi.

Cenevrədə ABŞ-ın varlığı hiss edilmədi. ABŞ diplomatiyası prezident Donald Trump rəhbərliyinin Suriya siyasətinin hələ də təyin olunmaması səbəbiylə passiv bir

mövqe nümayiş etdirdi. ABŞ-ın Suriya Xüsusi Nümayəndəsi Michael Ratney danışıqların "bir şəkildə davam etdirilməsi"-ni təşviq edərək yeni ABŞ rəhbərliyinə zaman qazandırmağa çalışdı (47).

Sülh danışıqlarının gedişatı onu göstərdi ki, Suriya böhranının həlli regional kontekstdə Türkiyə, İsrail, İran, Səudiyyə Ərəbistanı və Qətər arasında bir razılığım təmin edilməsindən keçir. Qlobal məzmunda isə ABŞ, Rusiya və Çin üçbucağında bir sıra addımlar atılması zəruri görünməkdədir. Bunun əsas səbəbi Suriya böhranının bir daxili məsələdən çıxması, regional və qlobal bir xüsusiyyətə qovuşmuş olmasıdır (42).

# NƏTİCƏ

Yaxın Şərq tarix boyu siyasi mübarizələrin, müharibələrin yaşandığı regionlardan biri olmuşdur. XX əsrin əvvəllərində Osmanlı imperiyasının süqutu ilə Yaxın Şərq regionu strateji əhəmiyyəti və sahib olduğu zəngin yeraltı ehtiyatlar səbəbindən dünyanın böyük dövlətləri tərəfindən parçalanmalara, müharibələrə məruz qalmışdır. Xüsusilə, İkinci Dünya müharibəsindən sonra Yaxın Şərq regionu soyuq müharibə dövründə həm Şərq, həm də Qərb bloku üçün iqtisadi və siyasi əhəmiyyət kəsb etdiyindən tərəflərin rəqabət etdiyi əsas regionlardan biri olmuşdur.

"Ərəb baharı"ndan təsirlənərək başlayan Suriya münaqişəsi regionda maraqların və mövqelərin yenidən formalaşdırılmasına səbəb oldu. Bu mərhələ bəzi dövlətlər üçün regionda mövqelərinin güclənməsi, bəzi güclər üçün isə yeni mövqe uğrunda mübarizəyə qoşulma fürsəti yaratdı.

Suriyada baş verən bu hadisələr təhlil edildiyi zaman burada daxili və xarici amillərin mühüm rol oynadığını görmək olar. Müxtəlif maraqlara xidmət edən bu münaqişədə böyük güclər tərəfindən fürsət olaraq dəyərləndirilən ölkənin fərqli etnik, dini məzhəblərə sahib olması və ölkənin daxili iqtisadi və siyasi vəziyyətinin stabil olmaması mühüm rol oynamışdır. Belə ki, azlıqda olan ələvilərin hakimiyyətdə olması, ölkədə ən böyük etnoslardan olan kürdlərin narazılıqlarının artması, su qıtlığı probleminin yaşanması, sosial-iqtisadi vəziyyətin pisləşməsi, işsizliyin artması hökumət əleyhinə çıxışların başlamasına səbəb oldu.

Daxili səbəblərdən qızışmağa başlayan bu münaqişə Suriyanın malik olduğu geostrateji mövqeyi və enerji potensialı ilə Rusiya, Qərb, İsrail və digər region ölkələrinin maraqlarından dolayı inkişaf edərək beynəlxalq böhrana çevrilməyə başladı.

ABŞ Yaxın Şərqdə ortaq maraqları olduğu səbəbindən Suriya böhranında digər Qərb dövlətləri ilə müttəfiq olaraq siyasət aparmağa başladı. Tərəflər bu münaqişədə rejimin devrilməsi, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması, sülhün təmin edilməsi və sabitliyin qorunması, neft və qazın dünya bazarına nəql

olunmasının təhlükəsiz şəraitdə həyata keçirilməsi ilə bağlı birgə siyasət həyata keçirtməklə burada öz geosiyasi və iqtisadi maraqlarını əldə etməklə yanaşı, eyni zamanda Rusiyanın buradakı mövqeyinin zəifləməsinə çalışırlar.

Soyuq müharibənin başa çatmasından sonra dünyada "tək super güc" olaraq hakimiyyət sahəsini xeyli genişləndirən ABŞ Yaxın Şərqdə nüfuzunu artırmaq və regional maraqlarını həyata keçirmək məqsədilə regiona hərbi müdaxilələr etmişdir. Xüsusilə, 11 sentyabr 2001-ci ildə ABŞ-a qarşı törədilən terror aktı, ölkənin regional siyasətinin dəyişməsinə səbəb olmuş və hərbi müdaxiləsinə gətirib çıxartmışdır. Digər tərəfdən qarşısında ciddi mənada müqavimət göstərən gücün olmaması da ABŞ üçün əlverişli bir fürsət idi.

2011-cu ildən etibarən Suriya böhranı regionda əsaslı dəyişiklərin baş verməsinə səbəb oldu. ABŞ artıq sülhpərvər və dost dövlət imici yaratmaq üçün daha çox əməkdaşlıq, danışıqlar və uzlaşma yolu ilə münasibətləri normallaşdırmaq prinsipi ilə hərəkət etməyə başladı. 2013-cü ildə Əsəd rejiminin kimyəvi silahdan istifadə etməsindən sonra isə vəziyyət yenidən dəyişdi. Bu hadisədən sonra ABŞ Suriyaya hərbi müdaxilənin vacibliyi məsləsini ön plana çıxartdı. Bununla da ABŞ Suriyanı öz təsir orbitinə salmağa və regionda ABŞ yönümlü siyasət yürüdən dövlətlərin sayını artırmağa çalışırdı. Əlbəttə ki, burada Türkiyə və İsrail ilə əməkdaşlıq xüsusi yer tutur.

Suriya böhranında siyasi, iqtisadi, strateji maraqlara sahib olan Rusiya böhranın yaranmasından bəri Əsəd rejimini dəstəkləyir və ABŞ-ın əksinə olaraq məsələnin beynəlxalq hüquq çərçivəsində və ərazi bütövlüyü prinsipinin qorunması şərti ilə həllinin tərəfdarıdır. Suriya Rusiya üçün regionda öz təsirini qoruyub saxlamaq və ABŞ-a əks balans yaratmaq üçün önəmli mövqeyə malikdir.

Liviya mövzusunda Qərbin önünə keçə bilməyən Rusiya, Suriya məsələsində öz mövqeyini ortaya qoydu. İlk öncə Rusiyanın Suriya mövzusunda Qərb müdaxiləsinə qarşı gəlməsinin əsas səbəbi Rusiya-Suriya əlaqələrdən daha çox Rusiya-İran münasibətlərində gizlənir. Bu səbəbdən də, Rusiya baxımından Suriya İrana edilə biləcək hər hansı bir ABŞ-İsrail müdaxiləsinin önləmək üçün sədd rolunu oynayır. Eyni zamanda, Rusiyanın Suriya sahilində olan Tartus Hərbi Limanının 1971-ci ildən

etibarən Rus hərbi qüvvələrinin Aralıq dənizindəki varlığı baxımından böyük əhəmiyyət daşıması Rusiyanın Suriya siyasətinin formalaşmasında mühüm rol oynayır.

Suriyada vətəndaş müharibəsinin necə sona çatacağı, yeni Suriyanın necə olacağı və Suriya böhranının regiona təsirlərinin sonda necə nəticələnəcəyi sualına cavab vermək bir qədər qeyri-mümkündür. Amma hər vəziyyətdə köhnə Suriyaya geri qayıdılmasını və ölkənin güclü mərkəz tərəfindən idarə ediləcəyini söyləmək çətin olardı. Yaxın Şərqdə avtoritar rejimlərin aradan qalxdığı hallarda necə bir siyasəsi quruluşun ortaya çıxa biləcəyilə bağlı iki nümunə olaraq Livan və işğal sonrası İraq göstərilə bilər. Hər iki ölkədə müxtəlif etnik-dini qrupların öz ərazilərinə nəzarət etdiyi və hətta İraqda görüldüyü üzrə federal bölgələrin yarandığı məlumdur. Suriyada müxalifət bölgəsi demək olar tamamilə sünni əksəriyyətin yaşadığı bir ərazini əhatə edir. Suriyadakı sünni əhalinin yaşadığı bu bölgə onsuzda uzun müddətdir mərkəzi hökumətin nəzarət edə bilmədiyi bir bölgə idi və son böhran ilə birlikdə sünni bölgəsinin sərhədləri daha dəqiq şəkildə ortaya çıxmağa başladı. Suriyadakı kürdlər xarici təhdidlərə baxmayaraq mərkəzi hökumətin kürd ərazilərindən çəkilməsi ilə tək tərəfli və hökuməti olmayan bir quruluş da olsa kürd avtonom bölgələri meydana gətirməyi bacardılar. İraqdakı proseslər ilə birlikdə düşünüldüyündə Suriya böhranının Yaxın Şərq bölgəsinin təhlükəsizliyi baxımından sərhədlərin yenidən dəyişilməsinə gətirib çıxardacaq səviyyədə təhlükəsizlik təhdidini ortaya çıxardığını söyləyə bilərik.

Suriya böhranını əhəmiyyətli edən amillərdən biri də hümanitar təsirlərdir. Daxili döyüş səbəbiylə 3 milyondan çox Suriyalı ölkə xaricinə köç etmək məcburiyyətində qalmışdır. Qaçqınların böyük əksəriyyətinə Suriyanın dörd qonşu ölkəsi Türkiyə, Livan, İordaniya və İraq ev sahibliyi etməkdədir. Türkiyə və İraq Kürd Bölgəsi nisbətən daha az risk altında olsa da iqtisadi olaraq zəif, qaynaqları məhdud, həssas siyasi və ictimai quruluşa malik olan Livan və İordaniya üçün isə qaçqınlar əsas təhlükəsizlik probleminə çevrilməkdədir. Suriyada qeyri-sabitliyin davam etməsi, yeni köç dalğalarının olma ehtimalını gücləndirməkdədir. Xüsusilə, Şam ətrafında qarşıdurmaların sıxlaşması onsuz da böyük təzyiq altında olan İordaniya və Livana

doğru kütləvi köç yaşanmasına səbəb olacaq. Köç edənlərin böyük əksəriyyətinin sünni olması, xüsusilə Livan kimi etnik-dini məzhəb ayrı-seçkiliyinə əsaslanan ictimai və siyasi quruluşa sahib ölkələrdə gərginliyi daha da artırmaqdadır. Təhlükəsizlik baxımından ən əhəmiyyətli mövzulardan biri də qaçqınların həyat şəraitinin xüsusilə Livan və İordaniyada son dərəcə pis olmasıdır. Bu vəziyyət qaçqın düşərgələrində və düşərgə xaricində yaşayan Suriyalıların bölgədə qeyri-sabitlik çıxarma potensialına sahib güclər baxımından qaynaq olaraq istifadə edilməsi riskini də özü ilə gətirməkdədir. Buna nümunə olaraq Fələstin qaçqın düşərgələrinin uzun illərdir Yaxın Şərq təhlükəsizliyi baxımından oynadığı rol göstərilə bilər.

Göründüyü kimi, Suriya məsələsində qeyri-müəyyənlik qalmaqdadır. Bir tərəfdən, Rusiyanın hərbi əməliyyatları davam edir, digər tərəfdən isə Qərb oraya yeni hərbi qüvvələr yeritməyi planlaşdırır. Çağırılan sülh danışıqlarında isə tərəflərin konkret mövqe ortaya qoymaması münaqişənin həllini uzadır. Bunlarla yanaşı, bölgədə separatizm və terror da davam edir. İndi Suriya-Türkiyə sərhədi Əfqanıstan-Pakistan sərhədi ilə müqayisə olunur. Bir zaman talibləri dəstəkləyənlər indi PKK-nın Suriya qoluna yardım edir, onların muxtar qurum yaratmasına yaşıl işıq yandırırlar. Təbii ki, buna təkcə Ankara deyil, Tehran, Ər-Riyad, Qahirə və digər region ölkələrinin paytaxtlarından da reaksiya veriləcək. Səbəb bundadır ki, hər kəs söhbətin sonda regionun parçalanmasından getdiyinin fərqindədir.

Beləliklə, böhranın təhlil edilməsi zamanı müəllif tərəfindən bir necə aşağıdakı nəticələr əldə edilmişdir: Əsədə qarşı nümayişlər şəklində başlamış böhran regional səviyyəyə yüksələrək geniş şiə-sünni qarşıdurmasına çevrilmişdir; konfliktin digər körfəz dövlətlərinə keçməsi ehtimalı olduqca böyukdur; gənclərin geniş miqyasda radikallaşması və ekstrimist qruplara üzv olması regionun gələcək stabilliyinə ciddi hədədir; silahlı toqquşmaların dayandırılması üçün Suriya daxilində fəaliyyət göstərən və konflikt iştirakçıları olan qruplara silah yardımı edilməsi dayandırılmalıdır.

Suriya böhranının həlli regional kontekstdə Türkiyə, İran, İsrail, Səudiyyə Ərəbistanı və Qətər arasında bir razılığım təmin edilməsindən keçir. Qlobal məzmunda isə ABŞ, Rusiya və Çin üçbucağında bir sıra addımlar atılması zərurət təşkil edir. Bunun əsas

səbəbi Suriya böhranının bir daxili məsələdən çıxması, regional və qlobal bir xüsusiyyətə qovuşmuş olmasıdır. Beləliklə, Suriyada qalıcı və gerçək bir sülhün təmin edilə bilməsi üçün regional və qlobal aktorlar arasında bir uzlaşmanın təmin edilməsi və çağırılam sülh danışıqlarında konkret mövqe ortaya qoyulması vacibdir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

**Azərbaycan dilində:**

1. Yaxın Şərqdə geosiyasi vəziyyət: toqquşan maraqlar və təhdidlər // New times: analyticalinformation,2015,yanvar // http://newtimes.az/

2. Yusifzadə T. Suriya Böhranı və onun beynəlxalq nəticələri: mag. Bakı, 2015, 102 s.

**İngilis dilində:**

3. Battle for Aleppo, How Syria Became the New Global Warhttp://www.spiegel.de/

4. Cathrine Moe Thorleifsson, A fragile cold peace: the impact of the Syrian conflict on Israeli Syrian relations.

5. Christopher M. Blanchard, Carla E. Humud, Mary Beth D. Nikitin, Armed Conflict in Syria: Overview and U.S. Response, October 9, 2015

6. Europe Report, Blurring the borders, Report No. 225, April 30, 2013.

7. France delivered arms to Syrian rebels, Hollande confirms // http://www.france24.com/

8. France's Hollande hints at arming Syrian rebels //http://www.france24.com/

9. France launches air strikes against Islamic State in Syria//http://www.reuters.com/

10. France more active than rest of the west in tackling Syria // https://www.theguardian.com/

11. How Syria's civil war became America's problem // https://www.vox.com/

12. International Crisis Group, "Blurring the Borders: Syrian Spillover Risks for Turkey," International Crisis Group, 2013, p. 30

13. International Crisis Group,Russias choice in Syria // http://www.crisisgroup.org/

14. Israel, General Debate, 69th Session// http://webtv.un.org/watch/israel-general-debate-69th-session/3812088094001

15. Hezbollah attacks Israel latest chapter long shadow war israel iran //

http://dailysignal.com/2015/01/29/hezbollah-attacks-israel-latest-chapter-long-shadow-war-israel-iran/

16. Jane Kinninmont, The Syria Conflict and the Geopolitics of the Region //http://www.iemed.org/

17. Obama says Syria settlement needed to eliminate Islamic State // http://ca.reuters.com/

18. Long-range bombers to fly anti-ISIS missions from Russia, Putin orders Navy to work with France // https://www.rt.com/news/322436-russia-strikes-syria-putin/

19. Parliament votes to bomb Islamic State in Syria // http://uk.reuters.com/article/uk-mideast-crisis-syria-britain-idUKKBN0TK4QO20151203

20. Putin is fanning Syrian civil war, Hammond says // http://uk.reuters.com/

21. Ram M. Creating a Peaceful Place of War: Revisiting the Golan Heights BorderRegion // eurasia_border_review/Vol41/V4N105M.pdf

22. Roots of the Syrian Crisis by VP Haran. Internal Situation | External Environment | Roles of Different Actors | Crisis

23. Russia involves strategic missile carriers in operation against Islamic State in Syria // http://tass.com/defense/837226

24. Russian missiles 'hit IS in Syria from Caspian Sea' // http://www.bbc.com/

25. Syrian ambassador names associate of turkish prime minister as muslim brotherhood leader // https://www.globalmbwatch.com/

26. Syria air strikes: RAF Tornado jets carry out bombing //http://www.bbc.com/

27. Syria crisis: Cameron loses Commons vote on Syria action // http://www.bbc.com/

28. Syria's civil war explained from the beginning // http://www.aljazeera.com/

29. Syria: The story of the conflict // http://www.bbc.com/news/world-middle-east-26116868

30. Syria workshop series: Reassuring local communities and framing national consensus. Brookings Doha Center. June 2013

31. The Confused Person’s Guide to the Syrian Civil War //

https://www.theatlantic.com/
32. Turkey downing of Russia jet 'stab in the back' - Putin // http://www.bbc.com/
33. US axes $500m scheme to train Syrian rebels, says NYT // https://www.theguardian.com/
34. U.S. Forms Anti-ISIS Coalition at NATO Summit // http://time.com/3273185/isis-us-nato/
35. US set for Syria strikes after Kerry says evidence of chemical attack is 'clear' // https://www.theguardian.com/world/2013/aug/30/john-kerry-syria-attack-clear-evidence
36.U.S. Weaponry Is Turning Syria Into Proxy War With Russia //https://www.nytimes.com/
37. Vick Karl “Life on the Golan Heights echoes Israel’s policy with Syria.” September 19th, Time World // http://world.time.com/
38.What caused Syria’s civil war? //https://www.worldwatchmonitor.org/2013/08/what-caused-syrias-civil-war/
39. Why is there a war in Syria? // http://www.bbc.com/
40. Will Fulton, Joseph Holliday, Sam Wyer, “Iranian Strategy in Syria, 2013 by Institute for the Study of War and AEI’s Critical Threats Project
41. William Young, David Stebbins, Bryan A. Frederick, Omar Al-Shahery, Spillover from the Conflict in Syria// http://www.rand.org/
42. William Young, The Winners and Losers From The Syria Conflict, cnn.com, January 21,2013; and Jeffrey Martini, Erin York, William Young, Syria as an Arena of Strategic Competition,Santa Monica, Calif.: RAND Corporation, RR-213-OSD, 2013 //http://www.rand.org/

**Türk dilində:**

43. ABD-nin Suriye politikasindaki donusum// http://www.21yyte.org/tr/
44. Akgün B., “ABD’nin Suriye Politikası”, Suriye Krizi’nde Bölgesel ve Küresel Aktörler, SDE Analiz, Haziran 2012, s. 10.

45. Ali Onur Tepeciklioğlu, Elem Eyrice Tepeciklioğlu, Teoriden pratiğe: Suriye krizi ve uluslararası toplum. Ankara Üniversitesi SBF Dergisi, Cilt 70, No. 1, 2015, s. 163 - 193

46. Annan: Barış planı Suriye için son fırsat // http://www.bbc.com/

47. Astana suriye krizinde son viraj 24 ocak 2017 // http://www.aksahaber.org/astana-suriye-krizinde-son-viraj-24-ocak-2017.html

48. Bölünmüş Suriye ve Orta Doğu'nun Yeni Su Denklemi // http://www.hidropolitikakademi.org/

49. Cenevre 3 Görüşmeleri: Tünelin Sonundaki Işık mı, Suriye Çölündeki Serap mı? // http://researchturkey.org/tr/

50. Cenevre 4 Suriye Görüşmelerinin Sonuçları // http://www.stratejikortak.com/

51. Doster B., "Batının Suriye Açmazı", Ortadoğu Analizi, 4 (47), 2012, s.34

52. Esad baris planini kabul etti // http://www.aljazeera.com.tr/

53. İngilterenin Suriye Krizindeki Tutumu //http://www.bilgesam.org/

54. İrak ve suriyedeki gelismelerin turkiyeye etkileri // http://www.arem.gov.tr/irak-ve-suriyedeki-gelismelerin-turkiyeye-etkileri

55. Kofi annanin suriye plani nedir // http://www.dunyabulteni.net/haber/205440/kofi-annanin-suriye-plani-nedir

56. Küresel Ve Bölgesel Güçlerin Suriye Politikası // http://www.kenandabirkuyu.org/

57. On soruda 2. Cenevre konferansi // http://www.hurriyet.com.tr/10-soruda-cenevre-ii-konferansi-25629289

58. Riyadda suriyeli muhalifleri birlestirme zirvesi // http://www.aljazeera.com.tr/

59. Rusya ve ABD Viyanada varilan Suriye mutabakatini teyit etti // http://www.hurriyet.com.tr/

60. Rus Analizcilerin Gözüyle Rusya'nın Yakın Çevre Politikası: Orta Doğu ve Suriye // https://ankasam.org/

61. Rusyanin artan bolgesel etkisi ve turkiye // http://www.aljazeera.com.tr/

62. Suriyenin durumu? ABD - Rusya ve Türkiyenin tutumu // http://dergipark.gov.tr/

63. Suriye ic savasinin bolgedeki etkileri // http://marksist.net/

64. Suriye iç savaşı ve ortadoğuda güvenlik // http://www.orsam.org.tr/

65. Suriye krizinde bölgesel ve küresel aktörler // http://docplayer.biz.tr/16322349-Suriye-krizinde-bolgesel-ve-kuresel-aktorler.html

66. Suriye krizinde Astana donemeci // http://www.ahaber.com.tr/

67. Suriye krizi PYD ve 2. Cenevre konferansi // http://www.bilgesam.org/incele/96/-suriye-krizi--pyd-ve-2--cenevre-konferansi/#.WTrsxzi6zIU

68. Suriye müzakereleri: Astana görüşmeleri hakkında merak edilenler // http://www.bbc.com/turkce/haberler-dunya-38661085

69. Suriyede yaşanan gelişmeler ve küresel güçlerin suriye politikası // http://www.academia.edu/

70. Türkiye-Rusya Yakınlaşması ve Suriye // http://www.orsam.org.tr/

**Rus dilində:**

71. Степанова Е., “Сирийский кризис и формирование внешней политики России”, Аналитическая записка, № 199 Май, ПОНАРС Евразия, 2012, с. 6.

72. Степанова Е.А. Вооруженный Конфликт в Сирии и Политика России, 2012, http://www.estepanova.net/03StepanovaSyria.pdf (12.02.2016).

73. Сирия добровольно ввела бесполетную зону на границе с Турцией. 2012, октябрь. // http://lenta.ru/news/2012/10/05/noflyzone/

74. Почему Россия так сильно поддерживает Сирию?// http://russian.people.com.cn/

75. Заявление о прекращении войны в Сирии: у США и России разные цели // http://inosmi.ru/politic/20160225/235533136.html